RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 254 (9709) 19 noyabr 2024-cü il ÇƏRŞƏNBƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

## COP29 qlobal əməkdaşlıq platformasına çevrildi




Ölkəmizin enerji resursları ilə zəngin olması və dünyada enerji resurslarının ixracatçısı kimi tanınmasına baxmayaraq, bərpa edilən enerji mənbələrindən istifadə də hər zaman diqqət mərkəzindədir. Prezident İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən enerji təhlükəsizliyi siyasətinin təməl prinsiplərindən biri də ölkəmizdə bərpaolunan enerji mənbələrindən istifadənin gücləndirilməsindən ibarətdir. Dövlətimizin başçısının dəfələrlə vurğuladığı kimi, "yaşıl enerji" növlərinin yaradılması və onun dünya bazarlarına nəqli Azərbaycanın enerji siyasətinin prioritetidir.

Azərbaycan bərpaolunan enerji mənbələri üzrə yüksək potensiala malik olan ölkələrdəndir. Belə ki, ölkəmizin bərpaolunan enerji mənbələrinin texniki potensialı quruda 135, dənizdə 157 QVt-dır. Bərpaolunan enerji mənbələrinin iqtisadi potensialı isə 27 QVt, o cümlədən külək enerjisi üzrə 3000, günəş enerjisi üzrə 23000, bioenerji potensialı 380, dağ çaylarının potensialı 520 MVt həcmində qiymətləndirilir.

Azərbaycan bərpaolunan enerji sahəsində qabaqcıl ölkələr sırasına yüksəlmək əzmindədir və bu məqsədlə zəngin külək və günəş potensialından istifadə edir. Bu həmçinin ölkəmizin 2050-ci ilə qədər istixana qazı emissiyalarını 40 faiz azaltmaq planının mühüm tərkib hissəsidir. Ölkəmiz 2030-cu ilə qədər elektrik enerjisində bərpaolunan enerjinin qoyuluş gücü üzrə payını 30 faizə çatdırmaq və "yaşıl enerji" sahəsində lider olmaq üçün mövcud enerji sistemini şaxələndirir. Azərbaycan bu sahədə nümunəvi ölkə olaraq 1.5°C hədəfinə uyğun olaraq növbəti Milli Səviyyədə Müəyyən Edilmiş Töhfələr sənədi çərçivəsində öz milli hədəflərini yeniləyəcək.

Hazırda dünya ölkələri üçün ən aktual məsələlərdən biri "yaşıl enerji"yə keçiddir və bu, davamlı inkişafın artıq əsas şərtlərindən birinə çevrilməkdədir. Ən əsası da, iqlim böhranının aradan qaldırılmasında məhz "yaşıl enerji"dən istifadə həlledici əhəmiyyət kəsb edir, istixana qazı emissiyalarını böyük ölçüdə azaltmağa imkan verir. Ümumiyyətlə, ekoloji, iqtisadi və texnoloji amillərin birləşməsi "yaşıl enerji"yə uğurlu keçidə imkan yaradır. Amma bunun üçün müvafiq həcmdə sərmayələrin cəlb olunması əsas şərtlərdən biridir. Real mənzərənin təhlili göstərir ki, ölkələrin bir çoxunun, xüsusən də inkişaf etməkdə olanların "yaşıl enerji"yə keçidini əngəlləyən əsas faktorlardan biri məhz maliyyə, investisiya çatışmazlığıdır. Hətta ikişaf etmiş ölkələrin bir çoxunda da investisiya yetərsizliyi "yaşıl enerji"yə keçidin istənilən templə getməsini əngəlləyir. Bu səbəbdən "yaşıl enerji" siyasəti yürüdən ölkələrin diqqət mərkəzində saxlamalı olduğu məqamlardan biri müvafiq sərmayələrin cəlb olunması ilə bağlıdır. Sözügedən xüsusda uğur nümunəsi yaradan ölkələrdən biri də Azərbaycandır.

→ 12

## Avqust Pflüger Azərbaycan-ABŞ əməkdaşlığının inkişafına töhfə verməyə hazırdır



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 17-də ABŞ Nümayəndələr Palatasının üzvü Avqust Pflügerin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.**

→ 2

## COP29 ilə əlaqədar bütün tədbirlər yüksək səviyyədə təşkil olunub



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 17-də Beynəlxalq Kanoe Federasiyasının prezidenti Tomas Konietzko, Beynəlxalq Avarçəkmə Federasiyasının prezidenti Jan Kristof Rollan və Beynəlxalq Draqon Qayıqları Federasiyasının prezidenti Klaudio Şermi ilə görüşüb.**

→ 2

## Azərbaycan 2026-cı ildə Dünya Urban Forumuna evsahibliyi edəcək



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 17-də Malayziyanın paytaxtı Kuala Lumpur şəhərinin meri, BMT-nin Məskunlaşma Proqramının (UN-HABITAT) sabiq icraçı direktoru xanım Maimuna Mohd Şərif ilə görüşüb.**

→ 2

## Azərbaycan ilə ICESCO arasında uğurlu əməkdaşlıq həyata keçirilir



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 17-də ICESCO-nun Baş direktoru Salim bin Məhəmməd əl-Maliki ilə görüşüb.**

→ 2

## Azərbaycan ilə Rusiya arasında milli valyutalarda ödənişlər əlaqələrimizin möhkəmlənməsinin yaxşı göstəricisidir



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 18-də Rusiya Federasiyasının maliyyə naziri Anton Siluanov və Rusiya Federasiyasının Dövlət Dumasında Rusiya Liberal Demokrat Partiyası fraksiyasının rəhbəri Leonid Slutski ilə görüşüb.**

→ 2

## Azərbaycan və Palau prezidentləri arasında yüksək səviyyədə ilk görüş



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 18-də Palau Respublikasının Prezidenti Surangel Uipps ilə görüşüb.**

→ 3

## Birinci vitse-prezident Mehriban Əliyeva Milli Dirçəliş Günü münasibətilə paylaşım edib




COP29
Baku
Azerbaijan

# Avqust Pflüger Azərbaycan-ABŞ əməkdaşlığının inkişafına töhfə verməyə hazırdır

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 17-də ABŞ Nümayəndələr Palatasının üzvü Avqust Pflügerin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.**



AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı COP29-un uğurla keçdiyini deyərək vurğuladı ki, baxmayaraq, Paris razılaşmasının 6-cı bəndi üzrə on ildən artıqdır danışıqlar aparılıb, COP29-un ilk günündə bununla əlaqədar ciddi irəliləyiş əldə edilib. Prezident İlham Əliyev qeyd etdi ki, COP29 maliyyə mövzusuna həsr olunub və burada yeni iqlim maliyyə hədəfinin müəyyənləşdirilməsi gözlənilir. Beynəlxalq ictimaiyyət də bunu gözləyir. Azərbaycan Prezidenti beynəlxalq maliyyə və bank strukturları tərəfindən COP29-da iqlim maliyyəsi ilə bağlı verilən açıqlamaları da bu istiqamətdə ümidverici addım kimi qiymətləndirdi.

Qonaqlar ilk növbədə Azərbaycanın COP29-a evsahibliyi etməsi münasibətilə təbriklərini çatdırdılar.

Görüşdə Azərbaycan ilə ABŞ arasında əməkdaşlıq və ölkəmizin "yaşıl keçid" strategiyası məsələləri ətrafında fikir mübadiləsi aparıldı.

Azərbaycanın müstəqilliyinin bərpasından sonra ABŞ-nin ölkəmizə dəstəyi xatırlandı, enerji strategiyamızın inkişafında onun dəstəyi qeyd olundu.

Avqust Pflüger Nümayəndələr Palatasının sədri Mayk Consonun adından nümayəndə heyəti ilə görüşə görə dövlətimizin başçısına minnətdarlığını bildirdi.

Ölkəmizə səfərdən məmnun qaldıqlarını deyən qonaq Azərbaycan-ABŞ əməkdaşlığının inkişafına töhfə verməyə hazır olduğunu vurğuladı.

Dövlətimizin başçısı son 30 ildə ölkələrimiz arasında müxtəlif sahələrdə uğurlu və qarşılıqlı faydalı əməkdaşlığımızı qeyd etdi.

Prezident İlham Əliyev 1994-cü ildə imzalanan "Əsrin müqaviləsi"nə toxundu, o zaman ABŞ hökumətinin bu layihəyə dəstəyini xatırlatdı və bu müqavilənin ABŞ və onun müttəfiqlərinin enerji təhlükəsizliyinin təmin olunması işinə töhfə verdiyini vurğuladı, həmin dövr ərzində energetika sahəsində əsaslı əməkdaşlığın möhkəmləndiyini dedi.

Dövlətimizin başçısı Azərbaycanın "yaşıl enerji" strategiyası haqqında danışaraq ölkəmizin beynəlxalq tərəfdaşlarla birlikdə bərpaolunan enerjinin istehsalı potensialını artırdığını və 2027-ci ilədək Azərbaycanın enerji istehsalının 30 faizinin "yaşıl enerji"nin payına düşəcəyini bildirdi.

Prezident İlham Əliyev Azərbaycanın bərpaolunan enerji potensialı əsasında Qara dənizin dibi ilə çəkilməsi nəzərdə tutulan elektrik enerjisi kabeli layihəsinə toxundu, bu xüsusda dövlətimizin region ölkələri - Gürcüstan, Rumıniya və Macarıstanla əməkdaşlığını qeyd etdi. Həmçinin Mərkəzi Asiya ölkələri ilə Xəzər dənizi vasitəsilə "yaşıl enerji" sahəsində əməkdaşlığı, COP29 zamanı Azərbaycan, Özbəkistan və Qazaxıstan arasında "yaşıl enerji"nin inkişafı və transmissiyası haqqında imzalanmış sənədi vurğulayan Prezident İlham Əliyev qeyd etdi ki, Azərbaycan region ölkələri ilə birlikdə Xəzər və Qara dəniz hövzələrini birləşdirən "yaşıl enerji" dəhlizi formalaşdırır.

Prezident İlham Əliyev Azərbaycanın Xəzər dənizində böyük həcmdə bərpaolunan külək enerjisi potensialının olduğunu vurğuladı, hidroenerji resurslarının da inkişaf etdirildiyini və bunun da böyük enerji istehsalı həcmlərinə çatacağını vurğuladı. Dövlətimizin başçısı Azərbaycanın yaxın dövr ərzində 4 giqavat gücündə bərpaolunan enerjinin Avropa İttifaqı bazarına ixrac etmək imkanına malik olacağını bildirdi və Avropa İttifaqı bazarının enerji tələbatının artmaqda olduğunu dedi.

Söhbət zamanı Azərbaycan ilə ABŞ arasında bərpaolunan enerji sahəsində əməkdaşlıq üçün böyük perspektivlərin olduğu qeyd edildi.

Prezident İlham Əliyev ölkəmizin regional sülh gündəliyinə sadiq qaldığını, onu dəstəklədiyini vurğuladı, sülh müqaviləsinin təşəbbüskarının Azərbaycan olduğunu xatırlatdı.

Ölkəmizin otuz il ərzində Ermənistan tərəfindən işğala və hərbi təcavüzə məruz qaldığını, hazırda Azərbaycanın öz ərazi bütövlüyünü və suverenliyini bərpa etdiyini deyən dövlətimizin başçısı bu münaqişənin Azərbaycan üçün artıq keçmişdə qaldığını bildirdi.

Azərbaycan Prezidenti Ermənistanın militarizasiya və silah yarışı siyasətinin regional sülh və təhlükəsizliyə təhdid olduğunu vurğuladı, sülh müqaviləsinin imzalanması üçün Ermənistanın Konstitusiyasında Azərbaycana qarşı olan ərazi iddialarına son qoyulmasının vacibliyini qeyd etdi. Bildirdi ki, Ermənistan tərəfindən konstitusion əsasda Azərbaycana qarşı ərazi iddiaları olmamalıdır.

Söhbət zamanı regional və beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

Görüşdə ABŞ Konqresi ilə Azərbaycan arasında dialoqun gücləndirilməsi, qarşılıqlı səfərlərin artırılması məsələləri müzakirə olundu, Azərbaycan ilə ABŞ arasında əməkdaşlığın və tərəfdaşlığın müxtəlif sahələrdə inkişaf perspektivlərinə toxunuldu.

# Azərbaycan 2026-cı ildə Dünya Urban Forumuna evsahibliyi edəcək

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 17-də Malayziyanın paytaxtı Kuala Lumpur şəhərinin meri, BMT-nin Məskunlaşma Proqramının (UN-HABITAT) sabiq icraçı direktoru xanım Maimuna Mohd Şərif ilə görüşüb.**



AZƏRTAC xəbər verir ki, Maimuna Mohd Şərif Prezident İlham Əliyevə COP29-da yerli icmalar statusunda Kuala Lumpur şəhərinin meri kimi çıxış etməsinə yaradılan imkana və COP29-da Azərbaycanın sədrliyi yanında yaradılmış Məşvərət Şurasına daxil edilməsinə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirdi.

Qonaq COP29-un yüksək səviyyədə təşkili ilə bağlı Prezident İlham Əliyevə təbriklərini çatdırdı.

Söhbət zamanı Maimuna Mohd Şərifin UN-HABITAT rəhbəri olduğu dövrdə Azərbaycan ilə bu qurum arasında əməkdaşlığın inkişafına verdiyi töhfə qeyd olundu, ölkəmizin 2026-cı ildə BMT-nin ən vacib tədbirlərindən biri olan Dünya Urban Forumuna evsahibliyi edəcəyi məmnunluqla vurğulandı və buna hazırlıq prosesinin artıq başlanıldığı bildirildi.

Görüşdə Bakının və ölkəmizin digər şəhərlərinin inkişafı kontekstində Azərbaycanın urban planlaşdırma və urbanizasiya sahəsində nailiyyətləri xüsusilə qeyd olundu, işğaldan azad edilmiş ərazilərimizdə şəhərlərin və kəndlərin qurulması prosesindəki təcrübəsi vurğulandı.

Söhbət zamanı Bakı və Kuala Lumpur arasında əməkdaşlığın inkişafı ilə bağlı təcrübə mübadiləsinin aparılması məsələsinə toxunuldu, Bakının və Kuala Lumpurun qardaşlaşmış şəhərlər kimi əlaqələrinin qurulması istiqamətində fikir mübadiləsi aparıldı.

Bütövlükdə Azərbaycan ilə Malayziya arasında dost münasibətlərinin olduğu, ölkələrimizin beynəlxalq təşkilatlarda bir-birini daim dəstəklədikləri qeyd edildi. Siyasi əlaqələrimizin ruhuna uyğun olaraq iqtisadiyyat, ticarət, mədəniyyət, turizm və digər sahələrdə əməkdaşlığın daha da genişləndirilməsi ilə bağlı fikir mübadiləsi aparıldı.

# Azərbaycan ilə ICESCO arasında uğurlu əməkdaşlıq həyata keçirilir

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 17-də ICESCO-nun Baş direktoru Salim bin Məhəmməd əl-Maliki ilə görüşüb.**



AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı COP29-da iştirak etdiyinə görə ICESCO-nun Baş direktoruna minnətdarlığını bildirdi.

Salim bin Məhəmməd əl-Maliki öz növbəsində COP29-un yüksək səviyyədə təşkilinə görə təşəkkürünü ifadə etdi.

Söhbət zamanı Azərbaycan ilə ICESCO arasında uğurlu əməkdaşlığın həyata keçirildiyi qeyd olundu. Bu xüsusda Prezident İlham Əliyev Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın ICESCO-nun Mərakeşdə yerləşən qərargahında olmasının və Salim bin Məhəmməd əl-Maliki ilə görüşünün onda çox xoş təəssüratlar doğurduğunu vurğulayaraq, orada göstərilən qonaqpərvərliyə görə ICESCO-nun Baş direktoruna minnətdarlığını bildirdi.

Görüşdə əlaqələrimizin daha da möhkəmlənəcəyinə əminlik ifadə olundu, əməkdaşlığımızın perspektivləri ilə bağlı fikir mübadiləsi aparıldı.

# COP29 ilə əlaqədar bütün tədbirlər yüksək səviyyədə təşkil olunub

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 17-də Beynəlxalq Kanoe Federasiyasının prezidenti Tomas Konietzko, Beynəlxalq Avarçəkmə Federasiyasının prezidenti Jan Kristof Rollan və Beynəlxalq Draqon Qayıqları Federasiyasının prezidenti Klaudio Şermi ilə görüşüb.**



AZƏRTAC xəbər verir ki, Beynəlxalq Kanoe Federasiyasının prezidenti Azərbaycan paytaxtının dünyanın ən gözəl şəhərlərindən biri olduğunu dedi və bu gün Bakıda COP29 ilə əlaqədar keçiriləcək avarçəkmə yürüşünün yüksək səviyyədə təşkil edildiyini və bunun üçün hər cür şəraitin yaradıldığını qeyd etdi.

COP29-un əhəmiyyətinə toxunan Prezident İlham Əliyev qonaqların bu tədbirdə iştiraklarına görə minnətdarlığını bildirdi.

Bu tədbirin ən yüksək səviyyədə təşkil edildiyini deyən Tomas Konietzko burada iştirakçıların rahatlığı üçün hər cür şəraitin yaradıldığını vurğuladı.

Prezident İlham Əliyev COP29-a hazırlıq vaxtının az olmasına baxmayaraq, bütün təşkilati işlərin qısa zamanda həyata keçirildiyini qeyd etdi.

Qonaq Qarabağa, Suqovuşana səfər etdiklərini məmnunluqla deyərək, orada görülən bərpa-yenidənqurma işlərinin, idmanın inkişafının, o cümlədən avarçəkmə üçün yaradılan şəraitin çox böyük təəssürat bağışladığını dedi. O, ölkəmizdə kanoe idman növü üçün də yaxşı şəraitin yaradıldığını vurğuladı və buna görə dövlətimizin başçısına minnətdarlığını bildirdi. Azərbaycanın idmanın, o cümlədən idmanın avarçəkmə növünün inkişafında böyük rol oynadığını deyən qonaq bunun da ətraf mühitin qorunmasına töhfə verdiyini bildirdi.

Qonaqlar dövlətimizin başçısına xatirə hədiyyələri təqdim etdilər.

# Azərbaycan ilə Rusiya arasında milli valyutalarda ödənişlər əlaqələrimizin möhkəmlənməsinin yaxşı göstəricisidir

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 18-də Rusiya Federasiyasının maliyyə naziri Anton Siluanov və Rusiya Federasiyasının Dövlət Dumasında Rusiya Liberal Demokrat Partiyası fraksiyasının rəhbəri Leonid Slutski ilə görüşüb.**



AZƏRTAC xəbər verir ki, söhbət zamanı Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə, o cümlədən iqtisadi sahədə uğurla inkişaf etdiyi bildirildi, bu görüşün əməkdaşlığın perspektivlərinin müzakirəsi baxımından önəmi qeyd olundu.

Ölkələrimiz arasında ticarət dövriyyəsinin artması, milli valyutalarda ödənişlərin həyata keçirilməsi əlaqələrimizin möhkəmlənməsinin yaxşı göstəricisi kimi dəyərləndirildi.

COP29 Baku Azerbaijan

# Azərbaycan və Palau prezidentləri arasında yüksək səviyyədə ilk görüş

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 18-də Palau Respublikasının Prezidenti Surangel Uipps ilə görüşüb.**





AZƏRTAC xəbər verir ki, Palau Prezidenti COP29-un yüksək səviyyədə təşkilinə və göstərilən qonaqpərvərliyə görə dövlətimizin başçısına minnətdarlığını bildirdi. Qonaq qeyd etdi ki, səfər çərçivəsində ölkəmizlə, mədəniyyətimizlə tanış olmaq imkanları olub. Bu görüşün Azərbaycan və Palau prezidentləri arasında yüksək səviyyədə ilk görüş olduğunu deyən Surangel Uipps bunun münasibətlərimizin inkişafına təkan verəcəyinə ümidvarlığını ifadə etdi.

Palau dövlətinin başçısı Azərbaycan Prezidenti və Azərbaycanın COP29-a sədrliyi tərəfindən kiçik ada dövlətlərinin iqlim dəyişmələrinin təsiri nəticəsində onların üzləşdiyi problemlərin əsas prioritetlərdən biri kimi müəyyən edilməsinə görə təşəkkürlərini çatdırdı. O vurğuladı ki, kiçik ada dövlətləri iqlim dəyişmələrinin bilavasitə təsirinə məruz qalan və ekzistensional təhlükə ilə üzləşən ölkələrdir.

Prezident İlham Əliyev qeyd etdi ki, Azərbaycanın sədrliyi dövründə kiçik ada dövlətlərinin üzləşdiyi iqlim problemləri əsas prioritet kimi qiymətləndirilib və kiçik ada dövlətlərinin iştirakı ilə məhz bu məsələyə həsr olunmuş Zirvə toplantısı keçirilib. Dövlətimizin başçısı Azərbaycanın Millətlər Birliyi (Commonwealth of Nations) təşkilatı ilə birlikdə kiçik ada dövlətlərinə xüsusi yardım proqramını həyata keçirdiyini dedi. Prezident İlham Əliyev bu xüsusda təşkilat çərçivəsində Azərbaycanın kosmik imkanlarını səfərbər edərək həmin dövlətlərin üzləşdiyi iqlim problemləri barədə məlumat bazası sisteminin yaradılması məsələsini qeyd etdi.

Prezident vurğuladı ki, on ildən artıqdır Paris razılaşmasının 6-cı bəndi üzrə danışıqlar aparılsa da məhz Bakıda keçirilən COP29-da bununla bağlı irəliləyiş əldə olunub. Dövlətimizin başçısı bundan başqa, İtki və Zərərə Cavab Fondunun tam işlək olması istiqamətində tərəqqinin əldə edilməsini irəliyə doğru atılan mühüm addım kimi dəyərləndirdi.

Söhbət zamanı bütün dünyadan, xüsusilə də inkişaf etmiş dövlətlərdən yeni maliyyə hədəfləri ilə əlaqədar gözləntilərin olduğu qeyd edildi.

Palau Prezidenti dövlətimizin başçısına xatirə hədiyyələri təqdim etdi.

# Millətlər Birliyi təşkilatı kiçik ada dövlətlərinə verdiyi dəstəyə görə Prezident İlham Əliyevə minnətdardır

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 18-də Millətlər Birliyi təşkilatının (Commonwealth of Nations) Baş katibi Patrisia Canet Skotland ilə görüşüb.**



AZƏRTAC xəbər verir ki, Patrisia Canet Skotland COP29-un yüksək səviyyədə təşkilinə, ilk dəfə olaraq COP çərçivəsində kiçik ada dövlətləri ilə əlaqədar Zirvə toplantısının keçirilməsinə və Azərbaycanın COP sədrliyinin prioritetləri sırasında bu dövlətlərin iqlim problemlərinin əsas istiqamətlərdən biri kimi müəyyən edilməsinə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirdi.

Qonaq Azərbaycanla Millətlər Birliyi təşkilatı arasında qurulmuş əməkdaşlığa, ölkəmizin bu təşkilata üzv kiçik ada dövlətləri ilə bağlı maliyyə dəstəyi fonduna görə də təşəkkürünü çatdırdı.

Millətlər Birliyi təşkilatının Baş katibi, həmçinin Azərbaycanın kosmik imkanlarını səfərbər edərək Millətlər Birliyinin üzvü olan kiçik ada dövlətlərinin üzləşdiyi iqlim problemlərinin təhlil edilməsini və məlumat bazası sisteminin yaradılmasını təqdir etdiklərini dedi. O, ümumilikdə Azərbaycanın sədrliyi dövründə kiçik ada dövlətləri ilə əlaqədar çoxsaylı tədbirlərin keçirildiyini və dünyanın kosmik agentliklərinin səylərinin də səfərbər edildiyini vurğuladı.

Patrisia Canet Skotland bundan sonra da Azərbaycanla əməkdaşlığın davam etdirilməsində maraqlı olduqlarını bildirdi.

Dövlətimizin başçısı qeyd etdi ki, Azərbaycan COP-a sədrliyi dövründə kiçik ada dövlətlərinin iqlim problemləri ilə bağlı onlarla əməkdaşlığı əsas istiqamətlərdən biri kimi müəyyən edib, ölkəmiz tərəfindən bununla əlaqədar Zirvə toplantısı keçirilib. Azərbaycanın Millətlər Birliyi təşkilatı ilə əməkdaşlığını davam etdirəcəyini deyən Prezident İlham Əliyev kiçik ada dövlətlərinin iqlim problemlərinin daim diqqət mərkəzində saxlanılacağını qeyd etdi. Dövlətimizin başçısı Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi çərçivəsində formalaşdırılmış həmrəyliyin məhz COP sədrliyi dövründə də davam etdiriləcəyini dedi.

Söhbət zamanı Azərbaycan ilə Millətlər Birliyi təşkilatı arasında əməkdaşlığın perspektivləri müzakirə olundu.

# Omanın Sultanı əlahəzrət Heytəm bin Tariq Al Səidə

Əlahəzrət!

Oman Sultanlığının milli bayramı münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Bu bayram günündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Oman xalqına daim firavanlıq və rifah arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 noyabr 2024-cü il*

# F.S.Əzizovun Gürcüstanın Batumi şəhərində Azərbaycan Respublikasının baş konsulu təyin edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Fuad Süleyman oğlu Əzizov Gürcüstanın Batumi şəhərində Azərbaycan Respublikasının baş konsulu təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 noyabr 2024-cü il*

# Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikası Cinayət Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 4 (II kitab), maddə 251 (Cild I); 2024, № 1, maddələr 8, 18, № 3, maddə 250; № 7, maddə 772) aşağıdakı dəyişikliklər edilsin:

1. 99-4.5-ci maddəyə "Məcəllənin" sözündən sonra "104-1," rəqəmləri əlavə edilsin.
2. Aşağıdakı məzmunda 104-1-ci maddə əlavə edilsin:

**"Maddə 104-1. Ekosid**

Bitki və ya heyvanlar aləminin kütləvi məhv edilməsi, atmosferin, torpaq və ya su ehtiyatlarının zəhərlənməsi, yaxud ekologiyaya ziyan vuran digər hərəkətlərin qəsdən törədilməsi, bu əməllər ekoloji fəlakətə səbəb olduqda və ya ekoloji fəlakətin baş verməsi üçün real təhlükə yaratdıqda -

on ildən on beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 oktyabr 2024-cü il*

# V.İ.Qurbanovun Amerika Birləşmiş Ştatlarının Los-Anceles şəhərində Azərbaycan Respublikasının baş konsulu təyin edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Vüqar İsrayıl oğlu Qurbanov Amerika Birləşmiş Ştatlarının Los-Anceles şəhərində Azərbaycan Respublikasının baş konsulu təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 noyabr 2024-cü il*

# A.F.Süleymanlının Qazaxıstan Respublikasının Aktau şəhərində Azərbaycan Respublikasının baş konsulu təyin edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Ayxan Firudin oğlu Süleymanlı Qazaxıstan Respublikasının Aktau şəhərində Azərbaycan Respublikasının baş konsulu təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 noyabr 2024-cü il*

# Z.M.Əliyevin Türkiyə Respublikasının Qars şəhərində Azərbaycan Respublikasının baş konsulu təyin edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Zamin Məmməd oğlu Əliyev Türkiyə Respublikasının Qars şəhərində Azərbaycan Respublikasının baş konsulu təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 noyabr 2024-cü il*

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

**№ 479** **QƏRAR** **Bakı şəhəri, 16 noyabr 2024-cü il**

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 14 iyun tarixli 303 nömrəli qərarı ilə təsdiq edilmiş “Müdafiə və ya dövlət təhlükəsizlik ehtiyaclarının meyarları və onlarla bağlı satınalmaların keçirilməsi Qaydası”nda dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 14 iyun tarixli 303 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 6 (II kitab), maddə 723) ilə təsdiq edilmiş "Müdafiə və ya dövlət təhlükəsizlik ehtiyaclarının meyarları və onlarla bağlı satınalmaların keçirilməsi Qaydası"nın 13.3.8.2-ci yarımbəndinin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 13.3.9-cu yarımbənd əlavə edilsin:

"13.3.9. satınalma predmeti ərzaq məhsulları olduqda.".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# COP29-da Paris Sazişinin 6.8-ci maddəsində istinad olunan qeyri-bazar yanaşmaları çərçivəsində iş proqramına dair qərar qəbul edilib

**Noyabrın 18-də COP29 çərçivəsində Tərəflər Paris Sazişinin 6-cı maddəsinin 8-ci paraqrafında istinad olunan qeyri-bazar yanaşmaları çərçivəsində iş proqramına dair qərar qəbul ediblər.**

AZƏRTAC xəbər verir ki, 6.8-ci maddə qeyd olunan yanaşmalar vasitəsilə Tərəflərə milli iqlim planlarını, o cümlədən mitiqasiya və adaptasiya üzrə planların həyata keçirilməsi və davamlı inkişafın təşviqi imkanı yaradır.

COP29 sədrliyi Paris Sazişinin 6-cı maddəsinin tam şəkildə işlək vəziyyətə gətirilməsini əsas prioritetlərindən biri kimi müəyyən edib. Bu maddə ölkələrin iqlim hədəflərinə çatmaq üçün əməkdaşlıq zamanı etibarlı və şəffaf karbon bazarlarının təmin edilməsini nəzərdə tutur. Həmin maddəyə uyğun bazarlar inkişaf etməkdə olan ölkələrə daha çox investisiya yönəltmək üçün önəmli vasitədir. 6-cı maddənin tam şəkildə tətbiqi ölkələrin Milli Səviyyədə Müəyyən Edilmiş Töhfələrin həyata keçirilməsi üçün sərf etdikləri vəsaiti ildə təxminən 250 milyard ABŞ dolları azalda bilər.

Xatırladaq ki, COP29-un ilk günündə - noyabrın 11-də Paris Sazişinin 6.4-cü maddəsinə uyğun olaraq, Tərəflər karbon kreditlərinin yaradılması üzrə standartlar barədə razılığa gəliblər. Bu, beynəlxalq karbon bazarının BMT-nin nəzarəti altında fəaliyyət göstərməsini təmin edəcək. Sözügedən standartlar beynəlxalq karbon bazarının yüksək etibarlılığına və emissiyaların azaldılmasına imkan verəcək.

COP29 Baku Azerbaijan

# Dünya Bakıda birləşib

# COP29 parlament həmrəyliyini gücləndirir







**BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29 çərçivəsində Parlamentlərarası İttifaq və Milli Məclisin birgə təşkilatçılığı ilə Bakıda keçirilən Parlament Görüşü noyabrın 17-də işini davam etdirib.**













Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, tədbir çərçivəsində keçirilən sessiyalarda "İqlim həssaslığı probleminin həll edilməsi: İqlim fəaliyyətinə hərtərəfli və ədalətli yanaşmanın təşviqi", "İqlim dəyişikliyi ilə mübarizədə texnologiyadan istifadə və ədalətin təmin edilməsi", "Dəyişən iqlim şəraitində sağlamlığın və ərzaq təhlükəsizliyinin qorunması səyləri", "İnsan hərəkətliliyi və iqlim dəyişikliyi ilə bağlı naviqasiya: İqlimlə bağlı miqrasiya və yerdəyişmənin həlli" mövzularında müzakirələr aparılıb.

Sessiyalarda çıxış edənlər iqlim dəyişikliyindən təsirlənən həssas qrupların müdafiəsini təmin etməyin, ədalətli və hərtərəfli iqlim siyasətinin təşviqinə dəstək olmağın vacibliyindən danışıblar, texnologiyanın, xüsusilə süni intellektin iqlim dəyişikliyi ilə mübarizədə rolu, ərzaq təhlükəsizliyinin və sağlamlığın qorunması, iqlimlə bağlı miqrasiyanın nəticələri barədə fikirlərini səsləndiriblər.

Tədbirdə iqlim dəyişikliyinin qarşısının alınması üçün hərtərəfli tədbirlərin həyata keçirilməsi məqsədilə mütəmadi olaraq bu cür tədbirlərin keçirilməsinin əhəmiyyəti vurğulanıb.

Sessiyalarda keçirilən müzakirələrdən sonra COP29 çərçivəsində Parlamentlərarası İttifaq və Azərbaycan Respublikası Milli Məclisinin birgə təşkilatçılığı ilə Bakıda keçirilən Parlament Görüşünün bağlanış və yekun sənədinin qəbulu mərasimi olub.

Mərasimdə Milli Məclisin Sədri Sahibə Qafarova, Tanzaniya Birləşmiş Respublikası Milli Assambleyasının Sədri, PAİ prezidenti Tulia Akson, PAİ-nin Baş katibi Martin Çunqonq, Özbəkistan Respublikası Ali Məclisi Senatının Sədri Tənzilə Narbayeva, Tacikistan Ali Məclisi Nümayəndələr Palatasının Sədri Mahmadtoir Zokirzoda, Zimbabve Milli Assambleyasının Sədri Yakob Mudenda, Tonqa Qanunvericilik Məclisinin Sədri Lord Fkafanua Fatafehi, Milli Məclisin deputatları, xarici ölkələrin nümayəndə heyətlərinin rəhbərləri və üzvləri iştirak ediblər.

Mərasimdə çıxış edən Milli Məclisin deputatı Soltan Məmmədov Azərbaycanda "yaşıl enerji"yə keçidlə bağlı görülmüş işlərdən danışıb. O, Parlament Görüşünün məhsuldar keçdiyini vurğulayıb və tədbirin əhəmiyyətini qeyd edib.

Sonra Parlament Görüşünün yekun sənədi barədə məlumat verilib, sənəd üzərində aparılmış işlər, nəzərə alınmış təkliflər diqqətə çatdırılıb.

Daha sonra bağlanış mərasimində çıxış edən PAİ-nin Baş katibi Martin Çunqonq bildirib ki, iki gün ərzində Parlament Görüşündə çox səmərəli müzakirələr aparıldı. O, bu tədbirin təşkilinə və ilk dəfə olaraq COP29-un "yaşıl zona"sında keçirilməsinə görə Azərbaycan tərəfinə, xüsusilə də Milli Məclisin Sədri Sahibə Qafarovaya təşəkkürünü ifadə edib.

Baş katib diqqətə çatdırıb ki, yekun sənəddə parlamentlərin iqlim dəyişikliyi ilə mübarizədə çox önəmli rolu yer alır. Bu sənəd parlamentlər üçün yol xəritəsidir və keçirilmiş görüş öhdəliklərə sədaqəti göstərir.

Çıxışının sonunda PAİ-nin Baş katibi Martin Çunqonq ona verilmiş səlahiyyətə əsasən, COP29 çərçivəsində Parlamentlərarası İttifaq və Azərbaycan Respublikası Milli Məclisinin birgə təşkilatçılığı ilə Bakıda keçirilən Parlament Görüşünü bağlı elan edib.

*"Azərbaycan"*

## Qardaşlıq münasibətinin təzahürü



**Milli Məclisin Sədri Sahibə Qafarova COP29 çərçivəsində Bakıda Azərbaycan parlamenti və Parlamentlərarası İttifaqın birgə təşkilatçılığı ilə keçirilən Parlament Görüşündə iştirak etmək üçün Azərbaycanda səfərdə olan Özbəkistan Respublikası Ali Məclisi Senatının Sədri Tənzilə Narbayeva ilə görüşüb.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, spiker Sahibə Qafarova ölkəmizin evsahibliyi ilə keçirilən bu mühüm tədbirdə iştirakına və oradakı çıxışına görə qonağa təşəkkür edib. Bildirilib ki, iqlim dəyişikliyi ilə əlaqədar dünyanın üzləşdiyi problemlərin həlli üçün qlobal əməkdaşlığın əhəmiyyəti danılmazdır və bu istiqamətdə parlamentlərin mühüm rolu vardır.

Söhbətdə Milli Məclisin Sədri ölkələrimiz arasında münasibətlərin yüksək səviyyədə olduğunu bildirib. Dövlətlərimiz arasında hərtərəfli əlaqələrin inkişafında prezidentlərin qarşılıqlı səfərlərinin, aparılan danışıqların önəmli rol oynadığını xüsusi qeyd edib. O, Azərbaycanla Özbəkistan arasında əməkdaşlığın inkişaf etdirilməsi, strateji tərəfdaşlığın dərinləşdirilməsi ilə bağlı imzalanmış sənədlərin vacibliyindən danışıb.

Spiker Özbəkistan dövlətinin başçısı Şavkat Mirziyoyevin ölkəmizə səfərə gələrək COP29-da iştirak etməsini, noyabrın 13-də isə Azərbaycan Prezidenti İlham Əliyevlə Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin görüşündən sonra Azərbaycan və Özbəkistan prezidentlərinin iştirakı ilə Xankəndi şəhərində tikiş fabrikinin videobağlantı vasitəsilə açılış mərasiminin keçirilməsini məmnunluqla qeyd edib. Bildirilib ki, özbək dostlarımızın Füzulidə məktəb tikintisinə, qısa müddətdə isə Xankəndidə minlərlə insanın çalışacağı bu gözəl müəssisənin yaradılmasına kömək göstərmələri qardaşlıq münasibətinin təzahürüdür.

Milli Məclisin Sədri qanunverici orqanlar arasında da əməkdaşlığın uğurla inkişaf etdiyini bildirərək, Azərbaycan və Özbəkistanın parlamentlərində fəaliyyət göstərən parlamentlərarası dostluq qruplarının ikitərəfli əlaqələrin inkişafına töhfə verdiyini söyləyib. Bildirilib ki, deputatlarımız beynəlxalq parlament qurumlarında da səmərəli əməkdaşlıq edirlər.

Özbəkistan Ali Məclisi Senatının Sədri Tənzilə Narbayeva görüşə və belə əlamətdar hadisə ilə bağlı dəvətə görə təşəkkürünü bildirib. O, COP29 kimi mötəbər tədbirin yüksək səviyyədə keçirilməsi münasibətilə təbriklərini çatdırıb və orada müzakirə olunan məsələlərin dünyanın gələcəyi üçün önəmini qeyd edib.

Görüşdə Özbəkistanla Azərbaycan arasında münasibətlərin inkişafında parlamentlərin rolu vurğulanıb, nümayəndə heyətlərinin qarşılıqlı səfərlərinin əhəmiyyətindən bəhs edilib. O, Milli Məclisin Sədri Sahibə Qafarova ilə görüşlərini məmnunluqla xatırlayaraq, belə görüşlərin qanunverici orqanlar arasında əməkdaşlığın möhkəmləndirilməsində rolunu vurğulayıb.

Söhbətdə qarşılıqlı maraq doğuran məsələlər barədə də fikir mübadiləsi aparılıb.

*"Azərbaycan"*

## Albaniya Parlamentinin Sədri Azərbaycanın COP29-a uğurla evsahibliyi etdiyini bildirib



**Milli Məclisin Sədri Sahibə Qafarova Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) çərçivəsində Bakıda Azərbaycan parlamenti və Parlamentlərarası İttifaqın birgə təşkilatçılığı ilə keçirilən Parlament Görüşündə iştirak etmək məqsədilə ölkəmizdə səfərdə olan Albaniya Parlamentinin Sədri Elisa Spiropali ilə görüşüb.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, qonağı salamlayan spiker Sahibə Qafarova Parlament Görüşündə iştirakına və maraqlı çıxışına görə Albaniya Parlamentinin Sədrinə təşəkkürünü bildirib.

Elisa Spiropali həm COP29, həm də Parlament Görüşünün yüksək səviyyədə təşkilinə görə təbriklərini çatdıraraq, qeyd edib ki, Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının sessiyası kifayət qədər vacib və böyük tədbirdir. O, Azərbaycanın bu qlobal tədbirə uğurla evsahibliyi etdiyini bildirib. Qonağın fikrincə, Parlament Görüşünün keçirilməsi Milli Məclisin iqlim dəyişiklikləri ilə bağlı olan məsələlərin həllinə dəstəyinin ifadəsidir.

Söhbət zamanı qeyd edilib ki, iqlim dəyişikliyi zəmanəmizin ən aktual problemidir və bütün ölkələr bu problemdən əziyyət çəkirlər. Tərəflər inkişaf etmiş dövlətlərin kiçik ada dövlətlərinə dəstəyinin artırılmasının əhəmiyyətini vurğulayıblar.

Albaniya Parlamentinin Sədri Milli Məclisin Sədri ilə cari ilin oktyabr ayında İsveçrənin Cenevrə şəhərində keçirdiyi görüşü məmnunluqla xatırlayıb, ölkələrimiz və xalqlarımız arasında dostluq münasibətlərinin inkişafından məmnunluq ifadə edib. Qeyd olunub ki, ölkələrimiz arasında mühüm layihələr həyata keçirilir.

Söhbət zamanı parlamentlərimiz arasında da əməkdaşlığın daha da gücləndirilməsi haqqında müzakirələr aparılıb. Parlamentlərimizin bir sıra beynəlxalq parlament təşkilatlarında birgə fəaliyyətindən və qarşılıqlı dəstəyindən məmnunluq bildirilib. Qarşılıqlı səfər və təmasların, parlament komitələri və dostluq qrupları arasında əlaqələrin genişləndirilməsinin qanunverici orqanlarımız arasında münasibətlərin daha da dərinləşdirilməsinə töhfə verəcəyi qeyd edilib.

Milli Məclisin Sədri Sahibə Qafarova qonağa regionda mövcud olan vəziyyət barədə məlumat verib. O, təəssüflə qeyd edib ki, Azərbaycan öz ərazi bütövlüyünü və suverenliyini bərpa etdikdən sonra bəzi dövlətlər tərəfindən ölkəmizə qarşı siyasi hücumlar və təzyiq cəhdləri olub. Lakin Azərbaycan öz inkişaf yoluna sadiqdir.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər haqqında da fikir mübadiləsi aparılıb.

*"Azərbaycan"*

## Azərbaycan-Rusiya münasibətlərinin yüksək səviyyədə inkişafından məmnunluq ifadə olunub



**Milli Məclisin Sədri Sahibə Qafarova COP29 çərçivəsində Azərbaycan parlamenti və Parlamentlərarası İttifaqın birgə təşkilatçılığı ilə keçirilən Parlament Görüşündə iştirak etmək məqsədilə ölkəmizdə səfərdə olan Rusiya Federasiyası Federal Məclisinin Federasiya Şurası sədrinin birinci müavini Andrey Yatskin ilə görüşüb.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, görüşdə ölkələrimiz və qanunverici orqanlarımız arasında əməkdaşlıq məsələləri, həmçinin COP29 çərçivəsində aparılan müzakirələr barədə fikir mübadiləsi aparılıb.

Milli Məclisin Sədri Sahibə Qafarova iqlim dəyişikliyi ilə bağlı məsələlərin bütün dövlətləri narahat etdiyini qeyd edərək, Azərbaycanın COP29-a uğurla sədrlik və evsahibliyi etdiyini xatırladaraq, bu mühüm qlobal tədbirdə bütün maraqlı tərəflərin iştirakı ilə məhsuldar müzakirələrin təşkil olunduğunu, artıq bəzi mühüm nəticələrin əldə olunduğunu diqqətə çatdırıb. O, Rusiya tərəfinin həm COP29, həm də Parlament Görüşündə iştirakına görə təşəkkürünü bildirib.

Andrey Yatskin isə öz növbəsində COP29-un uğurlu təşkili münasibətilə təbriklərini çatdıraraq, bütün dünyanın Bakıda keçirilən bu qlobal tədbirə böyük maraq göstərdiyini söyləyib.

Söhbət zamanı qeyd edilib ki, iqlim dəyişikliyi ilə bağlı məsələlərin həllində parlamentlər də mühüm rol oynayır. Bu baxımdan Parlament Görüşünün təşkili xüsusi məna ifadə edir və parlamentlərin bu prosesdə iştirakının gücləndirilməsi, qarşılıqlı müzakirələr və diskussiyalar nəticəsində ortaq mövqeyin ifadə olunması üçün yaxşı platforma rolunu oynayır.

Görüşdə həmçinin ölkələrimiz arasında münasibətlərin yüksək səviyyədə inkişafından məmnunluq ifadə olunaraq, dövlət başçıları səviyyəsində qarşılıqlı səfərlərin əlaqələrin genişlənməsində mühüm rolu qeyd edilib. Ölkələrimizin digər sahələrdə olduğu kimi, qanunvericilik orqanları arasında da əlaqələrin inkişaf etdiyi bildirilərək, parlamentlərimizin bir sıra beynəlxalq parlament təşkilatlarında uğurlu əməkdaşlığı təqdir olunub.

*"Azərbaycan"*

COP29 Baku Azerbaijan

# Milli Məclisin Sədri Sahibə Qafarova ATƏT PA-nın vitse-prezidenti ilə görüşüb

**Milli Məclisin Sədri Sahibə Qafarova noyabrın 18-də COP29-da iştirak etmək məqsədilə ölkəmizdə səfərdə olan ATƏT PA-nın vitse-prezidenti və iqlim dəyişikliyi üzrə xüsusi nümayəndəsi Pere Joan Pons ilə görüşüb.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məluma görə, görüşdə COP29-un və Parlament Görüşünün uğurla təşkili barədə, bu tədbirlər zamanı aparılan müzakirələrlə bağlı fikir mübadiləsi olub. Qeyd edilib ki, dünya ölkələri iqlim dəyişikliyindən təsirlənir və onunla mübarizə bütün tərəflərin ümumi səylərini və cəlbini tələb edir. Tərəflər COP29-un iqlim dəyişikliyi ilə effektiv mübarizə aparmağa imkan verəcək mühüm qərarların əldə edilməsi ilə nəticələnəcəyinə inamlarını ifadə ediblər.

İqlim dəyişikliyi ilə bağlı məsələlərin həllində parlamentlərin önəmli rolunun vurğulandığı söhbət zamanı iki gün davam edən Parlament Görüşündə milli parlamentlərdən, parlamentlərarası təşkilatlardan və digər qurumlardan 90-dan çox nümayəndə heyətinin iştirak etdiyi xatırladılıb. Spiker Sahibə Qafarova qeyd edib ki, bu, bizim həmin prosesdə iştirak etmək niyyətimizi göstərir və görüşün sonunda qəbul olunan yekun sənəd ümumi mövqeyimizi əks etdirir.

ATƏT PA-nın vitse-prezidenti belə mötəbər tədbirə uğurla evsahibliyi etdiyi üçün Azərbaycanı təbrik edib. Qonağın fikrincə, iqlim dəyişikliyi ilə bağlı məsələlərə qlobal yanaşma dəyişməli və bu sahəyə diqqət daha da artmalıdır. O, COP29-da qəbul olunmuş qərarların bütün dünya üçün əhəmiyyətli nəticələrə gətirib çıxaracağına inamını ifadə edib.

Söhbət zamanı Milli Məclisin Sədri Sahibə Qafarova qonağa regionda mövcud olan vəziyyət barədə məlumat verib. Spiker Azərbaycanın torpaqlarının 30 ilə yaxın işğal altında qaldığını, artıq keçmişdə qalmış münaqişənin həlli ilə məşğul olmuş ATƏT-in Minsk qrupunun problemi həll edə bilmədiyini söyləyib. Spiker deyib ki, Azərbaycan bunu öz gücü hesabına həll edib. Ona görə də ATƏT-in Minsk qrupu artıq öz aktuallığını itirib.

Milli Məclisin Sədri diqqətə çatdırıb ki, Azərbaycan ərazi bütövlüyünü və suverenliyini bərpa etdikdən sonra bəzi dövlətlər tərəfindən ölkəmizə qarşı qarayaxma və təzyiq kampaniyaları həyata keçirilib. Xüsusilə COP29 ərəfəsində bu cəhdlər daha da artıb.

Söhbət zamanı spiker Sahibə Qafarova işğaldan azad olunmuş ərazilərimizdə həyata keçirilən "yaşıl enerji" layihələri, "ağıllı şəhər", "ağıllı kənd" konsepsiyaları əsasında görülən işlər barədə də qonağa məlumat verib. Onun sözlərinə görə, Azərbaycan "yaşıl gündəliy"i özünün milli inkişaf proqramlarına daxil edib və bərpaolunan enerji ilə bağlı layihələr həyata keçirir.

Görüşdə parlamentlərimizin beynəlxalq əməkdaşlığı məsələləri də nəzərdən keçirilib.

*"Azərbaycan"*

# Azərbaycan və Zimbabve arasında əməkdaşlıq məsələləri müzakirə olunub



**Milli Məclisin Sədri Sahibə Qafarova noyabrın 18-də COP29 çərçivəsində Azərbaycan parlamenti və Parlamentlərarası İttifaqın birgə təşkilatçılığı ilə keçirilən Parlament Görüşündə iştirak etmək məqsədilə ölkəmizdə səfərdə olan Zimbabve Milli Assambleyasının Sədri Yakob Mudenda ilə görüşüb.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, Parlament Görüşündə iştirakına görə qonağa təşəkkür edən spiker Sahibə Qafarova xatırladıb ki, Zimbabve Prezidenti Emmerson Mnanqaqva da COP29-da iştirak edib. Onun sözlərinə görə, bu, Zimbabvenin iqlim dəyişikliyi ilə mübarizəyə sadiqliyini göstərir.

Parlament Görüşünün uğurla başa çatdığını qeyd edən Milli Məclisin Sədri deyib ki, iclasın yekunu olaraq qəbul edilmiş yekun sənəd iqlim dəyişikliyi məsələsində bizim ümumi mövqeyimizi əks etdirir. Vurğulanıb ki, belə beynəlxalq tədbirlər həm də görüşmək, ikitərəfli və çoxtərəfli əməkdaşlıq məsələlərini müzakirə etmək imkanı qazanmaq baxımından da vacibdir.

Yakob Mudenda həm COP29, həm də Parlament Görüşünün çox uğurla təşkil olunması münasibətilə təbriklərini çatdıraraq Azərbaycanın evsahibliyi ilə keçirilən bu mühüm qlobal tədbirə beynəlxalq marağın böyük olduğunu bildirib. O, COP29 çərçivəsində keçirilən müzakirələrdə az inkişaf etmiş ölkələrə dəstək göstərilməsi ilə bağlı çağırışların vacib olduğunu söyləyib.

Görüşdə ölkələrimiz və parlamentlərimiz arasında əməkdaşlıq məsələləri də müzakirə olunub. Bildirilib ki, Azərbaycan Afrika dövlətləri ilə qarşılıqlı faydalı tərəfdaşlığın inkişafına sadiqdir. Zimbabve də onlardan biridir. Ölkələrimiz arasında müxtəlif beynəlxalq təşkilatlar, o cümlədən Birləşmiş Millətlər Təşkilatı və Qoşulmama Hərəkatı çərçivəsində güclü siyasi əlaqələr və səmərəli əməkdaşlıq mövcuddur. Bu da öz növbəsində digər sahələrdə də əməkdaşlığın inkişafı üçün yaxşı imkanlar yaradır.

Söhbət zamanı Zimbabvenin Qoşulmama Hərəkatının Parlament Şəbəkəsində daha fəal iştirak etməsinin önəminə toxunulub. Vurğulanıb ki, bu şəbəkə müxtəlif ölkələrin qanunvericilərinə geniş mövzular üzrə əhəmiyyətli müzakirələr aparmaq üçün əvəzolunmaz platforma təqdim edir.

Milli Məclisin Sədri Sahibə Qafarova regionda mövcud olan vəziyyət haqqında da məlumat verib. Qeyd edilib ki, ölkəmiz ərazi bütövlüyünü və suverenliyini bərpa etdikdən sonra bəzi dövlətlər tərəfindən Azərbaycana qarşı təzyiq cəhdləri və qarayaxma kampaniyaları həyata keçirilib. O, xüsusilə COP29 ərəfəsində bu cəhdlərin daha da genişləndiyini bildirib. Spikerin sözlərinə görə, iqlim dəyişiklikləri ilə bağlı məsələlər bütün dünyanı narahat edir və hər kəs bu məsələlərin həllinə töhfə verməlidir.

Sahibə Qafarova həmçinin Azərbaycanın işğaldan azad edilmiş ərazilərində həyata keçirilən "yaşıl enerji" layihələri, "ağıllı şəhər", "ağıllı kənd" konsepsiyaları əsasında görülən işlər barədə də qonağa məlumat verib.

Görüşdə qarşılıqlı maraq doğuran digər mövzular ətrafında da fikir mübadiləsi aparılıb.

*"Azərbaycan"*

# ATƏT PA-nın vitse-prezidenti regional sülh prosesinin gedişatı barədə məlumatlandırılıb

**Noyabrın 18-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) çərçivəsində ölkəmizə səfər edən ATƏT Parlament Assambleyasının (PA) vitse-prezidenti Pere Xuan Pons Sampietro ilə görüşüb.**



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, görüşdə Azərbaycan və ATƏT arasında mövcud əməkdaşlıq gündəliyində duran məsələlər, regional vəziyyət, habelə COP29 çərçivəsində əməkdaşlıq perspektivləri müzakirə olunub.

Tərəflər ölkəmiz ilə ATƏT PA arasında intensiv dialoqun mövcudluğunun məmnunluq doğurduğunu, parlament diplomatiyasının, o cümlədən bu çərçivədə qarşılıqlı səfərlərin ümumi maraq kəsb edən məsələlərin müzakirəsi baxımından əhəmiyyətli olduğunu bildiriblər.

İqlim dəyişikliyi təhdidinin insan təhlükəsizliyi və dayanıqlı inkişafa hədə olduğu, iqlim dəyişikliyinin bölgəmizdə və dünyamızda müşahidə olunan fəsadlarının aradan qaldırılması səylərinin gücləndirilməsi və bu istiqamətdə ən həssas qrupların dəstəklənməsinin COP29 sədrliyimizin prioriteti olduğu bildirilib.

Sədrliyimiz çərçivəsində aparılan danışıqlar prosesində əldə olunan bir sıra uğurların, xüsusilə sessiyanın gündəliyinin ilk gündən razılaşdırılması, Paris Sazişinin 6.4-cü maddəsi üzrə razılıq əldə edilməsi və maliyyə institutları tərəfindən illik əsasda iqlim maliyyəsi öhdəliyinin 75 milyarddan 170 milyard ABŞ dollarına qədər artırılmasının məmnunluq doğurduğu qeyd edilib.

Qarşı tərəf həmçinin Ermənistan-Azərbaycan münaqişəsinin tarixi, Ermənistanın hərbi işğalının nəticələri, postmünaqişə dövründə bölgədə mövcud vəziyyət və reallıqlar, habelə regional sülh prosesinin gedişatı barədə məlumatlandırılıb.

Vitse-prezident COP29 sədrliyi münasibətilə ölkəmizi təbrik edib, sədrlik fəaliyyətində uğurlar arzulayıb. ATƏT çərçivəsində iqlim dəyişikliyi ilə mübarizə səylərinə əhəmiyyət verildiyi diqqətə çatdırılıb.

Görüş zamanı həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# *Dominika nümayəndəsi:* "Xüsusilə kiçik ada dövlətlərinin inkişafı üçün iqlim maliyyələşdirilməsinə ehtiyacı var"

**"Biz iqlim dəyişikliyinə qarşı mübarizədə bəzi ərazilərdə mühafizə tədbirlərimizi yönləndirmək üçün yerli təcrübələrdən istifadə edirik. Eyni zamanda biomüxtəliflik proqramlarımızı istiqamətləndirməkdə də bu biliklərdən yararlanırıq".**

Bu fikirləri AZƏRTAC-a açıqlamasında COP29-da iştirak edən Dominika Birliyinin sosial və iqlim ədalətinin müdafiəçisi Vitney Melinard deyib.

O bildirib ki, diqqət yetirmək istədiyi əsas məsələ yerli xalqların təhsili, onların bilik və ənənələrinin siyasətlərdə və müzakirələrdə tətbiq edilməsidir. V.Melinardın sözlərinə görə, qlobal problemlərlə mübarizədə təhsilin rolu mühüm əhəmiyyət daşıyır: "Yerli xalqlar olaraq sahib olduğumuz bilikləri toplamaq, bu bilikləri gənc nəsillərə ötürmək və onları məlumatlandırmaq üçün çalışmalıyıq. Beləliklə, yalnız güclü bir cəmiyyət deyil, həm də möhkəm bir ölkə qurmuş olarıq," - deyə o qeyd edib.

Melinard əlavə edib ki, ölkəsinin "yaşıl enerji" keçidində üzləşdiyi əsas çətinlik maliyyə mənbələrinin çatışmazlığıdır.

"Xüsusilə kiçik ada dövlətlərinin, o cümlədən Dominikanın inkişafı üçün iqlim maliyyələşdirilməsinə ehtiyacı var. COP29-da keçirilən müzakirələrdə yerli xalqlar arasında daha çox həmrəylik görmək və Karib dənizinin yerli xalqlarının daha geniş tanınmasını təmin etmək istəyirəm", - deyə o vurğulayıb.

# Baş prokuror Kamran Əliyev bir sıra görüşlər keçirib

Baş prokuror Keniya Respublikasının Dövlət Prokurorluğunun Direktoru Renson Mulele İnqonqanın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb

BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasında (COP29) iştirak etmək məqsədilə ölkəmizə səfərə gələn beynəlxalq təşkilat və xarici dövlətlərin nümayəndə heyətləri ilə silsilə görüşlər keçirilir.





Noyabrın 16-da baş Prokuror Kamran Əliyev Keniya Respublikasının Dövlət Prokurorluğunun Direktoru Renson Mulele İnqonqanın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Baş Prokurorluqda keçirilmiş görüşdə qonaqları salamlayan baş Prokuror Kamran Əliyev Qoşulmama Hərəkatı təşkilatı çərçivəsində Keniya ilə əməkdaşlığın yüksək səviyyəyə çatdığını bildirərək iki ölkə arasında ortaq prinsiplərə və əməkdaşlığa əsaslanan güclü siyasi əlaqələrin yüksələn xətlə inkişaf etməkdə olduğunu qeyd edib.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin bilavasitə rəhbərliyi altında COP29-un ölkəmizdə keçirilməsinin əhəmiyyətindən bəhs edən Kamran Əliyev bunun beynəlxalq ictimaiyyət tərəfindən Azərbaycana böyük hörmət və etimadın, eləcə də ölkəmizin milli, regional və qlobal səviyyədə ətraf mühitin qorunması, iqlim dəyişmələrinin qarşısının alınması işinə töhfəsinin təqdir olunmasının bariz nümunəsi olduğunu qeyd edib.

COP29 çərçivəsində Azərbaycanın Baş Prokurorluğu, BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə idarəsi (BMTNCİ) tərəfindən təşkil olunan, həmçinin Birləşmiş Ərəb Əmirliklərinin Daxili İşlər Nazirliyi tərəfindən həmsədrlik edilən "İqlim dəyişikliyi ilə mübarizədə hüquq-mühafizə orqanlarının səfərbər olunması" adlı yüksəksəviyyəli sessiyasının uğurla başa çatması barədə danışan tərəflər ətraf mühitin mühafizəsində hüquq-mühafizə orqanlarının qarşılıqlı əməkdaşlığının vacibliyini vurğulayıblar.

Səmimi qəbula və qonaqpərvərliyə görə təşəkkürünü bildirən Keniya Respublikasının Dövlət Prokurorluğunun Direktoru Renson Mulele təmsil etdiyi qurumun Azərbaycanla əlaqələrin inkişafına böyük önəm verdiyini qeyd edərək, iki ölkənin prokurorluq orqanları arasında əməkdaşlığın genişlənəcəyinə əminliyini ifadə edib.

Ölkəmizdə keçirilən COP29-un dünya üçün böyük töhfələr verə biləcəyindən əminliyini vurğulayan qonaq tədbir çərçivəsində təşkil olunan "İqlim dəyişikliyi ilə mübarizədə hüquq-mühafizə orqanlarının səfərbər olunması" adlı yüksəksəviyyəli sessiyanın uğurla başa çatması münasibətilə baş prokuror Kamran Əliyevi təbrik edib.

Baş prokuror Kamran Əliyev isə COP29 çərçivəsində təşkil olunan "İqlim dəyişikliyi ilə mübarizədə hüquq-mühafizə orqanlarının səfərbər olunması" adlı yüksəksəviyyəli sessiya zamanı Keniya Respublikasının Dövlət Prokurorluğunun Direktoru Renson Mulele İnqonqanın təsirli çıxışını təqdir edib.

Görüşdə Azərbaycan Respublikasının Keniya Respublikasında fövqəladə və səlahiyyətli səfiri Sultan Hacıyev də iştirak edib.

* * *

BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasında (COP29) iştirak etmək məqsədilə ölkəmizə səfərə gələn beynəlxalq təşkilat və xarici dövlətlərin nümayəndə heyətləri ilə silsilə görüşlər keçirilir.

Noyabrın 16-da baş prokuror Kamran Əliyev İnterpolun prezidenti Ahmed Naser al-Raisinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Baş Prokurorluqda keçirilmiş görüşdə baş prokuror Kamran Əliyev qonaqları səmimi salamlayaraq ən böyük beynəlxalq qurumlardan biri olan və ədalət mühakiməsinin həyata keçirilməsində əhəmiyyətli rol oynayan İnterpol ilə Azərbaycanın hüquq-mühafizə orqanları arasında qarşılıqlı faydalı əlaqələrin gələcəkdə daha da inkişaf etdirilməsinin zəruriliyini diqqətə çatdırıb.

Görüşdə baş prokuror Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin bilavasitə rəhbərliyi altında COP29-un ən yüksək səviyyədə təşkil olunduğunu vurğulayıb.

COP29 çərçivəsində Azərbaycanın Baş Prokurorluğu, BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə idarəsi (BMTNCİ) tərəfindən təşkil olunan, həmçinin Birləşmiş Ərəb Əmirliklərinin Daxili İşlər Nazirliyi tərəfindən həmsədrlik edilən "İqlim dəyişikliyi ilə mübarizədə hüquq-mühafizə orqanlarının səfərbər olunması" adlı yüksəksəviyyəli sessiyasının uğurla başa çatması barədə danışan tərəflər ətraf mühitin mühafizəsində hüquq-mühafizə orqanlarının qarşılıqlı əməkdaşlığının vacibliyini vurğulayıblar.

İnterpolun prezidenti Ahmed Naser al-Raisi ölkəmizdə prokurorluq orqanlarında həyata keçirilən islahatları müsbət dəyərləndirərək rəhbərlik etdiyi təşkilatla Azərbaycanın hüquq-mühafizə orqanları arasında qarşılıqlı-faydalı əlaqələrin inkişaf etdirilməsinin perspektivlərindən danışıb.

Azərbaycanın COP29 kimi mötəbər beynəlxalq tədbirə hazırlığının ən yüksək səviyyədə olduğunu qeyd edən qonaq COP29-un dünya üçün böyük töhfələr verə biləcəyindən əminliyini vurğulayıb, COP29 çərçivəsində təşkil olunan "İqlim dəyişikliyi ilə mübarizədə hüquq-mühafizə orqanlarının səfərbər olunması" adlı yüksəksəviyyəli sessiyanın uğurla başa çatması münasibətilə baş prokuror Kamran Əliyevi təbrik edib.

Görüş zamanı Azərbaycanın Baş Prokurorluğu ilə İnterpol arasında ikitərəfli əlaqələrin genişləndirilməsi, cinayət törətdiklərinə görə axtarışda olan və xarici dövlətlərin ərazilərində gizlənən şəxslərin tutulması ilə əlaqədar həyata keçirilən tədbirlərin səmərəliliyinin artırılması ilə bağlı məsələlər də müzakirə olunub.

* * *

Noyabrın 16-da baş prokuror Kamran Əliyev Braziliya Federativ Respublikasının baş prokurorunun müavini Hindenburq Çatebriandın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Baş Prokurorluqda keçirilmiş görüşdə qonaqları salamlayan Kamran Əliyev ölkələrimiz arasında isti münasibətlərin mövcud olduğunu söyləyib. O, bir sıra sahələrdə uğurlu əməkdaşlıq təcrübəsinin olduğunu qeyd edib və ölkələrimiz arasında hüquqi əməkdaşlığın gələcəkdə daha da genişlənəcəyinə əminliyini ifadə edib.

Görüşdə baş prokuror Kamran Əliyev Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin bilavasitə rəhbərliyi altında COP29-un ən yüksək səviyyədə təşkil olunduğunu vurğulayıb.

COP29 çərçivəsində Azərbaycanın Baş Prokurorluğu, BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə idarəsi (BMTNCİ) tərəfindən təşkil olunan, həmçinin Birləşmiş Ərəb Əmirliklərinin Daxili İşlər Nazirliyi tərəfindən həmsədrlik edilən "İqlim dəyişikliyi ilə mübarizədə hüquq-mühafizə orqanlarının səfərbər olunması" adlı yüksəksəviyyəli sessiyasının uğurla başa çatması barədə danışan tərəflər ətraf mühitin mühafizəsində hüquq-mühafizə orqanlarının qarşılıqlı əməkdaşlığının vacibliyini vurğulayıblar.

Braziliya Federativ Respublikasının baş prokurorunun müavini səmimi qəbula və qonaqpərvərliyə görə minnətdarlığını bildirərək təmsil etdiyi qurumun Azərbaycan Respublikasının prokurorluq orqanları ilə əməkdaşlıqdan məmnunluğunu ifadə edib və bu əlaqələrin gələcəkdə də inkişaf etidirilməsinin zəruriliyindən və perspektivlərindən danışıb.

Azərbaycanın COP29 kimi mötəbər beynəlxalq tədbirə hazırlığının ən yüksək səviyyədə olduğunu qeyd edən qonaq COP29-un dünya üçün böyük töhfələr verə biləcəyindən əminliyini vurğulayıb, COP29 çərçivəsində təşkil olunan "İqlim dəyişikliyi ilə mübarizədə hüquq-mühafizə orqanlarının səfərbər olunması" adlı yüksəksəviyyəli sessiyanın uğurla başa çatması münasibətilə baş prokuror Kamran Əliyevi təbrik edib.

COP29 Baku Azerbaijan

# "Yaşıl həmrəylik" Azərbaycandan başlayır









# Ənənə davam edir

## Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyeva COP29-da da fəaldır

**Bu günlər Azərbaycanda hər kəsin ürəyi BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) ilə döyünür. Dövlət başçısından tutmuş sıravi vətəndaşa kimi hamı qlobal tədbirin bir "qulpundan tutmağa" çalışır.**

Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA (Ətraf Mühitin Mühafizəsi Naminə Beynəlxalq Dialoq) İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva isə bu tədbirə bir ayrı rəng qatır. Sessiyanın ilk günlərindən Bakı Olimpiya Stadionunda yerli və beynəlxalq tədbirlərin çoxunda iştirak edir, "yaşıl dünya"ya töhfə verəcək ideya və təkliflərini irəli sürür. Bu mənada "işimizlə, ümidlə, inamla, nəzakətlə və sevgi ilə biz bütün problemləri həll edə və daha parlaq gələcək qura bilərik" sözləri Leyla Əliyevanın ictimai fəaliyyətində tam əks olunur. Bu həm də onun fəaliyyətinin məğzini, həyat kredosunu ifadə edir.

Leyla Əliyevanın COP29-da fəal iştirak etməsi təsadüfi deyil. Onun həyatının bir parçasını təşkil edən və çoxsahəli fəaliyyətinin əsas hissəsi olan IDEA İctimai Birliyinə ayrıca nəzər yetirsək, nə demək istədiyimiz aydın olacaq. Hələ COP29-un ölkəmizdə keçiriləcəyini bilmədiyimiz zamanlarda bu gün qlobal sessiyanın məzmununu təşkil edən iqlim dəyişmələri ilə mübarizə, ətraf mühitin qorunması kimi məsələləri özündə ehtiva edən IDEA İctimai Birliyi təsis edilib. 13 ildir təşkilat ətraf mühit problemlərinin düzgün həllini tapmaq yolunda fəaliyyət göstərir. IDEA bunun üçün ekoloji maarifləndirmə işini ailə, cəmiyyət və milli həyatın ən mühüm hissəsinə çevirmək üçün bütün fəaliyyətini gənclər üzərində qurub.

Təşkilatın missiyası gənclərin regional və beynəlxalq səviyyədə real və virtual cəmiyyətin yaradılması, ətraf mühitin qorunması ilə bağlı məlumatlar verən və praktik çağırışlar edən açıq dialoqlar vasitəsilə həmin cəmiyyətin inkişaf etdirilməsi, yerlərdə ekoloji maarifləndirmə işlərini həyata keçirmək üçün bu cəmiyyətin hər bir üzvünün lider kimi yetişməsini təmin etməkdir. Qeyd edək ki, 2016-cı ildə Leyla Əliyevanın rəhbərlik etdiyi IDEA-nın "Heyvanlara Qayğı Mərkəzi"nin açılışı olub. Əsası 2014-cü ildə qoyulmuş mərkəz Bakı və ətraf ərazilərdə heyvanların müayinəsi və müalicəsi, eləcə də onların müvəqqəti saxlanması üçün nəzərdə tutulub. Bundan başqa, kompleksin ərazisində pişik və itlər üçün yemlərin istehsalı üzrə fabrik tikilib. IDEA ölkəmizin yaşıllaşdırılması üzrə də olduqca fəal təşəbbüslərlə çıxış edir.

Bu gün qlobal məzmun daşıyan COP29-un fəaliyyəti ilə IDEA-nın məzmunu üst-üstə düşərək bir-birini tamamlayır. Ona görə də Leyla xanımın COP29-la bağlı dediyi sözlər, səsləndirdiyi fikirlər, irəli sürdüyü təşəbbüslər cəmiyyətin sosial sifarişini özündə əks etdirir.
















Bu günlərdə hər kəs onun timsalında ətraf mühitin qorunması və iqlim məsələləri ilə bağlı narahatlığını ifadə edən, daxili yanğı ilə, milli təəssübkeşliklə, tükənməz enerji və sevgi ilə bütün problemlərin həllinə can atan xeyirxah bir insan görür. Bu mənada Leyla Əliyevanın noyabrın 15-də "Ecumene" Qlobal Forumu tərəfindən COP29 çərçivəsində təşkil olunan plenar iclasdakı çıxışını qeyd edə bilərik. Azərbaycanın evsahibliyi etdiyi COP29-un qlobal ekoloji problemlərin həllində rolu barədə danışan Leyla Əliyeva qəbul ediləcək qərarların dayanıqlı gələcək naminə beynəlxalq həmrəyliyin möhkəmləndirilməsinə töhfə verəcəyinə inamını ifadə edib. Xəzər dənizində su səviyyəsinin son illər ərzində endiyini qeyd edən IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Xəzərdə biomüxtəlifliyin qorunmasının əhəmiyyətini vurğulayıb. Eyni zamanda Xəzər suitilərinin populyasiyasının XX əsrin əvvəli ilə müqayisədə 6 dəfədən çox endiyi bildirilib. Leyla Əliyeva qeyd edib ki, "Blue Marine Foundation" təşkilatı ilə əməkdaşlıq



çərçivəsində Qızılağac Milli Parkı Xəzər dənizində ilk dənizkənarı mühafizə olunan ərazi kimi seçilib. Bununla yanaşı, Leyla Əliyeva çıxışında IDEA İctimai Birliyi tərəfindən su resurslarının mühafizəsi istiqamətində görülən tədbirlərə toxunub. Bildirilib ki, "Zəngin hövzələr" layihəsi çərçivəsində milyonlarla müxtəlif növ balıq körpəsi ölkə ərazisində yerləşən bir sıra su hövzələrinə buraxılıb. "Bir damcı" layihəsinin nəticəsi olaraq ictimaiyyətə suyun səmərəli istifadəsinin əhəmiyyəti barədə geniş məlumat verilib.

Həmin gün Leyla Əliyevanın Çin dövlətinin pavilyonundakı Kəmər və Yol Təşəbbüsü Yaşıl İnkişaf Koalisiyası (KYTYİK), Çin Ətraf Mühit və İnkişaf üzrə Beynəlxalq Əməkdaşlıq Şurası və Çin Qitələrarası Kommunikasiya Mərkəzinin birgə təşkilatçılığı ilə baş tutan "İqlim dəyişikliyi üzrə Cənub-Cənub əməkdaşlığı və yaşıl inkişaf: keyslər və təcrübələr" panel müzakirəsindəki iştirakı da həm onun yorulmaz fəaliyyətindən xəbər verir, həm də bəhs etdiyimiz məzmunun aktuallığını önə çəkir. Tədbirin açılışında çıxış edən Leyla Əliyeva Qlobal Cənub bölgəsi ölkələri arasında dayanıqlı inkişaf və ətraf mühitin mühafizəsi kimi sahələrdə əməkdaşlığın əhəmiyyətini və mövcud imkanları qeyd edib. Leyla Əliyeva tədbir iştirakçılarına IDEA İctimai Birliyi tərəfindən ətraf mühitin mühafizəsi, ekoloji balansın təmin olunması, eləcə də iqlim dəyişmələri ilə mübarizə sahəsində görülən işlər barədə də ətraflı məlumat verib. IDEA-nın təsisçisi və rəhbəri həyata keçirilən ağacəkmə və təmizlik aksiyaları, vəhşi təbiətin bərpası və mühafizəsi, eləcə də bir sıra digər layihə və tədbirlərin nəticələrinə toxunub.

Leyla Əliyeva gənc yaşda olmasına baxmayaraq keçdiyi ömür yolunda bəlkə də onlarla, yüzlərlə insanın bir araya gələrək edə bilməyəcəyi işləri Azərbaycan üçün həyata keçirib. Bu, onun doğulduğu, böyüyüb-tərbiyə aldığı ailədən irəli gəlir. Ulu Öndər Heydər Əliyev özünün işıqlı əməlləri və Azərbaycan xalqına etdiyi xidmətləri ilə onun uşaqlığına heyrətamiz bir şəkildə işıq tutub. Prezident İlham Əliyev atasının yolunu davam etdirərək tarixə qalib sərkərdə kimi möhürünü vurub. Birinci vitse-prezident Mehriban xanım Əliyeva isə təkcə ictmai xadim deyil, nəcib, zərif, xeyirxah, humanist qadın, mehriban ana kimi hər kəsin ruhuna yaxındır. Və bu üçlüyün fonunda gənc Leyla Əliyevanın ənənələri davam etdirməsi təbiidir.

Onun zərif qəlbi, şəfqətli duyğuları çox güclüdür. Humanizm ideyaları ilə yalnız öz yaşıdlarının yanında deyil, böyüklər arasında da xüsusi yer tutub. Doğulub böyüdüyü ölkənin uşaqlarını, ağsaqqallarını, gənclərini, hətta dördayaqlı heyvanlarını, faunasını belə unutmayıb. Onun ideya müəllifi olduğu layihələrin hər biri Azərbaycanın təbiətini, coğrafiyasını, ən əsası insanlarını qorumağa yönəlmiş proqramlardır. O, bu gün özünün genişmiqyaslı fəaliyyəti ilə demək olar ki, ictimai-siyasi xadimə çevrilib. Təkcə bir faktı - vaxtilə "Xocalıya ədalət!" kampaniyasını beynəlxalq arenada tanıtmasını deməklə ictimaiyyətdə tutduğu yeri görmüş oluruq. Leyla xanımın humanitar sahədə, incəsənət sektorunda gördüyü saysız-hesabsız işləri, uşaqlarla bağlı genişmiqyaslı layihələri ilə müasir və müstəqil Azərbaycanda xeyriyyəçilik ənənəsində sosial-fəlsəfi yanaşmanın təməlini qoyduğunu nəzərə alaraq, deyə bilərik ki, COP29 bu Azərbaycan xanımının bundan sonra həyata keçirə biləcəyi ideya və layihələrin tanıdılması üçün geniş bir arenadır.

COP29 çərçivəsində bu qəbildən Azərbaycan pavilyonunda "Təmiz havanın uşaq və yeni doğulan körpələrin sağlamlığı üçün əhəmiyyəti" mövzusunda təşkil olunan tədbirin açılışında çıxış edən IDEA rəhbəri aparılacaq müzakirələrin uşaqların rifahına töhfə verəcəyini qeyd edib. Həmçinin Leyla xanım IDEA tərəfindən həyata keçirilən layihə və tədbirlər barədə danışaraq ötən 13 il ərzində təşkilatın təşəbbüsü ilə 5 milyondan çox ağacın əkildiyini qeyd edib. Bununla bərabər, "Məktəb bağları" layihəsi çərçivəsində Bakı şəhəri və bölgələrdə yerləşən 300 məktəbin həyətində 20 mindən çox ağacın əkildiyi panel müzakirələrin iştirakçılarının diqqətinə çatdırılıb.

Leyla xanımın ötən bir həftədə COP29-un "yaşıl" və "mavi" zonalarında bəzi işləri əlavə etməyini məqsədəuyğun hesab edirik. "Fighting for International Nautical Species" təşəbbüsünün pavilyonuna etdiyi ziyarəti qeyd edə bilərik. Pavilyon dəniz canlılarının qorunması, eləcə də bu sahədə beynəlxalq səylərin artırılmasının əhəmiyyətinə həsr olunub. Çünki iqlim dəyişmələrinin fəsadları məhz bu sahəyə daha çox təsir edib. Ona görə də bu gün qlobal tədbirin arenasından həyəcan siqnalı verməklə IDEA həmin canlıların qorunması istiqamətində atılan addımları sürətləndirmiş olur. Pavilyonda nümayiş olunan "Seaspiracy" sənədli filmində də balıqçılıq sənayesinin ətraf mühitə, ekosistemlərə və dəniz heyvanlarına təsirinə dair məlumat verilir.

Leyla Əliyeva təkcə burada qeyd olunan tədbirlərin iştirakçısı olmayıb. Bir həftə ərzində onlarla pavilyonu ziyarət edib, xarici və yerli təmsilçilərlə söhbət edib, təklif və təşəbbüslərlə çıxış edib. Yanaşdığı hər pavilyonda bu gənc xanım sevgi ilə qarşılanıb, təbəssümlə yola salınıb. COP29 platforması sanki Leyla Əliyevanı daha da yaxından tanımaq, onunla səmimi söhbət etmək, mülahizə və düşüncələrini bölüşmək üçün istər pavilyonlardakı təmsilçilər, istərsə də ziyarətə gələn qonaqların önündə bir "yaşıl işıq" oldu.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

COP29 Baku Azerbaijan

# Heydər Əliyev Fondunun vitse-prezidenti, İordaniya şahzadəsi və ICCROM-un baş direktoru "Manqurt" tamaşasını izləyiblər







**Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva, COP29 çərçivəsində ölkəmizdə səfərdə olan İordaniya Haşimilər Krallığının şahzadəsi, UNESCO-nun xoşməramlı səfiri, Petra Milli Trestinin prezidenti Dana Firas və ICCROM-un baş direktoru Aruna Franççeska noyabrın 17-də Azərbaycan Dövlət Pantomim Teatrında "Manqurt" tamaşasını izləyiblər.**



AZƏRTAC xəbər verir ki, dünyaşöhrətli qırğız yazıçısı Çingiz Aytmatovun "Gün var əsrə bərabər" əsərinin motivləri əsasında hazırlanan səhnə əsərinin quruluş müəllifi Ceyhun Dadaşov, rəssamı Sənubər Səmədova, musiqi tərtibatçısı Elman Rəfiyev, plastik həll üzrə rejissoru Xalq artisti Bəxtiyar Xanızadədir. Tamaşada teatrın bütün aktyor heyəti çıxış edir. Uzun illərdir teatrın repertuarında olan tamaşa bu mövsümdə sənətsevərlərə yeni üslubda təqdim edilir. Səhnə əsəri tamaşaçılar tərəfindən maraqla qarşılanıb.

# Leyla Əliyeva COP29 çərçivəsində gənclərin ətraf mühit savadlılığının artırılmasına dair müzakirələrdə iştirak edib

Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA (Ətraf Mühitin Mühafizəsi Naminə Beynəlxalq Dialoq) İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva Beynəlxalq Təbiəti Mühafizə İttifaqı (BTMİ) və IDEA İB-nin birgə təşkilatçılığı ilə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) çərçivəsində həyata keçirilən "İqlim dayanıqlığı üçün təhsilə investisiya: erkən inkişaf və ətraf mühit savadlılığının artırılması" mövzusunda müzakirələrdə iştirak edib.

AZƏRTAC xəbər verir ki, Leyla Əliyeva tədbirdə çıxış edərək, gənclərin ekoloji problemlərin həllində fəal iştirakının qlobal miqyasda iqlim dəyişmələri ilə mübarizədə vacib rol oynadığını vurğulayıb. IDEA İB-nin təsisçisi və rəhbəri ekoloji təhsil və maarifləndirmə proqramları, eləcə də müxtəlif beynəlxalq platformalar vasitəsilə gənclər üçün bilik və təcrübə mübadiləsinin aparılması imkanlarının genişləndirilməsinin əhəmiyyətini diqqətə çatdırıb.

IDEA-nın həyata keçirdiyi layihə və tədbirlərə toxunan Leyla Əliyeva bildirib ki, təşkilat tərəfindən ötən müddət ərzində gənclərin iqlim dəyişmələri məsələləri və təbiətə məsuliyyətli yanaşmaları kimi mövzulara həsr olunan bir sıra fəaliyyətlər icra edilib. Leyla Əliyeva təşkil olunan ekodüşərgələr, məlumatlandırma kampaniyaları və hazırlanan sənədli filmlər, eləcə də görülən işlərin nəticələri barədə tədbir iştirakçılarına ətraflı məlumat verib.

Leyla Əliyeva IDEA təşkilatının 2014-cü ildən etibarən BTMİ-yə üzv olduğunu qeyd edərək, 10 il ərzində qurumlararası əməkdaşlıq çərçivəsində həyata keçirilən fəaliyyətləri vurğulayıb. Dayanıqlı və sağlam gələcəyin, eləcə də daha bilikli gənc nəslin yetişdirilməsinin təmin olunması baxımdan beynəlxalq həmrəylik və əməkdaşlığın əhəmiyyətli rolu müzakirə iştirakçılarının diqqətinə çatdırılıb.














Tədbir çərçivəsində həmçinin Azərbaycan Respublikasının elm və təhsil naziri Emin Əmrullayev, BTMİ-nin baş direktoru Grethel Aguilar, "Earthday.org" təşəbbüsünün tədris məsələləri üzrə direktoru Bryce Coon və Qlobal Təhsil Mərkəzinin "#Decarbonize" proqramını təmsil edən gənc ekofəal Janina Guevara çıxış edərək, mövzu ilə bağlı müxtəlif fikirlər irəli sürüb, ətraf mühit savadlılığının rolunu qeyd ediblər.

# "Təhsilin yaşıllaşdırılması və iqlim dayanıqlılığı" mövzusu müzakirə olunub



**Noyabrın 18-də BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) çərçivəsində "Təhsilin yaşıllaşdırılması və iqlim dayanıqlılığı" mövzusunda yüksəksəviyyəli panel müzakirəsi keçirilib.**

AZƏRTAC xəbər verir ki, panel sessiyası iqlim çağırışlarına cavab olaraq təhsildə transformativ yanaşmaların müzakirəsinə həsr olunub.

Elm və təhsil naziri Emin Əmrullayev çıxış edərək bildirib ki, bu gün əsas məqsəd təhsil çərçivələrini iqlim dayanıqlılığı və fəaliyyətlərinə üstünlük vermək üçün yenidən tənzimləməkdir. Bu isə iqlim savadlılığının təhsil standartlarına inteqrasiya olunması və öyrənənlərin iqlim həllərinə fəal şəkildə töhfə verə biləcək bacarıqlarla təmin edilməsi deməkdir.

Müzakirələr zamanı Azərbaycanda STEAM təhsili təşəbbüsünün şagirdlərə "yaşıl enerji" və davamlılıq sahəsində real layihələr üzərində işləməyə imkan yaratdığı da qeyd edilib.

Panel müzakirəsi zamanı iqlimə həssas təhsilin qlobal təşviqində tərəfdaşlığın öhdəliyi bir daha təsdiqlənib və gələcək fəaliyyətlərin əsasən potensialın artırılması, eləcə də biliklərin bölüşdürülməsi istiqamətində olacağı vurğulanıb.

Panel çərçivəsində təşkil edilən "Greening Education Partnership" təşəbbüsünün ikinci illik iclası da öz növbəsində qlobal təhsil liderləri tərəfindən dayanıqlılığın təhsil sistemlərinə inteqrasiyası ilə bağlı müzakirələr aparmaq üçün dinamik platforma rolunu oynayıb.

# COP29 çərçivəsində "Dünyanın ən yaxşı universitetlərinin reytinq siyahısı: dayanıqlılıq 2025"in nəticələri elan edilib

**Noyabrın 18-də BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) çərçivəsində Bakıda dünyanın ən nüfuzlu reytinq cədvəllərindən biri olan "QS dünyanın ən yaxşı universitetlərinin reytinq siyahısı: dayanıqlılıq 2025"in nəticələri elan edilib.**

AZƏRTAC xəbər verir ki, tədbir Elm və Təhsil Nazirliyi, Elm və Ali Təhsil üzrə Dövlət Agentliyi və "QS Quacquarelli Symonds" təşkilatının birgə təşkilatçılığı ilə keçirilib.

Elm və təhsil naziri Emin Əmrullayev ali təhsil müəssisələrinin fəaliyyətində dayanıqlı inkişafın təşviqi istiqamətində aparılan işləri, Dayanıqlı İnkişaf Məqsədlərinə uyğun olaraq fəaliyyətin ölçülməsinin vacibliyini, o cümlədən Azərbaycan ali təhsil müəssisələrinin ötən illərdə "QS dayanıqlılıq reytinqi"ndə nəticələrini və bu sahədə gözləntiləri qeyd edib.



Daha sonra QS-nin vitse-prezidenti Ben Sauter "QS dünyanın ən yaxşı universitetlərinin reytinq siyahısı: dayanıqlılıq 2025" üzrə əsas statistik göstəricilər və Azərbaycan ali təhsil müəssisələrinin nəticələri barədə təqdimatla çıxış edib. Bildirilib ki, ötən il yalnız 2 yerli ali təhsil müəssisəsinin təmsil olunduğu reytinq cədvəlinə bu il ilk dəfə Azərbaycanın 7 ali təhsil müəssisəsi daxil olub. Azərbaycan sözügedən reytinqdə ilk dəfə TOP 1000-də Bakı Dövlət Universiteti (941-950) ilə təmsil olunur. Azərbaycan Dövlət İqtisad Universiteti 1081-1100-cü yerdə qərarlaşıb. Azərbaycan Dövlət Neft və Sənaye Universiteti (1351-1400), Bakı Mühəndislik Universiteti (1451-1500), Azərbaycan Texniki Universiteti (1501+), Azərbaycan Memarlıq və İnşaat Universiteti (1501+) və Xəzər Universiteti (1501+) isə ilk dəfə bu reytinqdə yer alırlar.

Sonra reytinqə daxil olan ali təhsil müəssisələri QS rəhbərliyi tərəfindən sertifikatla təltif olunub.

Tədbirin ikinci hissəsi dünyanın qabaqcıl universitetlərinin nümayəndələrinin iştirakı ilə "Ali təhsildə dayanıqlılıq: davamlı universiteti idarə etmək üçün nə lazımdır?" mövzusunda panel sessiyası ilə davam edib.

Ben Sauterin moderatorluğu ilə keçirilən paneldə Elm və Ali Təhsil üzrə Dövlət Agentliyinin direktoru Ülkər Səttarova, Ekseter Universitetinin biznes və innovasiyalar üzrə direktoru Stuart Brocklehurst, Kembric Universitetinin iqlim təhsili üzrə direktoru Kristin Özden və Bolonya Universitetinin kənd təsərrüfatı və qida siyasəti üzrə professoru Matteo Vittuari spiker qismində iştirak ediblər.

Paneldə ali təhsil müəssisələrində dayanıqlılığın inteqrasiya olunması istiqamətində strategiya və mövcud təcrübələr müzakirə olunub.

COP29 Baku Azerbaijan

# Dünya ekoloqlarının Bakı sammiti






























## Azərbaycana sığan cahan

### COP29 həm də həmrəylik məkanı kimi diqqət çəkir

**Azərbaycan çoxmillətli ölkədir, amma COP29 günlərində sanki dünya kiçilib ölkəmizə sığmışdı desək, heç də mübaliğə etmərik. Bunu şənbə günü reportaj üçün yollandığımız "yaşıl zona"da bir neçə saat ərzində apardığımız müşahidələr, müxtəlif ölkələrin insanları ilə xoş və səmimi söhbətlər, ziyarət etdiyimiz bir-birindən maraqlı pavilyonlar da sübut edirdi.**

Ümumiyyətlə, olduqca geniş ərazidə təşkil olunmuş "yaşıl zona"nın həyətinə, pavilyonlar quraşdırılmış ərazisinə daxil olandan etibarən özünü beynəlmiləl mühitdə hiss etməyə başlayırsan. Fərqli dinlərə, dillərə, millətlərə məxsus insanların bir-birlərinin dilini anlamasalar belə sadəcə jestləri, gülümsəmələri ilə necə anlaşdıqlarını gördükdə isə ilk düşündüyün o olur ki, həqiqətən də, Bakıda keçirilən COP29 qarşısına qoyduğu dünyanın gələcəyi üçün həmrəylik məqsədinə uğurla nail olub.

#### Pavilyonlara diqqət böyükdür

Səhər saatlarından etibarən xeyli sayda ziyarətçinin axın etdiyi "yaşıl zona"da birbaşa iqlim fəsadlarının aradan qaldırılması mövzusuna həsr olunmuş müxtəlif tədbirlər keçirilir. Bu tədbirlər "yaşıl zona"nı ziyarət edən həm yerli, həm də əcnəbi qonaqların diqqətini çəkirdi. Onların bəziləri isə özlərinə maraqlı olan mövzularda həvəslə müzakirələrə qoşulurdular. Məsələn, biz orada olarkən okean tuallantıları, dəniz canlılarının qorunması ilə bağlı keçirilən tədbirə necə böyük diqqət olduğunu müşahidə etdik.

Elə buradakı fərqli ölkələrin, şirkətlərin müxtəlif cür dizayn edilmiş pavilyonları da ziyarətçilərin geniş marağına səbəb olurdu. Yaxınlaşdığımız pavilyonlardan biri tullantılardan, bitkilərdən və samandan yanacaq istehsal edən müxtəlif şirkətlərə məxsus idi. Pavilyonu təqdim edən xanım dedi ki, həmin yanacaqdan daşınma və aviasiyada istifadə edilir. Həmçinin xeyli ziyarətçinin pavilyonla maraqlandığını, bəzi şəxslərin onlarla partnyorluq qurmaq istədiklərini öyrəndik.

Diqqət çəkən pavilyonlardan biri də "PMD projects" şirkətinə məxsus idi. Azərbaycanda çox önəmli layihələr həyata keçirdiklərini deyən tikinti şirkətinin nümayəndəsi Vüqar Hacıyev məlumat verdi ki, onlardan sonuncusu bu il noyabrın 8-də Zəfər Günündə açılışını Prezident İlham Əliyevin həyata keçirdiyi Zəfər parkıdır. Bu pavilyonda konsept mərhələsində olan maraqlı layihə sərgilənirdi. Belə ki, sözügedən layihədə sənaye təyinatlı binaların yox, yalnız sivil insanların yaşayacağı rezidenslərin, apartmanların, villaların tikintisi nəzərdə tutulub. Əgər Bakı şəhərində gerçəkləşdirilməsi nəzərdə tutulan layihə həyata keçirilərsə, bu, Azərbaycanda ilk olacaq ki, həm tikinti zamanı, həm də tikintidən sonra tələb olunan enerjinin 40 faizi alternativ enerji ilə təmin ediləcək. Həm külək, həm də günəş panellərindən istifadə olunacaq.

Heç şübhəsiz, "yaşıl zona"nın ən gözəgəlimli guşələrindən biri Bakı Ağ Şəhər pavilyonudur. Gənc memar İsgəndər Hacıyev dedi ki, hər gün çoxsaylı qonaqlar onların pavilyonunu ziyarət edirlər. Bakının rəmzlərindən olan Ağ şəhərin möhtəşəm maketi yerli və xarici qonaqları özünə cəlb edir.

#### Milli ab-hava

COP iqlim konfransı olsa da, müşahidə etdik ki, dünyanın dörd bir yanından Bakıya yığışan qonaqlar həm də məxsus olduqları xalqların, ölkələrin mədəniyyətlərini sərgiləmək üçün Azərbaycanda təşkil olunan bu nüfuzlu tədbiri bir növ önəmli fürsət sayıblar.

COP29-un "yaşıl zona"sında onlar üçün yaradılan hərtərəfli şəraitdən yararlanan əcnəbi qonaqlardan kimisi geyimi, saç düzümü, kimisi də əlində tutduğu hər hansı musiqi aləti ilə öz milli dəyərlərini nümayiş etdirirdi. Məsələn, geyimləri ilə uzaq Çin mədəniyyətini təmsil edən və maraqlı kompozisiya nümayiş etdirən xanımlardan və bəylərdən ibarət COP iştirakçılarının ziyarətçilərin çoxsaylı istəklərini qırmayaraq və üzlərindən gülüşü əsla əskik etməyərək dəqiqələrlə dayanıb onlarla fotolar çəkdirmələrini görmək istər-istəməz adamın üzündə xoş təbəssüm yaradırdı.

Ümumiyyətlə, "yaşıl zona"da hər kəsin qarşılaşanda sanki tanıyırmış kimi bir-birinə salam verməsi, gülümsəyərək ötməsi adi hal almışdı. Azərbaycan, Bakı adını eşidən əcnəbilərin səmimiyyətlə necə xoş sözlər dilə gətirmələri isə bir başqa qürurverici məqam idi.

Görünür, elə buna görə idi ki, Azərbaycan pavilyonunda sözün əsl mənasında iynə atsan, yerə düşməzdi. Milli ornamentli xalçalarımızla bəzədilmiş bu pavilyonda ustalarımız qədim əl sənətlərimizi nümayiş etdirirdilər. Eyni zamanda gənc rəssamlarımız həm xına ilə ziyarətçilərin əllərinə milli naxışlarımızı çəkir, həm də keramik qab üzərində Azərbaycanın milli rəsmlərini çəkirdilər.

Azərbaycan pavilyonunda xına rəssamı kimi çalışan Şirin Abıyeva söylədi ki, xalqımızın milli sənətlərini, eyni zamanda xınanı xarici vətəndaşlara tanıdırlar: "Xınayaxdı ölkəmizin qədim adət-ənənələrindəndir. Əvvəllər xınadan yalnız qızlarımız ailə həyatı quranda xınayaxdı mərasimi zamanı yaxma şəklində istifadə olunurdu. İndi isə festivallarda, bu cür böyük tədbirlərdə xınadan bəzək kimi istifadə olunur. Məqsədimiz xınanı xarici vətəndaşlara nümayiş etdirməkdir".

Müraciət edən insanların əlinə xına ilə müxtəlif milli naxışlar çəkən rəssam qeyd etdi ki, gələn ziyarətçilərin xınaya böyük marağı var: "Hər gün müxtəlif millətlərdən olan xeyli insanın əlinə xına çəkirəm və onlar bunu çox bəyənirlər".

#### "İnsanlarınız çox mehriban, istiqanlı, gülərüzdür"

Keramika üzrə layihə meneceri olan Nəzrin Musayeva məlumat verdi ki, Azərbaycan pavilyonunda keramika üzərində rəsmlər təqdim edirlər: "Burada rəssamımız fəaliyyət göstərir. Tutaq ki, əgər bizə yaxınlaşan turistin rəsm çəkmək qabiliyyəti yoxdursa, rəssamımız onlara dizaynları göstərir və istədikləri dizaynları seçib rəngləyirlər. Sonra rəssamımız tərəfindən dizayna düzəlişlər edilir və həmin qab turistlərə hədiyyə edilir".

Braziliyadan gəlmiş İzis Jeanes adlı xanım da yanımızda Atəşgahın rəsmini seçərək qabın üzərində çəkilməsini istədi. Rəssam xanımın istəyini yerinə yetirən ərəfədə isə biz onunla bir az söhbət etdik. Braziliyalı xanım xüsusi vurğuladı ki, Azərbaycan çox xoşuna gəlib və COP29-la əlaqədar artıq bir neçə gündür ölkəmizdə olmasına baxmayaraq, özünü vətənindəki kimi hiss edir: "İnsanlarınız çox mehriban, istiqanlı, gülərüzdür. Hətta bu xüsusiyyətlərinə görə Azərbaycanı Braziliyaya bənzədirəm. Bundan sonra da Azərbaycana, Bakıya tez-tez gələcəm".

"Yaşıl zona"da qədim şəbəkə sənətimiz sərgilənən ART pavilyonu da özünəməxsusluğu ilə diqqət çəkir. 36 ildir bu sənətlə məşğul olduğunu deyən şəbəkə sənətkarı Hüseyn Hacı Mustafazadə söylədi ki, Şəki Sənətkarlar Evində həm emalatxanası, həm də sərgi salonu var: "COP29-un "yaşıl zona"sına əsərlərimi gətirib sərgiləməkdə məqsədim odur ki, mədəni irsimizi daha geniş şəkildə tanıdım. Buna qədər də tutaq ki, 20-30 nəfərlik xarici turist qrupları Şəkiyə səfər edib bu sənətlə tanış olurdular. Amma COP29-a demək olar ki, dünyanın hamısı cəmləşib və milli irsimizi tanıtmaq üçün daha geniş auditoriya var". Pavilyonu ziyarət edən əcnəbi qonaqlara master-klas göstərdiyini də vurğulayan sənətkar dedi ki, xarici qonaqlar şəbəkə sənətinə öz ölkələrində görmədikləri qeyri-adi sənət növü kimi baxırlar.

#### "Yaşıl zona"nın "bulvar"ı

"Yaşıl zona"da olduğumuz müddətdə fikir verdik ki, burada ən kiçik detalına qədər hər şey təbiətə zərər verməyəcək formada qurulub. Qələmindən tutmuş torbasına, su, kofe qablarına qədər hər şeyin geridönüşümlü olması nəzərdə tutulub. Hara baxsan, hansı pavilyona nəzər yetirsən, təbiilik diqqət çəkir, Yer üzünün yaşıllaşmasının ümumi şüara çevrildiyi görünür.

Bu baxımdan Bakı Dənizkənarı Milli Park pavilyonu da xüsusi seçilir. Buradakı monitorlarda Milli Park, orada yerləşən abidələr, həmçinin ərazidə olan quşlar, ağaclar, bitkilər, eyni zamanda Xəzər dənizi və orada olan canlılar barədə ətraflı məlumatlar verilir.

Bulvar İdarəsində metodist işləyən Nigar Həsənova məlumat verdi ki, güllər, bitkilər və ağac bulvardan gətirilərək pavilyonda nümayiş etdirilir: "Burada hər şey təbiidir və bu, ziyarətçilərin xüsusi marağına səbəb olur".

Biz burada olduğumuz zaman da xeyli sayda əcnəbi qonaq pavilyona yaxınlaşıb sərgilənən bitki və güllər haqqında soruşurdu. "Yaşıl zona"nın "bulvar"ının fonunda ölkələrinə qayıdanda baxıb mənəvi rahatlıq duyacaqları çoxlu fotosessiya edirdilər.

Bəli, artıq bir həftədən çoxdur ki, Azərbaycan COP29 kimi nüfuzlu tədbirə evsahibliyi edir. On minlərlə qonaq ölkəmizə gələrək iqlimin yaratdığı fəsadlardan qurtulmaq üçün çıxış yolları arayır. Ancaq heç şübhəsiz, ilk öncə insanlar, ölkələr öz aralarında dil tapmağı bacarmalıdırlar ki, dünyanın xilası naminə ortaq nəticələr əldə olunsun. Bu baxımdan COP29-un "mavi" və "yaşıl" zonalarına ilk gündən sülh, həmrəylik, ümumiyyətlə, təhlükəsiz Yer üzü naminə birləşmək ideyalarının hakim olması onu deməyə əsas verir ki, Azərbaycanın paytaxtı Bakıda keçirilən qlobal miqyaslı tədbir ümidverici nəticələr üçün ən uğurlu platforma kimi tarixə düşəcək.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***
















# Bakıdan dünyaya ədalət çağırışı

## "Frank Peloni cəzalandırılmalı və Azərbaycanı tərk etməlidir"

**"Dünən biz burada sakit şəkildə aksiyamızı keçirirdik. Ancaq Frank Peloninin köməkçiləri, mühafizəçiləri haqsız olaraq buna mane olmaq istədilər və bizə müxtəlif dərəcəli çoxlu xəsarətlər yetirdilər. Bununla da Peloni öz əqidəsini və bizim xalqa bəslədiyi çirkin münasibətini ortaya qoydu, özünü ifşa etdi".**



AZƏRTAC xəbər verir ki, bu sözləri noyabrın 17-də Bakıda Azərbaycan Vətəndaş cəmiyyəti təmsilçiləri tərəfindən ABŞ konqresmeni Frank Peloniyə qarşı keçirilən etiraz aksiyasında iştirak edən "Sosial-iqtisadi və Ekoloji İnkişaf" İctimai Birliyinin sədri Rahilə Mehdiyeva deyib.

"Azərbaycanın vətəndaşına nifrət edən, zorakılıq edilməsi əmrini verən belə bir şəxsin Azərbaycanda qalmasını, ən mötəbər tədbirində iştirakını qəbul edə bilmərik. O cəzalandırılmalı və Azərbaycanı dərhal tərk etməlidir", - deyə aksiya iştirakçısı qeyd edib.

Xəsarətləri və qarşılaşdıqları zorakılıqla bağlı hüquq-mühafizə orqanlarına müraciət etdiklərini bildirən Rahilə Mehdiyeva səbəbkarların yaxın zamanda mütləq cəzalanacağına ümidvar olduğunu söyləyib.

## "Biz Peloninin və onun kimi düşünən insanların cəzalandırılmasını tələb edirik"

**"Frank Peloninin Azərbaycanla bağlı bütün addımları düşmənçilik mövqeyindəndir və dünənki hərəkətləri ilə ermənipərəst olduğunu bir daha göstərdi".**



Bu sözləri Azərbaycan Vətəndaş cəmiyyəti təmsilçiləri tərəfindən ABŞ konqresmeni Frank Peloniyə qarşı keçirilən etiraz aksiyasında iştirak edən Gənclərin Antinarkomaniya İctimai Birliyinin sədri Büllur Məmmədova deyib.

Aksiya iştirakçısı konqresmenin, onun kimi düşünən bütün şəxslərin cinayət məsuliyyətinə cəlb olunmasını və ölkəmizdən çıxıb getməsini tələb etdiklərini bildirib.

"Peloni hər zaman bütün iclaslarda, bütün mötəbər məkanlarda çıxışlarında bizim əleyhimizə fikirlər söyləyib. Hər dəfə haqlı olduğumuz halda, bizim haqsız olduğumuzu deyib. Ona görə biz onun, onun kimi düşünən insanların torpağımızda, ölkəmizdə olmasının qəti şəkildə əleyhinəyik və törətdikləri əməllərə görə onun cəzalandırılmasını istəyirik", - deyə o qeyd edib.

## "Frank Peloni öz hərəkətləri ilə Azərbaycanın düşməni olduğunu göstərdi"

**"Biz Frank Peloninin Azərbaycandan dərhal getməsini istəyirik. Çünki o, öz hərəkətləri ilə Azərbaycanın düşməni olduğunu göstərdi. Doğrudur, biz humanist xalqıq, insanlarla, xüsusilə qonaqlarla humanistcəsinə davranırıq, amma onun dünənki kobudluğu birbaşa Azərbaycan xalqına təhqirdir və belə bir məsələnin cavabsız qalması yolverilməzdir".**



Bu sözləri Azərbaycan Vətəndaş cəmiyyəti təmsilçiləri tərəfindən ABŞ konqresmeni Frank Peloniyə qarşı keçirilən etiraz aksiyasında "Milli Dəyərlər üzrə Maarifləndirmə" İctimai Birliyinin sədri Gülşən Behbud söyləyib.

O, konqresmenin Azərbaycanı dərhal tərk etməsini tələb etdiklərini və bu prosesin nəticələnəcəyi vaxta qədər aksiyanın davam etdiriləcəyini bildirib.

# COP tarixində utancverici hadisə

## Vətəndaş cəmiyyəti təmsilçiləri Bakıda Frank Peloniyə qarşı etiraz aksiyası keçiriblər










**Noyabrın 17-də Azərbaycanın bir qrup QHT rəhbərləri və ictimai fəallar xalqımızı təhqir etmiş ermənipərəst ABŞ konqresmeni Frank Peloniyə qarşı qaldığı hotelin qarşısında növbəti dəfə etiraz aksiyası keçirib.**




AZƏRTAC xəbər verir ki, QHT-lərin əsas tələbləri Peloninin Azərbaycan xalqından üzr istəməsi, dünənki dinc aksiya zamanı ictimai fəallara qarşı zorakılığa yol vermiş mühafizəçilərinə cinayət işi açılması, onun Azərbaycana qarşı iftira kampaniyalarına görə cavab verməsi olub.

Xatırladaq ki, ötən gecə Azərbaycan Vətəndaş cəmiyyətinin bir qrup təmsilçisi ABŞ konqresmeninin göstərişi ilə şiddətə məruz qalması, xəsarətlər alması barədə birgə bəyanat yayıb.

Bəyanatda qeyd olunub ki, islamofob, türkofob, maliyyə fırıldaqçısı, korrupsioner ABŞ konqresmeni Frank Peloni Azərbaycan xalqına nifrət edən şəxsdir, onun bütün fəaliyyəti Azərbaycana qarşı iftiralar üzərində qurulub. O, ABŞ-də erməni lobbisinin maraqlarını müdafiə edir, dəfələrlə Azərbaycanın suverenliyinə və ərazi bütövlüyünə hörmətsizlik edib. "Biz təəssüf edirik ki, BMT belə bir şəxsi COP29-a dəvət edib. Biz onun Azərbaycana səfərinə etiraz edirik. Onun qaldığı hotelin qarşısında dinc etiraz aksiyası keçirərək Azərbaycan xalqından üzr istəməsini tələb etmişik. O, müharibə cinayətkarlarına himayəçilik edən şəxsdir. Qarabağda işğal dövründə təbiət məhv edilib, ərazi ekoloji böhran vəziyyətinə düşüb. Belə bir şəxsin dünyada iqlim dəyişmələrinə həsr olunmuş qlobal ekoloji tədbirə BMT tərəfindən dəvət edilməsi COP tarixinə utancverici hadisə kimi düşəcək. Keçirdiyimiz aksiya zamanı Frank Peloni mühafizəçilərinə bizə hücum etmək tapşırığı verib, özü isə suallarımıza cavab verməyib", - deyə bəyanatda vurğulanıb.

Dinc aksiya zamanı QHT fəalları Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinə Frank Peloninin mühafizəçilərinə qarşı cinayət işi açılması üçün müraciət imzalayıblar.

QHT nümayəndələri Azərbaycan sərhədlərini işğal dövründə dəfələrlə qanunsuz keçmiş sərhəd pozucusu Frank Peloni barəsində hüquqi tədbirlər görülməsini də tələb ediblər.

# Fransa müstəmləkəçilik siyasətini davam etdirir

**Dünya XXI yüzilindədir. Lakin Fransa dörd əsr əvvəl olduğu kimi, bu gün də neokolonial siyasətini davam etdirir. Yüz illər əvvəldən devizi "Azadlıq, bərabərlik, qardaşlıq" olan, indi də başqa dövlətlərə "demokratiya dərsi" keçməyə çalışan rəsmi Parisin sözü ilə əməlləri bir-birinə tamamilə ziddir.**



Emmanuel Makron hökuməti Fransanın müstəmləkəçilik siyasətini böyük səylə davam etdirir. Nəticədə Fransanın işğalından qurtula bilməyən ölkələrdə əhalinin vəziyyəti getdikcə daha da ağırlaşır. Rəsmi Parisin ədalətsizliyindən, qanunsuz qərarlarından cana doymuş, dövlət müstəqilliklərini itirmiş xalqlar dünyaya səslənirlər. Onların istəyi öz ölkələrində təhlükəsiz şəraitdə, azad və dinc yaşamaq, milli-mənəvi sərvətlərinə sahib çıxmaqdır. Ölkəsi zəngin təbii ehtiyatlara malik olduğu halda, maddi vəziyyətlərinin getdikcə daha da ağırlaşması, yoxsulluq həddinin pik həddə çatması bu insanların səbrini tükəndirir, qəsbkarlara qarşı etirazlarını alovlandırır.

Fransanın hələ də müstəmləkə altında saxladığı dənizaşırı ərazilərində - Yeni Kaledoniya, Fransız Polineziyası, Fransız Qvianası, Martinik, Qvadelupa, Vallis və Futuna, Korsika, Qəmər Adaları İttifaqı və Haiti kimi ölkələrin yerli əhalisi də yüz illərdir davam etdirilən ədalətsizliyə son qoyulmasını, hüquqlarının bərpa edilməsini istəyirlər. Müstəmləkəçilərin sərt tədbirləri ilə qarşılaşsalar da, maneələrlə üzləşsələr də geri çəkilmir, öz etiraz səslərini ucaldırlar. Son vaxtlar Martinik adasından gələn çağırışlarda da fəryad, ədalət tələbi, haqqa səsləyiş var.

### Fransanın müstəmləkəsində solan "Çiçəklənən ada"

Martinik Karib dənizi hövzəsində Kiçik Antil arxipelaqına daxil olan adadır. Hazırda Fransaya məxsusdur və onun Dənizaşırı departamentinə daxildir. Ada Fransanın ərazisi kimi Avropa Birliyinə inteqrasiya olunub.

Tropik iqlimə malik olan bu adanı qədim sakinləri "Çiçəklənən ada" - Madinina adlandırırdılar. Martinikin əhalisinin 90 faizini afrikalılar və afrika-hindu təşkil edir. Təxminən 5 faizi Avropa mənşəlilər, qalan 5 faizi isə hindlilər və çinlilərdir. Martinikdə dünyaya gələn sakinləri Kreol adlandırırlar. Yerli dil kreol dili sayılır. Rəsmi dil fransız dilidir.

Halbuki adada ilk məskunlaşma eramızdan əvvəl 4000-ci ilə aid olsa da, Martinikin birinci avropalı sakini onu ilk dəfə 1502-ci il iyunun 15-də, dördüncü səyahəti zamanı kəşf edən Xristofor Kolumb olub. Adanı Fransa 1635-ci ildən mənimsəyib. 1648-ci ildə öz müstəmləkəsi elan edib. İndiki inzibati mərkəzi sayılan Fort de Fransın əsası qoyulub. Geniş şəkər qamışı plantasiyaları salınmağa başlanılıb. 1660-cı ildə buna qarşı çıxmağa çalışan yerli sakinlərə fransızlar tərəfindən divan tutulub. Plantasiyalarda qul kimi işlətmək üçün adaya Afrikadan zəncilər gətirilib.

"Çiçəklənən ada"nın başından qara buludlar çəkilməyib. Ayrı-ayrı illərdə hücumlara məruz qalıb. Adada qiyamlar baş verib.

Fransa dövləti paytaxtı Parisdən 6850 kilometr uzaqlıqda yerləşən Martinikdən yüz illər boyu gözünü çəkməyib. 1946-cı ildən Martinik Fransa Dənizaşırı Departamentinə daxil edilərək ərazinin siyasi inzibati strukturuna qatılıb. 1958-ci ildən başlanan muxtariyyət hərəkatı, 1983-cü ildə region məclisinin mərkəzdənqaçma meyilləri, 2003-cü ildə adanın ikiqat status - region və departament statuslarını əldə etməsi ilə nəticələnib.

### Martinikdə ərzaq qiymətləri Fransa ilə müqayisədə təxminən 40 faiz yüksəkdir

Son illər öz daxilində tüğyan edən narazılıqların belə qarşısını ala bilməyən, sosial-iqtisadi problemlərini həll etməyə gücü yetməyən Fransanın özündə də Emmanuel Makronun səriştəsizliyindən, yarıtmaz siyasətindən narazıdırlar. Fransanın işğal etdiyi ölkələrdə vəziyyət isə olduqca acınacaqlıdır. Rəsmi Parisin müstəmləkəçilik siyasəti nəticəsində gündən-günə yoxsullaşan həmin ölkələrdə etirazlar səngimir.

Fransanın müstəmləkə altında saxladığı Yeni Kaledoniya, Qvadelupa və Mayotdan sonra, sentyabrın əvvəlindən də Martinikdə bahalığa qarşı etiraz nümayişləri keçirilməyə başlanıldı. Onsuz da həyatı, dolanışığı dözülməz həddə çatmış martiniklilərin ərzaq və gündəlik tələbat mallarının qiymətini davamlı artımı bu addımları atmağa vadar etdi. İştirakçıların hökumətdən tələbi son dərəcə ağır vəziyyətdən çıxış yolları tapmaqdır. Həmkarlar ittifaqları və yerli assosiasiyalar etitazçılara dəstək nümayiş etdirdilər.

Qeyd edək ki, Martinikdə ərzaq qiymətləri Fransa ilə müqayisədə təxminən 40 faiz yüksəkdir. Bu da əhalisinin 27 faizə yaxını yoxsulluq şəraitində yaşayan martiniklilər üçün olduqca ağır problemdir. İqtisadi bərabərsizlik, təcrid nəticəsində isə vəziyyət gündən-günə kəskinləşir.

Nümayişçilərin tələbi qiymətlərin əhəmiyyətli dərəcədə aşağı salınması martiniklilər üçün daha yaxşı iqtisadi ədalətdir. Afro-Karib xalqlarının və resurslarının Müdafiəsi Birliyi (RPPRAC) rəhbərlik etdiyi etirazçılar Martinikdə qiymətlərin Fransa ilə uyğunlaşdırılmasını tələb edərək, ada sakinlərinin Fransa vətəndaşları olsalar da, qeyri-mütənasib yaşayış xərclərinə məruz qaldıqlarını bəyan etdilər. Nümayişçilər Fransanın zorakılığına və özbaşınalığına etirazlarını səsləndirdilər. Martinik xalqının toplaşmaq və ifadə azadlığının Fransa tərəfindən məhdudlaşdırılmasından narazılıqlarını dilə gətirdilər.

Polislə toqquşmalardan sonra prefekt Fort-de-Frans və Lamentin kimi böyük şəhərlərdə vəziyyəti nəzarət altına almaq üçün komendant saatı tətbiq olundu. Etirazçılar həbs edildilər. Afro-Karib xalqlarının və resurslarının Müdafiəsi Birliyinin müzakirələrdə daha çox şəffaflıq tələbinin yerinə yetirilməməsi səbəbindən adada gərginlik yüksək həddə çatdı.

Dənizaşırı ərazilərdə müstəmləkəçi siyasət yürüdən Fransa saxta ittihamlarla həbslərə belə əl atdı. Martinikdə yaşayış xərclərinin artmasına qarşı etirazlara rəhbərlik edən Afro-Karib xalqlarının və resurslarının Müdafiəsi Birliyinin (RPPRAC) lideri Rodriqe Petito görüş tələb etdiyi üçün həbs olundu. Belə ki, Rodriqe Petito Martinikdə səfərdə olan Fransanın dənizaşırı işlər üzrə naziri Fransua-Noel Buffe ilə görüşmək istədiyi zaman polis rəisi ilə mübahisə etdiyi üçün həbsə atıldı. Onun həbsindən sonra iğtişaşlar baş verdi. Rodriqe Petito yalnız etirazlardan sonra ev dustaqlığına buraxıldı. Onun mühakimə edilməsi gözlənilir.

Fransanın müstəmləkə altında saxladığı ayrı-ayrı ölkələrdə baş verən nümayişlər, iğtişaşlar göstərir ki, rəsmi Parisin müstəmləkəçilik siyasətinin başa çatmasına çox qalmayıb.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

COP29 Baku Azerbaijan

# Azərbaycandan dünyaya "yaşıl çağırış"lar





## Dayanıqlı gələcəyin sahibləri

**Ölkəmizin evsahibliyi etdiyi COP29 tədbirinin ali niyyəti dayanıqlı inkişaf, gələcək nəsillərin ehtiyaclarını təhlükə altına qoymadan indiki nəsillərin ehtiyaclarını qarşılamaq məqsədi daşıyan bir yanaşmadır. Bu konsepsiya iqtisadi, sosial və ekoloji sahələrin tarazlığını təmin edərək, uzunmüddətli və dayanıqlı həllər təklif edir. Gənclər isə bu hədəflərin reallaşdırılmasında mühüm rol oynayırlar. Çünki onlar cəmiyyətin ən enerjili, yaradıcılığa meyilli və texnologiya ilə əlaqəli təbəqəsidir.**



Gənclər dayanıqlı inkişafın bütün aspektlərində - sosial, iqtisadi və ekoloji sahələrdə fəal iştirak edərək həm mövcud problemlərin həllinə töhfə verir, həm də yeni yanaşmalar ortaya qoyurlar.

### Gənclərin və texnologiyaların gücü birləşəndə

Dayanıqlı inkişafda innovasiya və texnologiyalar çox mühüm rol oynayır. Gənclər isə texnologiyalara adaptasiya baxımından daha çevikdirlər. Bu, dayanıqlı həllərin yaradılmasında onların rolunu artırır. Süni intellekt, blokçeyn texnologiyaları və rəqəmsal tətbiqlər vasitəsilə gənclər enerji istehlakının optimallaşdırılması, tullantıların idarə olunması və karbon izinin azaldılması kimi sahələrdə innovativ həllər təqdim edirlər.

Bütün dövrlərdə olduğu kimi, maarifləndirmə və ictimai şüurun yüksəldilməsi də dayanıqlı inkişafın ən vacib istiqamətlərindəndir. Gənclər bu sahədə də çox böyük potensiala, təsir gücünə malikdirlər. Onlar sosial media və digər rəqəmsal platformalardan istifadə edərək dayanıqlı inkişaf mövzusunda geniş kütləni maarifləndirə bilirlər. Gənclərin həyata keçirdikləri rəqəmsal kampaniyalar və təşəbbüslər iqlim dəyişikliyi, sosial bərabərlik və iqtisadi ədalət kimi məsələlərə diqqət çəkir.

Yeni nəsil həm də gələcəyin lideridir. Onların dayanıqlı inkişaf məqsədlərinə yönəlmiş startaplar yaratmaları, yaxud sosial təşəbbüslərə liderlik etmələri iqtisadi modellərin inkişafına çox böyük təkan verir. Xüsusilə "yaşıl biznes"lərin qurulması gənclərin bu sahədə dayanıqlılığa töhfəsini göstərir.

### Rəqəmsal iqlim inqilabı qarşısında

Gənc nəslin dayanıqlı inkişaf məqsədlərinə yönəlməsindən ötrü isə ilk növbədə təhsilə xüsusi diqqət yetirilməlidir. Onlar təhsil vasitəsilə bu istiqamətdə əsaslı biliklər qazanaraq iqlim dəyişikliyi, bərpaolunan enerji və biomüxtəlifliyin qorunması kimi mövzulara dair yeni həllər hazırlaya bilirlər. Bütün bu qeyd edilənlər gənclərin rəqəmsal iqlim inqilabında iştirakı məsələlərini aktuallaşdırır. Bu baxımdan noyabrın 16-da COP29-un "yaşıl zona"sında "Gənclərin rəqəmsal iqlim inqilabında iştirakının dəstəklənməsi" mövzusunda keçirilən panel müzakirələri böyük maraq kəsb edir.

Xatırladaq ki, tədbir COP29 Azərbaycan Əməliyyat Şirkətinin təşkilatçılığı ilə baş tutub və iqlim böhranına cavab olaraq gənclərin innovasiya və dəyişikliyin əsas hərəkətverici qüvvəsi kimi roluna diqqət yönəldilib. Burada rəqəmsal həllərin iqlim fəaliyyəti ilə inteqrasiyası və bu texnologiyaların davamlılıq prinsiplərinin təşviqindəki rolu müzakirə olunub.

Gənclərin rəqəmsal iqlim inqilabında fəal iştirakı üçün onların rəqəmsal bacarıqlarının inkişaf etdirilməsi həyati vacib məsələdir. Yeni nəsil proqramlaşdırma, data analitikası, süni intellekt və digər rəqəmsal texnologiyalara yiyələnərək iqlim dəyişmələrinə qarşı həllər yarada bilərlər. Bu bacarıqları isə onlayn təhsil platformaları və ixtisaslaşmış kurslar vasitəsilə artırmaq mümkündür.

İnnovativ layihələrdə fəallıq gənclərin iqlim inqilabında iştirakının təşviqi baxımından da faydalıdır. Startaplar gənclərə iqlim problemləri üçün texnoloji həllər üzərində işləmək imkanı verir. Onlar iqlim texnologiyaları sahəsində fəaliyyət göstərən layihələrə qoşularaq təcrübə qazana bilirlər.

Sosial media və digər rəqəmsal platformalar vasitəsilə iqlim dəyişikliklərinin təsirlərini ictimailəşdirmək və başqalarını maarifləndirmək mümkündür. Rəqəmsal kampaniyalar yaratmaq, petisiyalar təşkil etmək və geniş kütlənin cəlb olunması bu sahədə mühüm rol oynayır.

Rəqəmsal alətlərdən istifadə edərək iqlim dəyişiklikləri ilə bağlı məlumatları toplamaq və analizini aparmaq, açıq məlumat bazalarından yararlanaraq tədqiqat və layihələr həyata keçirmək, süni intellekt texnologiyaları vasitəsilə enerji istehlakının optimallaşdırmasına, karbon izinin azaldılmasına və iqlim risklərinin təhlilinə fayda vermək, ətraf mühitin monitorinqini aparmaq, iqlimlə əlaqəli rəqəmsal startaplar qurmaq gənclərin görə biləcəkləri işlərdəndir. Onlar öz ideyalarını startaplara çevirərək "yaşıl texnologiyalar" sahəsində yeni məhsul və xidmətlər, dayanıqlı enerji, tullantıların idarə olunması və digər sahələrdə texnoloji həllər hazırlaya bilərlər.

COP29 çərçivəsində Yaşıl Rəqəmsal Fəaliyyətlə bağlı mətbuat konfransı da keçirilib. Maraqla qarşılanan konfransda bir çox mühüm məsələdən - iqlim dəyişikliyi ilə mübarizədə güclü vasitə sayılan rəqəmsallaşmanın potensialından, dayanıqlı infrastrukturun inkişafına və ətraf mühitin yaxşılaşmasına müsbət təsirindən danışılıb. Yaşıl Rəqəmsal Fəaliyyət təşəbbüsünün COP29 sədrliyinin gündəliyinə daxil olan qlobal təşəbbüsdən biri olduğu qeyd edilib. Vurğulanıb ki, innovasiya və dayanıqlılığa əsaslanan rəqəmsallaşma gələcək COP-larda prioritet olaraq qalmasını gerçəkləşdirərək davamlılığa yönələn çağırışdır.

Burada Yaşıl Rəqəmsal Fəaliyyət üzrə Bəyannamə və onun əhəmiyyəti barəsində məlumat verilib. Eyni zamanda qaz emissiyalarının azaldılmasında yeni texnologiyaların rolu vurğulanıb.

Mətbuat konfransında xüsusi qeyd edilib ki, təqdim olunan bəyannamə öz dəstəkləyicilərini iqlim dəyişmələri ilə mübarizə aparmaq üçün rəqəmsal vasitələrdən istifadəyə, rəqəmsal infrastrukturun iqlim dəyişmələrinə davamlılığını artırmağa və rəqəmsallaşmanın ətraf mühitə təsirini azaltmağa məcbur edir. Bəyannamə artıq mindən çox rəqəmsal icma nümayəndəsinin, o cümlədən 90-dan çox ölkənin hökumətlərinin razılığını alıb.

Gənclərin rəqəmsal platformalarda iqlim dəyişmələri mövzusunda fəaliyyət göstərən qlobal və lokal icmalara qoşulması, beynəlxalq təşkilatların təşəbbüslərində iştirakı da son dərəcə faydalıdır. Bundan başqa, gənc nəslin təmsilçiləri blokçeyn texnologiyası vasitəsilə karbon kreditləri və digər "yaşıl təşəbbüslər"in şəffaflığının artırılmasında, iqlimlə bağlı layihələr üçün rəqəmsal vəsait toplama mexanizmlərinin yaradılmasında da fəal iştirak edə bilərlər.

### Hansı addımlar atılmalıdır?

Ümumən gənclərin rəqəmsal iqlim inqilabında fəal iştirakı yalnız texnologiya ilə deyil, həm də yaradıcılıq və kollektiv cəhdlərlə mümkündür. Bu həm planetin qorunmasına, həm də daha texnoloji və dayanıqlı bir gələcək qurulmasına kömək edir. Bu baxımdan COP29-un panel müzakirələri çərçivəsində iştirakçılara qabaqcıl rəqəmsal platformaların, süni intellektlə işləyən həllərin və real vaxt rejimində ətraf mühitin monitorinqini təmin edən innovativ proqram təminatlarının təqdim olunması çox əhəmiyyətlidir. Bu vasitələr arasında məlumat əsaslı təbliğat vasitələri, iqlim məlumatlarının vizuallaşdırılması üçün istifadə olunan proqram təminatları və gənclərin iqlim fəaliyyəti sahəsində daha aktiv iştirakına şərait yaradan rəqəmsal tətbiqlər yer alıb. Rəqəmsal texnologiyaların iqlim dəyişmələrinə qarşı mübarizədə tətbiqinin genişləndirilməsi, bu sahədə əməkdaşlığın gücləndirilməsi və rəqəmsal həllərin inklüzivliyin təmin edilməsindəki əhəmiyyəti ifadə edilib.

Onu da qeyd edək ki, rəqəmsal iqlim inqilabında gənclərin iştirakı üçün konkret addımların atılması vacibdir. Çünki gənclərin bununla bağlı üzləşdikləri çağırışlar var və onların dayanıqlı inkişafda fəal iştirakı üçün potensial böyük olsa da, bəzi çağırışlar bu təbəqənin rolunu məhdudlaşdıra bilər. Bura ilk növbədə maliyyə resurslarının məhdudluğunu qeyd etmək lazım gəlir. Bir çox gənc dayanıqlı təşəbbüsləri maliyyələşdirmək üçün kifayət qədər resursa malik deyil. Belə hallar onların yenilikçi layihələr həyata keçirmək potensialını azalda bilər. Bundan başqa, şəbəkə və dəstək mexanizmlərinin çatışmazlığı ilə bağlı məsələlərin həlli də daim diqqətdə saxlanılmalıdır ki, gənclər öz təşəbbüslərini irəli aparmaq məqsədilə lazımi mentorluq və şəbəkələrdən məhrum qalmasınlar.

Bir çox ölkədə gənclərin dayanıqlı inkişaf layihələrində iştirakı üçün siyasət və təşviqlərin olmaması onların fəaliyyətini məhdudlaşdırır.

Bütün bunları nəzərə alaraq Azərbaycanda gənclərimizin dayanıqlı inkişaf proseslərində fəal iştirakı üçün lazımi şərait yaradılır. Onlara bu sahədə geniş təhsil və təlim imkanları təqdim edilir. Məktəblərdə və universitetlərdə iqlim dəyişmələri və dayanıqlı inkişaf mövzularına tədris proqramlarında yer verilir. Gənclərin innovativ layihələrinə müəyyən həcmlərdə maliyyə və texniki dəstək təmin olunur. Bununla onların təşəbbüslərinin reallaşması asanlaşır.

Bu gün yeni nəslin qlobal və yerli səviyyədə şəbəkələşmə platformalarının yaradılmasına dəstək verilir. Belə platformalar onların təcrübə mübadiləsi aparmasına və dayanıqlı inkişaf layihələrində iştirakına imkan yaradır. Bu insanların layihələrə daxil olması üçün siyasət və qanunvericilik çərçivələri də təkmilləşdirilir, gənclər qərarvermə proseslərinə cəlb olunurlar.

COP29 çərçivəsində SOCAR və SABAH HUB tərəfdaşlığı ilə "Dayanıqlı innovasiyalar çağırışı" mövzusunda tədbir keçirilib. Burada qlobal əməkdaşlığın və iqlim texnologiyalarının gələcəyin qorunmasındakı vacibliyi vurğulanıb. Tədbirdə yerli və xarici startaplar olmaqla, ümumilikdə 10 startap layihəsi, iqlim texnologiyaları sahəsində innovativ həllər təqdim edilib. Hər komanda davamlı gələcək üçün öz unikal yanaşmasını nümayiş etdirib. Beynəlxalq investorlar və tədbir iştirakçıları tərəfindən keçirilən qiymətləndirmə nəticəsində ən yaxşı 3 startap seçilib.

Tədbirdə həm də bildirilib ki, COP29-da iqlim hədəflərinə nail olmaq üçün maliyyələşmənin aparılması ilə bağlı mühüm mövzular müzakirə edilib. Bu hədəflərə çatmaq məqsədilə kreativ və yaradıcı gənclərin iqlim mövzuları üzrə təşəbbüslərinin dəstəklənməsi olduqca vacibdir.

Xüsusi qeyd edilib ki, COP29 çərçivəsində tərəfdaşlıq nəticəsində SOCAR SABAH HUB vasitəsilə "cleantech" sahəsində fəaliyyət göstərən şirkətlərə bir milyon dollar vəsait ayırıb: "COP29-da SABAH HUB olaraq 38 komanda ilə iştirak edirik. Onların 15-i bizim proqramların məzunlarıdır. Bu gün beş qitənin 15 ölkəsindən 25-ə yaxın startapçı COP29-da iştirak edir".

Bir sözlə, yeni nəsil dayanıqlı inkişaf prosesində böyük potensiala malikdir. Onların enerjisi, innovativ düşüncəsi və texnologiya bacarıqları dayanıqlı gələcəyin qurulmasında mühüm rol oynayır. Gənclərin bu prosesə daha fəal cəlb edilməsi üçün onların üzləşdiyi çağırışların həlli vacibdir. Hökumətlər, təşkilatlar və cəmiyyət gəncləri dəstəkləməklə dayanıqlı inkişafın əsas hərəkətverici qüvvəsini formalaşdıra bilərlər. Beləliklə, arzusunda olduğumuz dayanıqlı və ədalətli bir dünyanı ancaq gənclərin iştirakı ilə qurmaq mümkündür. Çünki gələcəyin sahibləri onlardır.

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*

### *Fadhel KABOUB:* "Enerji keçidində investisiyalar və dəstək məhz bizim qitəyə yönəldilməlidir"

**"Dünya əhalisinin 20 faizinin yaşadığı Afrika bərpaolunan enerji ilə bağlı qlobal investisiyalarda cəmi 2 faiz paya malikdir və bu ədalətsizlik aradan qaldırılmalıdır".**



Bunu "Report"a açıqlamasında Keniyada fəaliyyət göstərən "Power Shift Africa" ekologiya təşkilatının eksperti, ABŞ-nin Denison Universitetinin dosenti və Qlobal Davamlı Rifah İnstitutunun prezidenti Fadhel Kaboub bildirib.

O, COP29-da iştirak etmək üçün Bakıdadır.

Qonağın sözlərinə görə, Afrika qitəsi günəş və digər bərpaolunan enerji mənbələri baxımından böyük potensiala malik olsa da, qlobal enerji keçidindən kənarda qalır. O əlavə edib ki, qitənin enerji imkanlarının genişləndirilməsi, Davamlı İnkişaf Məqsədləri çərçivəsində hər kəsin müasir və davamlı enerji ilə təmin edilməsi hədəflənməlidir: "Əgər qlobal enerji keçidində real dəyişikliklər etmək istəyiriksə, investisiyalar və dəstək məhz Afrika qitəsinə yönəldilməlidir. Afrika bu prosesdə liderlik etməli və qlobal enerji inqilabında mərkəzi rol oynamalıdır".

### *Lukas di PİETRO:* "Üç milyarddan çox insan iqlim dəyişikliyinin təsirlərinə qarşı olduqca həssasdır"

**"Bu gün 3 milyarddan çox insan iqlim dəyişikliyinin təsirlərinə qarşı olduqca həssasdır və bu, kəskin şəkildə birgə fəaliyyətimizin təciliiyini artırır".**



Bunu Adaptasiya Fondunun (AEF) İdarə Heyətinin sədri Lukas di Pietro COP29 çərçivəsində "İqlim dayanıqlılığı üçün Bakı İnsan İnkişaf Təşəbbüsü" mövzusunda keçirilən birgə iclasda çıxışı zamanı deyib.

O bildirib ki, bir araya toplaşmaq üçün nəzərdə tutulan bu təşəbbüs, inkişaf etməkdə olan ölkələrdə ən həssas icmalara fayda verən konkret iqlim adaptasiya layihələrini maliyyələşdirmək AEF-in mandatı ilə mükəmməl uzlaşan mühüm addımdır.

Sədr vurğulayıb ki, fondun işi səhiyyə, təhsil, sosial müdafiə və yaşayış vasitələri kimi kritik inkişaf ehtiyaclarını əhatə edir:

"Biz uşaqların, gənclərin, qadınların və marginal qrupların ehtiyaclarına üstünlük verir, eləcə də hər kəsin daha yaxşı gələcək qurmaq imkanının olmasını təmin edirik. Bütün adaptasiyalar və fəaliyyətlər uzunmüddətli institusional və texniki potensialı artırmaq, həssas icmaları dəyişiklik agentləri kimi gücləndirmək, gender bərabərliyini təşviq etmək və digər adaptasiya təşəbbüsləri ilə sinergiyaları artırmaq üçün nəzərdə tutulub.

Bu səylər vasitəsilə layihələrimizin bir çoxu iqlim böhranı ilə bağlı mürəkkəb riskləri həll edərək daha geniş davamlılığın qurulmasına töhfə verir. Birlikdə davamlılığı gücləndirmək, aramızdakı ən həssas insanlar üçün dayanıqlı və ədalətli gələcəyi təmin etmək imkanına malikik. Gəlin, bu öhdəliyi davamlı dəyişikliyə səbəb olan konkret fəaliyyətlərə çevirək".

### *Mia SEPPO:* "2030-cu ilə qədər qlobal miqyasda 100 milyondan çox iş yeri yaradıla bilər"

**"Beynəlxalq Əmək Təşkilatının (BƏT) qlobal tədqiqatı enerji dayanıqlılığına və dairəvi iqtisadiyyata keçidin 2030-cu ilə qədər qlobal miqyasda 100 milyondan çox iş yeri yarada biləcəyini göstərir".**



Bunu BƏT-in İş və sosial müdafiə üzrə baş direktorunun köməkçisi Mia Seppo COP29 çərçivəsində "İqlim dayanıqlılığı üçün Bakı İnsan İnkişaf Təşəbbüsü" mövzusunda keçirilən birgə iclasda çıxışı zamanı deyib.

Onun sözlərinə görə, milli adaptasiya planları və digər iqlim siyasətlərində gənclər, uşaqlar və qadınlarla bağlı məsələyə diqqət yetirilməlidir:

"Təhsil, bacarıqlar, səhiyyə, iş yerləri və sosial müdafiəyə fokuslanaraq insan inkişafına üstünlük verilməlidir. BƏT-in qlobal tədqiqatı göstərir ki, enerji dayanıqlılığına və dairəvi iqtisadiyyata keçid 2030-cu ilə qədər qlobal miqyasda 100 milyondan çox iş yeri yarada bilər". M.Seppo bildirib ki, tam iş potensialının reallaşdırılması yeni "yaşıl iş yerləri" üçün təhsil və təlimə, həmçinin tənəzzüldə olan sənayelərdən işçilərin yeni inkişaf edən yaşıl sahələrə keçidinə kömək etmək üçün yenidən ixtisaslaşma və ixtisasartırmaya böyük sərmayə qoyuluşundan asılıdır:

"Bununla paralel olaraq işçilərin keçid dövründə dəstəklənməsi təmin edilməlidir". BƏT rəsmisi həmçinin iqtisadiyyatın dayanıqlılığa doğru irəlilədikcə geridə qalmamasını təmin edən sosial müdafiənin təmin edilməsinə də diqqət çəkib.

COP29 Baku Azerbaijan

# Azərbaycanın nümunəvi evsahibliyi



## Kitti van der HEYDEN: "Yaşıl və rəqəmsal bacarıqlara dair uşaqlara sərmayə qoymaq vacibdir"

**"Yaşıl və rəqəmsal bacarıqlarla bağlı uşaqlara sərmayə qoymaq hazırda çox vacib məsələdir".**



"Report" xəbər verir ki, bunu BMT-nin Uşaq Fondunun (UNICEF) Tərəfdaşlıq üzrə icraçı direktorunun müavini Kitti van der Heyden COP29 çərçivəsində təşkil olunmuş "İqlim dayanıqlılığı üçün Bakı İnsan İnkişaf Təşəbbüsü" mövzusunda birgə iclasda bildirib.

"Biz "İqlim dayanıqlılığı üçün Bakı İnsan İnkişaf Təşəbbüsü" haqqında birgə bəyanatı və bununla bağlı əsas prinsipləri alqışlayırıq. İnsanın inkişafından danışanda ilk növbədə uşaqlardan başlamalı olduğumuzu xüsusilə vurğulamaq istəyirəm. Uşaqlara sərmayə qoymaq təkcə düzgün deyil, həm də çox vacib məsələdir", - deyə o vurğulayıb. Qonağın sözlərinə görə, gələcəyə sərmayə qoymaq üçün ilk növbədə uşaqlara sərmayə qoymaq lazımdır: "Onlara yaşıl və rəqəmsal bacarıqlar lazımdır. Qaçılmaz olan keçid üçün gənclərin bacarıqlarını artırmaq insan inkişafının vacib hissəsidir. Bu məsələni gündəmə gətirdiyi üçün COP29 sədrliyinə təşəkkür etmək istərdim".

## Martin FRİK: "Dünyada pandemiya və münaqişələr səbəbindən qidalanma ilə bağlı təchizat zənciri pozulub"

**"Hazırda dünyada 59 münaqişə ocağı var. Dünyanın bir çox ölkələrində inflyasiya dərəcəsi artır. Bir çox ölkələrdə milli valyutalar dəyər itirir. Beləliklə, hər bir müharibə dəhşətli faciələr yaradır. Pandemiyalar səbəbindən xərclər artır, bu da qiymətlərin artmasına səbəb olur".**



AZƏRTAC xəbər verir ki, bu sözləri Ümumdünya Ərzaq Proqramının (WFP) Berlin Qlobal Ofisinin Direktoru Martin Frik noyabrın 17-də Bakıda COP29 çərçivəsində təşkil olunmuş Parlament Görüşünün ikinci günündə keçirilən sessiyada çıxışı zamanı deyib. Onun sözlərinə görə, dünyada pandemiya və münaqişələr səbəbindən qidalanma ilə bağlı təchizat zənciri pozulub. Həmçinin iqlim dəyişikliyi də bu problemlərə daxildir.

"Hazırda dünyanın 10 milyard insanın yaşaması üçün qidalandırma potensialı var. Lakin qidaların paylanması qeyri-bərabərdir", - deyə o vurğulayıb.

# Həm iştirakçı, həm də ev sahibi

## Azərbaycan şirkətləri COP29-da fəallıqları ilə seçilirlər

**Azərbaycan BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) qısa vaxtda mükəmməl hazırlaşdı. İndi tədbirin belə yüksək səviyyədə keçirilməsi də bundan qaynaqlanır.**

COP29-un işində dünyanın müxtəlif ölkələrini təmsil edən yüzlərlə şirkət iştirak edir ki, bunların sırasında Azərbaycan şirkətlərinin öz yeri var. Onlar nailiyyətlərini nümayiş etdirməklə yanaşı, həm də təcrübələrini bölüşmək, yeni əlaqələr yaratmaq üçün çoxsaylı tədbirlər keçirirlər. Bir sözlə, yüksək fəallıq göstərirlər, axı təkcə iştirakçı deyil, həm də ev sahibidirlər.

COP29-da ölkəmizin sənayedə enerji keçidi üçün mühüm əhəmiyyət kəsb edən onlarla müxtəlif şirkəti iştirak edir. Hələ bir neçə ay əvvəldən tədbirin tərəfdaşları seçilmiş şirkətlərdən üçünün adını çəkək. "SOCAR Green", "Pasha Holding" və "Azersun Holding". "SOCAR Green"in COP29 ilə tərəfdaşlığı Azərbaycanın dayanıqlı gələcəyə keçid prosesində şirkətin fəal iştirak etmək əzminin bariz göstəricisidir. İcmaları innovativ təmiz enerji həlləri ilə gücləndirmək, karbon emissiyalarını minimuma endirmək və ekoloji məsuliyyəti təşviq etmək başlıca məqsədlərdəndir. Bunlar da öz növbəsində gələcək nəsillərə sağlam planet miras qoymaq üçün atılan mühüm addımdır.

COP29 tədbiri "PASHA Holding" şirkəti tərəfindən həyata keçirilən dayanıqlılıq fəaliyyətləri baxımından mühüm rol oynayır. Bu səbəbdən də şirkət COP29-un Strateji təsir üzrə Tərəfdaşı olmaqdan qürur duyur. Holdinqin əməkdaşları daha çox məlumat toplamaq və təcrübə mübadiləsi aparmaq üçün maraqlı tərəflərlə çalışmağa, eləcə də daha firavan və dayanıqlı dünya naminə konstruktiv əməkdaşlıq və irəliləyiş imkanlarını araşdırmağa can atırlar.

COP29 tədbirinin tərəfdaşı olmaq "Azersun Holding" şirkətinin dayanıqlılığa olan sarsılmaz əzmkarlığının göstəricisidir. Şirkət əmindir ki, qlobal liderlərlə birlikdə çalışmaqla əhəmiyyətli dəyişikliyə nail ola və hamımız üçün daha dayanıqlı gələcəyə töhfə verə bilər.

Qeyd edək ki, yerli tərəfdaşlar Azərbaycanın Milli Öhdəlik Proqramında iştirak edirlər. Bu proqramın məqsədi COP29 Azərbaycan Əməliyyat Şirkəti tərəfindən təklif olunan məsləhət və təlim sessiyalarında iştirak etməklə, peşəkar bacarıqları və resursların idarə olunmasını artırmaq üçün iqlim hədəflərinə nail olunması, gələcək ekoloji, sosial və korporativ idarəetmə (ESG) strategiyalarının formalaşdırılması və yerli tərəfdaşlıq meyarlarına uyğunluq baxımından Azərbaycan şirkətlərinin daxili potensialının qiymətləndirilməsidir.

Şirkətlərimizin fəal iştirakı COP29 çərçivəsində keçirdikləri tədbirlərdən də aydın görünür. Məsələn,"yaşıl zona"da SOCAR-ın təşkilatçılığı ilə "SOCAR-ın dekarbonizasiya sahəsində fəaliyyəti: çətinliklər və nailiyyətlər" mövzusunda tədbir keçirilib.

Tədbirdə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin, SOCAR Qrupun, "Boston Consulting Group" şirkətlərinin, Yaponiya Beynəlxalq Əməkdaşlıq Təşkilatının (JBIC), "OGDC" və "IOGP" kimi beynəlxalq təsisatların, həmçinin digər maraqlı tərəflərin nümayəndələri iştirak ediblər. Tədbirin COP29 çərçivəsində keçirilməsinin əhəmiyyəti vurğulanıb, iqlim dəyişikliyi ilə mübarizədə beynəlxalq əməkdaşlığın gücləndirilməsinin vacibliyi qeyd olunub. Geniş təqdimatla SOCAR-ın dekarbonizasiya hədəfləri, bu məqsədlərə çatmaq üçün həyata keçirilən layihələr, emissiyaların ölçülməsi üçün süni intellektə əsaslanan "Metan AI" alətinin tətbiqi, "OGCI" ilə əməkdaşlıq çərçivəsində peyk monitorinqlərinin və "TotalEnergies" ilə birgə dron əsaslı ölçmələrin aparılması, BP şirkəti ilə birgə həyata keçirilən "AGMR" layihəsi, emissiyalara dair şəffaf hesabatlığın təmin edilməsi məqsədilə "OGMP2.0" təşəbbüsünə qoşulma, həmçinin alternativ və bərpaolunan enerji mənbələri layihələrinə dair iştirakçılara ətraflı məlumat verilib.

COP29 çərçivəsində "yaşıl zona"da SOCAR-ın dəstəyi ilə, eləcə də "Neft və Qaz Metan Tərəfdaşlığı" (OGMP2.0) liderlərinin forumu keçirilib. Metan emissiyalarının azaldılması və şəffaflığın artırılmasına həsr olunmuş tədbirdə SOCAR, "TotalEnergies", "Italgas Reti", "TAP AG", "Shell", "ADNOC", "Petronas" şirkətlərinin rəhbər şəxsləri, habelə Avropa Komissiyasının, BMT-nin Ətraf Mühit Proqramının (UNEP), Ətraf Mühitin Mühafizəsi Fondunun (EDF) nümayəndələri iştirak ediblər.

Tədbir COP29 platformasında "OGMP 2.0" təşəbbüsünün əhəmiyyətini vurğulamaq və onun haqqında geniş auditoriyada məlumatlılığı artırmaq məqsədilə təşkil olunub. Çıxışlarda "OGMP2.0" platformasının qlobal enerji sektorunda şəffaflıq, davamlılıq və əməliyyat standartlarının yaxşılaşdırılmasına verdiyi töhfələr xüsusi vurğulanıb. SOCAR-ın qlobal miqyasda emissiyaların azaldılması və bu sahədə şəffaf hesabatlıq prinsiplərinə sadiqliyini nümayiş etdirərək, 2024-cü ildə "OGMP2.0" təşəbbüsünə qoşulduğu vurğulanıb və şirkətin emissiyaların azaldılması üzrə hədəfləri və bu sahədəki fəaliyyəti barədə məlumat verilib.

Müzakirələr zamanı metan emissiyalarının dəqiq ölçülməsi və izlənilməsi üçün metodologiyaların inkişaf etdirilməsinin əhəmiyyəti vurğulanıb, bu istiqamətdə rəqəmsal texnoloji alətlərin tətbiqinin üstünlükləri haqqında fikirlər səsləndirilib. Şirkətlərin "OGMP2.0"a üzv olmaqla cari və gələcək tənzimləmələrə daha yaxşı uyğunlaşmaq, metan emissiyalarını azaltmaq üçün yeni texnologiyaları və innovativ həlləri tətbiq etmək, emissiyalara dair şəffaf hesabatlıq və qlobal miqyasda effektiv əməkdaşlıq imkanlarını əldə etdikləri diqqətə çatdırılıb.

Azərbaycan Respublikası Dövlət Neft Fondu (ARDNF) isə COP29 çərçivəsində ESG (Ətraf Mühit, Sosial və İdarəetmə) prinsiplərinin fondun investisiya portfelinə inteqrasiyası mövzusunda tədbir təşkil edib.

"Mavi zona"da keçirilən tədbir göstərdi ki, Dövlət Neft Fondu ESG prinsiplərini investisiya strategiyasının ayrılmaz hissəsi kimi qəbul edir və bu yanaşma ilə gələcək nəsillər üçün dayanıqlı dəyər yaratmağı hədəfləyir. Məsuliyyətli investisiyalar vasitəsilə həm iqtisadi inkişafı, həm də sosial və ekoloji tərəqqini təmin etmək fondun əsas prioritetlərindən biridir.

"Azercell Telecom" MMC isə COP29-un rəsmi telekommunikasiya tərəfdaşı qismində çıxış edərək davamlı və dayanıqlı inkişafa, ətraf mühitin mühafizəsinə sadiqliyini bir daha nümayiş etdirir. COP29-la tərəfdaşlıq çərçivəsində şirkət dayanıqlılıq strategiyasını gücləndirməklə yanaşı, daha "yaşıl gələcək" üçün yeni əməkdaşlıqların qurulmasını hədəfləyir.

Qeyd edək ki, "Azercell Telecom"un dayanıqlılıq siyasəti müxtəlif ekoloji təşəbbüslər vasitəsilə karbon emissiyalarının azaldılması, enerjidən istifadənin optimallaşdırılması, su və yanacaq səmərəliliyinin artırılmasına yönəlib. Şirkət 2017-ci ildən etibarən ölkə ərazisində günəş enerjisi ilə işləyən baza stansiyalarının tətbiqinə başlayıb. Təkcə Qarabağda lider mobil operatorun 35 "yaşıl baza stansiyası" fəaliyyət göstərir və onların enerji tələbatının 60 faizi bərpaolunan enerji hesabına qarşılanır. "Azercell Telecom" həmçinin bir sıra qlobal iqlim təşəbbüslərini də dəstəkləyir. Belə ki, BMT-nin Qlobal Sazişinə və GSMA-nın İqlim Fəaliyyəti İşçi Qrupuna qoşulmaqla "Azercell Telecom" digər bazar iştirakçılarını da ətraf mühitlə bağlı səylərini gücləndirməyə təşviq edir.

"Azercell Telecom" COP29-un keçirildiyi məkanda konfrans iştirakçılarına kəsintisiz telekommunikasiya xidmətləri göstərir.

Məlum olduğu kimi, Azərbaycanın "ASAN xidmət"i dünyanın diqqət mərkəzindədir. COP29-da iştirak edən yüksəksəviyyəli qonaqlarımız da bu qurumun işinə maraq göstərirlər. "ASAN xidmət"in təşkil etdiyi "yaşıl idarəetmə" ilə bağlı beynəlxalq forum həmçinin diqqət çəkib. Çıxışlarda "yaşıl texnologiya"ların genişləndirilməsində, qabaqcıl idarəçiliyin inkişaf etdirilməsində və dövlət xidmətlərinin ətraf mühitə, sosial davamlılığa uyğunlaşdırılmasında beynəlxalq əməkdaşlığın əhəmiyyəti vurğulanıb. "ASAN xidmət" modeli kimi innovativ modellərin davamlı infrastruktura, inklüzivliyin təşviqinə və iqlim dəyişikliklərinə cavab vermək üçün beynəlxalq əməkdaşlığa necə töhfə verə biləcəyi diqqətə çatdırılıb. Tədbirdə "ASAN xidmət" mərkəzlərində alternativ enerji mənbələrinə keçid" layihəsi ilə bağlı məlumat diqqətə çatdırılıb və bununla əlaqədar videoçarx da nümayiş etdirilib.

Bir sözlə, COP29-da Azərbaycan şirkətlərinin iştirakı ölkəmizin enerji keçidində, eləcə də bir çox digər sahələrdə qazandığı sanballı uğurların daha bir göstəricisidir.

***Flora SADIDLI,***
***"Azərbaycan"***



## Coşua VİKLİF: "Azərbaycan COP29 çərçivəsində qlobal iqlim təşəbbüslərinə mühüm töhfə verir"

**"Ümid edirəm ki, COP29 çərçivəsində iqlim dəyişikliyi ilə mübarizə məqsədilə maliyyələşdirməyə dair qlobal öhdəliklərə nail olunacaq. İqlim dəyişmələrinin təsirlərinin azaldılması istiqamətində hökumətlərin belə mühüm öhdəliklər götürməsi böyük əhəmiyyət daşıyır".**



Bu fikirləri COP29-da iştirak edən Beynəlxalq Alyansın Əməliyyatlar üzrə Baş direktoru Coşua Viklif deyib. O, COP29-un yüksək səviyyədə təşkil edildiyini vurğulayaraq diqqətə çatdırıb: "Azərbaycanın bu tədbiri təşkilatçılıq baxımından müstəsna səviyyədə keçirdiyini müşahidə etdim. Mən bir çox COP tədbirlərində iştirak etmişəm, lakin bu bölgədə ilk dəfədir oluram. Burada göstərilən qonaqpərvərlik heyranedicidir, nəqliyyat sisteminin effektiv fəaliyyəti xüsusilə təqdirəlayiqdir. Təhlükəsizlik tədbirləri yüksək səviyyədə təmin edilib, qaldığımız hotellər son dərəcə komfortludur. Ümumilikdə logistika və təşkilatçılıq işləri ilə bağlı yalnız müsbət fikirlər səsləndirə bilərəm. Bu tədbir çərçivəsində Azərbaycanda olduqca xoş vaxt keçiririk".

## Jaklin AMONGİN: "İqlim öhdəliklərinin nəticələri ilə əlaqədar COP29-dan gözləntilərim çox böyükdür"

**"İqlim öhdəliklərinin nəticələri ilə əlaqədar COP29-dan gözləntilərim çox böyükdür, xüsusən də qlobal iqlim maliyyələşdirilməsi və iqlimə daha çox həssas ölkələr ilə bağlı".**



Bu sözləri Şərqi Afrika Qanunvericilik Məclisinin Parlament üzvü Jaklin Amongin deyib.

O qeyd edib: "Hər COP-da qlobal liderlərin maliyyələşdirmə məsələsində verilən vədlərin yerinə yetirilməsinə dair öhdəlik götürmələrini görmək istəyirəm. Ən əsası isə, uyğunlaşma tədbirlərinin artırılmasını görmək istərdim. Uyğunlaşma iki dəfə artırılmalıdır, çünki bu, dünyanın əksər insanları üçün faydalıdır. Dünya əhalisinin böyük hissəsi fermerdir, buna görə də uyğunlaşmaya diqqət yetirəndə biz əksəriyyətin ehtiyaclarını həll edirik".

Azərbaycana səfərindən məmnunluğunu bildirən J.Amongin buradakı insanların, qonaqpərvərliyin və yeməklərin onda xoş təəssüratlar yaratdığını deyib. O, Parlamentlərarası İttifaqın üzvləri kimi Bakıda tədbir keçirdiklərini, parlament üzvlərinin bütün dünyanın həll etməli olduğu bir çox məsələlər haqqında, xüsusilə də parlamentlərdə qanunvericiliklə bağlı boşluqların aradan qaldırılması ilə bağlı müzakirələr apardıqlarını bildirib.

# Dünya Azərbaycandan danışır

## COP29-la yaşanan gerçəklik ölkəmizin qlobal məkana real təqdimatıdır

**Neçə gündür gozlər, könüllər Odlar yurdu Azərbaycana yönəlib. Paytaxt Bakı yenə dünyanın diqqət mərkəzindədir. Dünya ölkələrinin dövlət başçıları, mötəbər rəsmi simaları nümayəndə heyətləriylə Bakıya toplaşıb.**

Dünya mediası bəşərin gələcək taleyi, dünyamızın var olması naminə çox ümdə məsələlərin müzakirəsi aparılan mötəbər və möhtəşəm tədbirdən danışır. Gerçəkləşən bu qlobal və mühüm əhəmiyyətli tədbir BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının 29-cu Liderlər sammitidir.

Bu beynəlxalq sammitdə iqlim dəyişmələrinin qarşısının alınması, fəsadlarının aradan qaldırılması üçün birgə fəaliyyətin tənzimlənməsi kimi qlobal problemlərin müzakirəsi aparılır, bu istiqamətdə perspektiv fəaliyyət proqramı qəbul olunur. Əlbəttə, dünya xəritəsində kiçik məkan olan Azərbaycanın belə bir beynəlxalq əhəmiyyətli möhtəşəm tədbirə evsahibliyi etməsi böyük və mühüm tarixi hadisədir. Bü, ilk növbədə dövlətimizin beynəlxalq arenada təsdiqlənən nüfuzunun, artan imicinin göstəricisi kimi qürurverici amildir. Və Şimalla Cənubun, Şərqlə Qərbin qovuşuğunda yerləşən, mühüm strateji mahiyyət daşıyan Vətənimizin dünyaya təqdimatı baxımından xüsusi önəm dasıyır. Ölkəmizin coğrafi baxımdan kiçik olmasına rəğmən bütün sahələrdə sosial- iqtisadi yüksəlişi, mədəni-mənəvi tərəqqisiylə regionda lider, dünya çapında qabaqcıl dövlət olmasını ehtiva edir.

Sammitin Bakıda keçirilməsinin digər önəmli cəhəti on minlərlə sayda iştirakçının ölkəmizlə yaxından tanışlığı, tariximiz, köklü ənənələrimiz, mədəni-mənəvi dəyərlərimiz barədə məlumat toplamaları, ən əsası, tolerant bir ölkə olmasını görmək baxımından da təqdir olunmasıdır.

Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan müasir müstəqil Azərbaycan qərinədən də az zaman kəsimində əsrə bərabər tərəqqi, inkişaf yolu keçdi. İqtisadi, siyasi, sosial inkişaf tempi, mədəni-mənəvi yuksəlişiylə ölkəmiz regionun lider dövlətinə, dünyanın inkişaf etmiş ölkələri sırasına yüksəldi. Dünyaya inteqrasiya etdi, mötəbər təşkilatlarda uğurla təmsil olundu, ali kürsülərdə söz sahibi oldu, imzası imzalar sırasında yer aldı. Obrazlı desək, artıq Azərbaycan adı bir Günəş timsalına çevrilib, o, nəinki yerləşdiyi regionda parlayır, o, tanrı bəxşişi təbii resursları ilə yanaşı, siyasi gücü ilə də dünyada şəfəq saçır. Bu, Ulu Öndərin uzaqgörənliklə söylədiyi: "Vaxt gələcək Azərbaycan dünyaya Günəş kimi doğacaq" kəlamının gerçəklik ehtivasıdır.

Bu gün Azərbaycan Ümummilli Liderin müəyyənləşdirdiyi müasir inkişaf konsepsiyası ilə daha da tərəqqi edir, qüdrətlənir, dünya miqyasında misli görünməmiş uğurlara imza atır. Siyasi arenada yüksək nüfuzu ilə söz sahibinə çevrilir. 120 ölkənin təmsil olunduğu Qoşulmama Hərəkatına 4 il ardıcıl olaraq yekdilliklə sədr seçilməsi, İslam Əməkdaşlıq Təşkilatında fəal təmsil olunması, eləcə də ötən il 200 ölkənin yekdil qərarı ilə COP29-un Bakıda keçirilməsi Azərbaycanın beynəlxalq miqyasda nüfuz və qüdrətinin göstəricisidir. Bu sırada BMT Təhlükəsizlik Şurasının 30 il icrasının müşkülə dönən üç qətnaməsinin öz potensial gücü ilə yerinə yetirməsi, suverenliyini, ərazi bütövlüyünü təmin etməsi də beynəlxalq aləmdə imicinin yüksəlməsini təsdiqləyən faktlardandır.

Bütün bunlar və sadalamadığımız çox məqamlar barədə ölkə rəhbərimiz İlham Əliyev COP29 sammitinin açılış mərasimində incəliklərinəcən bəhs etdi. Ölkəmizin inkişaf strategiyasını, tərəqqi modelini, eləcə də gələcək perspektiv fəaliyyətini açıqladı. Azərbaycanın "Yaşıl dünya naminə" həmrəylik nümayiş etdirən, dəstəkləyən ölkələr sırasında olduğunu, bəşəriyyətin və dünyamızın gələcəyi naminə mühüm töhfələr verdiyini bildirərək vurguladı: "...biz "yaşıl gündəliy"ə doğru irəliləyirik. Bu, məqsədli seçimdir. Bu, bizim təkcə Azərbaycanın deyil, həm də iqlim dəyişikliyi ilə bağlı məsələlərə töhfəmizdir".

Bu istiqamətdə ölkəmizdə gerçəkləşən mühüm işlər, reallaşan tədbirlər, bəşəriyyətin narahat olduğu problemlərə Azərbaycan dövlətinin kifayət qədər həssas yanaşmasını, iqlim dəyişmələrinə qarşı qlobal fəaliyyəti dəstəkləyib "yaşıl enerji"yə keçidlə bağlı real, səmərəli işlər gördüyünü təsdiqləyir.

Ötən il ölkəmizdə Günəş-elektrik stansiyasının açılması, daha üç Günəş və külək-enerjisi stansiyasının təməlinin qoyulması, eləcə də Naxçıvan, Qarabağ və Şərqi Zəngəzur regionlarının "yaşıl enerji" zonası elan edilməsi deməyə əsas verir ki, ölkəmiz yaxın gələcəkdə nəinki karbonsuz iqtisadiyyata keçid edəcək, həmçinin "yaşıl enerji" ixracına da başlayacaq.

Bu baxımdan COP-un 29-cu sammitinin Bakıda keçirilməsi, ona ev sahibi kimi sədrlik etmək hüququnun Azərbaycana verilməsi təsadüfi qərar olmayıb. Təəssüf ki, Azərbaycanda davamlı və inamlı inkişafı qısqanan dairələr, uğurlarımızı, dövlətimizin bütün sferalarda, o cümlədən siyasi arenada artan nüfuzunu qəbul etməyən qüvvələr də yox deyil. Belələrinə ölkə başçımız reallaşan tarixi hadisənin mötəbər tribunasından layiqli cavab verdi: "Onlar əllərində olan bütün alətlərdən istifadə etdilər ki, Bakıda COP29-u boykot kampaniyası başlansın. Onlara pis xəbər var: bizim 196 ölkədən gəlmiş və qeydiyyatdan keçmiş 72 min iştirakçımız var. Onların sırasında 80 prezident, vitse-prezident və Baş nazirlər var. Beləliklə, dünya Bakıya toplaşıb və biz bütün dünyaya deyirik: Azərbaycana xoş gəlmisiz".

Bax belə, dünya Bakıya toplaşdı. Gözlər, qulaqlar bura yönəlib. Burada son dərəcə ümdə məsələlərdən, qalaktikada "yaşıl ada" olan dünyamızın var olmasından, onu əsrarəngiz edən bəşərin gələcək taleyindən bəhs olunur. Bu, hər bir azərbaycanlıya, qəlbində Azərbaycan sevgisi olanlara qürur, fəxarət yaşadır. Çünki bu tarixi hadisə dünyaya Günəş tək doğan Odlar yurdu vətənimiz Azərbaycan gerçəkliyinin təqdimatıdır və onun beynəlxalq aləmdə gücünü, qüdrətini göstərir.

***Adilə SƏFƏROVA,***
***Azərbaycan Respublikasının***
***Əməkdar mədəniyyət işçisi***

COP29 Baku Azerbaijan

RƏSMİ DÖVLƏT QƏZETİ AZƏRBAYCAN 19 noyabr 2024-cü il

# COP-ların ən mükəmməli 29-cusu oldu










## Qlobal iqlim dəyişiklikləri ilə əlaqədar elmin vəzifələri

**Dünya üzrə elmi mühit qlobal iqlim dəyişikliklərinin başvermə səbəblərindən birinin öncə antropogen faktor olduğunu qəbul etsə də, daha mühümünün qalaktikamızın, o cümlədən Yer kürəsinin hərəkət trayektoriyası və ya kosmik anomaliyalarla əlaqədar olub-olmadığının müəyyənləşdirilməsi vacibdir. Aydınlaşdırılmalıdır ki, ən azından Yer kürəsində belə bir ardıcıl kritik iqlim dəyişiklikləri nə vaxtsa baş vermişdimi? Çünki biz kainatda və məskunlaşdığımız planetdə prosesləri tam da olmasa, dəqiqləşdirməsək, qabaqlayıcı tədbirlərimizin effekti az olacaqdır.**



Bizim dağlıq zonalardakı biçənəklər üzərində apardığımız müşahidələrə əsasən, iqlim dəyişiklikləri təqribən 2000-ci ildən başlayaraq intensivləşməyə başlamışdır. Həmin zamanlarda hündürlüyü təqribən 1,2 m olan ot örtüyü builki müşahidələrə görə, artıq 15-20 sm səviyyəsinə düşmüşdür. Bəzi yerlərdə biçənəklər artıq otlaq kimi istifadə edilir. Ot kütləsinin azlığı əhalini məcbur etmişdir ki, meşə talalarını biçənək kimi istifadə etsinlər, həm də heyvanları, xüsusən iribuynuzluları meşədə otarsınlar. Bu isə birbaşa və ya dolayısı yolla talaların genişlənməsinə, meşələrin seyrəlməsinə səbəb olmuşdur. Beləliklə, sutənzimləyici rolu olan meşələr su itkisinin də baş verməsinə vəsilə olur.

Dünyada iqlim dəyişikliklərinə səbəb olan amillərdən ən başlıcası antropogen amillərdir. Bəşəriyyətin törətdiyi davamlı müharibələr, Yerin təkindən acımasızcasına istifadə, böyük şəhərlərin yaratdığı "parnik effekti", plastik, pestisid, zəhərləyici maddələrlə torpaq və suyun çirkləndirilməsi, okean və dənizlərin çirkab anbarına və atom bombaları sınaqlarının meydanına çevrilməsi təbiətin də, şübhəsiz, cavab reaksiyası verəcəyi anlamına gəlirdi. Bir çox növlər qırmızı kitablara salmağımıza baxmayraq, təbiətdə artıq müşahidə edilmir, bu fikir həm flora, həm də fauna növlərinə aiddir.

Ona görə də bəzi qabaqlayıcı tədbirlərin görülməsi vacib olduğu qədər həm də qaçılmazdır:

1. Respublikada qida zəncirinin başlanğıcı olan bitki örtüyünün qorunması, səmərəli istifadəsi və artırılması.

2. Respublikada su ehtiyatı mənbələrinin qorunması, su xətlərində itkilərin azaldılması və səmərəli istifadəsi birnömrəli məsələdir. Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 10 oktyabr 2024-cü il tarixli Sərəncamı ilə "Su ehtiyatlarından səmərəli istifadəyə dair Milli Strategiya"nın təsdiq edilməsi su probleminin vacib faktor olduğunu göstərdi. Ölkə rəhbəri tərəfindən qəbul edilən tədbirlər ardıcıl davam etdirilməklə, şübhəsiz, əhalinin firavan və sağlam yaşayışını stimullaşdıracaq, yaşıllıqların salınması işini asanlaşdıracaqdır.

3. Təbiətdəki vəziyyəti kritik statuslu olan növlərin, xüsusən birillik bitkilərin toxum materialının toplanılaraq genbanklarda saxlanılması.

4. Digər funksiyaları ilə bərabər başlıca sutənzimləyici funksiya daşıyan meşələrdəki talalarda və çaysahili seyrəlmiş tuqay meşələrində elmi surətdə yaşıllaşdırma işlərinin davam etdirilməsi, digər üstünlükləri ilə bərabər, həm də yaşıllıq sahələrinin artmasına imkan verəcəkdir.

5. Dağlıq zonada "ağıllı çöl layihələri"nə start verilərək, yağıntılar zamanı yamaclarda yaranan axıntıları üfüqi istiqamətlərə yönləndirərək, yağış sularından istifadənin effektivliliyini artırmaq.

6. Yay otlaq sahələrində fermalara verilmiş ərazilərdə normaya uyğun mal-qaranın növ sayına ciddi nəzarət edilərək otlaq sahəsinin yüklənməsinin qarşısının alınması, otarılma qaydalarına nəzarət edilməsi.

7. İri şəhərlərdə tıxacların ciddiliyini, səmərəsiz yanacaq sərfi və havanın çirkləndirilməsini nəzərə alaraq, "yaşıl işıq" xətlərinin yaradılmasına çalışılması.

8. Televiziya verilişləri ilə əhaliyə təbiətdə baş verən qlobal iqlim dəyişikliklərinin ciddiliyini başa salaraq ətraf mühitə qarşı qayğılı münasibətin artırılması.

***Tariyel TALIBOV, akademik***

## COP29 qlobal əməkdaşlıq platformasına çevrildi

**Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Bakıda keçirilən 29-cu sessiyasına (COP29) Azərbaycanın sədrlik etməsi birmənalı olaraq ölkəmizin diplomatik uğurudur. Bu uğurun əldə edilməsi uzun illər ərzində qurulmuş səmərəli diplomatik münasibətlərin, Azərbaycanın özünü etibarlı tərəfdaş kimi sübut etməsinin nəticəsidir. Adətən, COP regional qruplara aid olan böyük, inkişaf etmiş və nüfuzlu dövlətlər tərəfindən təşkil edilir. Tərəflər Konfransının növbəti sessiyasının Azərbaycanda keçirilməsi ölkəmizin nüfuzunun beynəlxalq aləmdə yüksək səviyyədə olduğunu təsdiq edən çox ciddi amildir.**

Ölkəmizin enerji resursları ilə zəngin olması və dünyada enerji resurslarının ixracatçısı kimi tanınmasına baxmayaraq, bərpa edilən enerji mənbələrindən istifadə də hər zaman diqqət mərkəzindədir. Prezident İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən enerji təhlükəsizliyi siyasətinin təməl prinsiplərindən biri də ölkəmizdə bərpaolunan enerji mənbələrindən istifadənin gücləndirilməsindən ibarətdir. Dövlətimizin başçısının dəfələrlə vurğuladığı kimi, "yaşıl enerji" növlərinin yaradılması və onun dünya bazarlarına nəqli Azərbaycanın enerji siyasətinin prioritetidir.

Azərbaycan bərpaolunan enerji mənbələri üzrə yüksək potensiala malik olan ölkələrdəndir. Belə ki, ölkəmizin bərpaolunan enerji mənbələrinin texniki potensialı quruda 135, dənizdə 157 QVt-dır. Bərpaolunan enerji mənbələrinin iqtisadi potensialı isə 27 QVt, o cümlədən külək enerjisi üzrə 3000, günəş enerjisi üzrə 23000, bioenerji potensialı 380, dağ çaylarının potensialı 520 MVt həcmində qiymətləndirilir.

Azərbaycan bərpaolunan enerji sahəsində qabaqcıl ölkələr sırasına yüksəlmək əzmindədir və bu məqsədlə zəngin külək və günəş potensialından istifadə edir. Bu, həmçinin ölkəmizin 2050-ci ilə qədər istixana qazı emissiyalarını 40 faiz azaltmaq planının mühüm tərkib hissəsidir. Ölkəmiz 2030-cu ilə qədər elektrik enerjisində bərpaolunan enerjinin qoyuluş gücü üzrə payını 30 faizə çatdırmaq və "yaşıl enerji" sahəsində lider olmaq üçün mövcud enerji sistemini şaxələndirir. Azərbaycan bu sahədə nümunəvi ölkə olaraq 1.5°C hədəfinə uyğun olaraq növbəti Milli Səviyyədə Müəyyən Edilmiş Töhfələr sənədi çərçivəsində öz milli hədəflərini yeniləyəcək.

Hazırda dünya ölkələri üçün ən aktual məsələlərdən biri "yaşıl enerji"yə keçiddir və bu, davamlı inkişafın artıq əsas şərtlərindən birinə çevrilməkdədir. Ən əsası da, iqlim böhranının aradan qaldırılmasında məhz "yaşıl enerji"dən istifadə həlledici əhəmiyyət kəsb edir, istixana qazı emissiyalarını böyük ölçüdə azaltmağa imkan verir. Ümumiyyətlə, ekoloji, iqtisadi və texnoloji amillərin birləşməsi "yaşıl enerji"yə uğurlu keçidə imkan yaradır. Amma bunun üçün müvafiq həcmdə sərmayələrin cəlb olunması əsas şərtlərdən biridir. Real mənzərənin təhlili göstərir ki, ölkələrin bir çoxunun, xüsusən də inkişaf etməkdə olanların "yaşıl enerji"yə keçidini əngəlləyən əsas faktorlardan biri məhz maliyyə, investisiya çatışmazlığıdır. Hətta inkişaf etmiş ölkələrin bir çoxunda da investisiya yetərsizliyi "yaşıl enerji"yə keçidin istənilən templə getməsini əngəlləyir. Bu səbəbdən "yaşıl enerji" siyasəti yürüdən ölkələrin diqqət mərkəzində saxlamalı olduğu məqamlardan biri müvafiq sərmayələrin cəlb olunması ilə bağlıdır. Sözügedən xüsusda uğur nümunəsi yaradan ölkələrdən biri də Azərbaycandır.

Son illər ərzində Azərbaycanda "yaşıl enerji"yə keçid prosesi olduqca dinamik xarakter alıb, bu müstəvidə çoxsaylı beynəlxalq tərəfdaşlarla yüksəksəviyyəli əməkdaşlıq münasibətləri qurulub. Ölkəmizdə bu kontekstdə xarici investisiyalar hesabına çoxsaylı bərpaolunan enerji mənbələri yaradılır və proses yüksək intensivliklə davam edir. Qeyd edək ki, ölkəmizin "yaşıl enerji" siyasətində əsas prioritetlərdən biri bu enerji infrastrukturuna investisiya qoyuluşunun artırılmasıdır. Artıq xarici investisiyalar hesabına Azərbaycanda "yaşıl enerji" istehsalında mühüm nailiyyətlər əldə olunub. Fəaliyyətini uğurla davam etdirən 230 meqavat gücündə Qaradağ Günəş-Elektrik Stansiyası bunun ən yaxşı nümunələrindən biridir. Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkəti tərəfindən inşa olunan bu stansiyaya xarici sərmayə qoyuluşu 262 milyon ABŞ dolları dəyərindədir. O, ölkəmizdə xarici investisiya cəlb edilməklə reallaşdırılan sənaye miqyaslı ilk günəş-elektrik stansiyasıdır.

Bakıda keçirilən COP29 iqlim sammiti çərçivəsində Qazaxıstan "yaşıl enerji"nin inkişafı sahəsində beynəlxalq şirkətlərlə əməkdaşlığa dair bir sıra sənədlər imzalayıb. Bu barədə Qazaxıstan Energetika Nazirliyinin məlumatında deyilir. O cümlədən energetika naziri Almasadam Satkəliyevin iştirakı ilə nazirlik ilə Asiya İnkişaf Bankı arasında anlaşma memorandumu imzalanıb. Sənəd AİB ekspertləri tərəfindən hazırlanmış Enerji Keçid Mexanizmi vasitəsilə karbon neytrallığı məqsədlərinə nail olmaq üzrə əməkdaşlığı nəzərdə tutur. Enerji Keçid Mexanizmi enerji səmərəliliyinin artırılması, elektrik və istilik enerjisi istehsalında yeni texnologiyaların tətbiqi üzrə addımları əhatə edir. İmzalanan sənədlərə həmçinin Çin hökuməti ilə bərpaolunan enerji mənbələri sahəsində layihələrin həyata keçirilməsinə dair saziş də daxildir. Bu da qlobal istiləşməyə qarşı mübarizə, ekoloji cəhətdən təmiz texnologiyalara keçid və tullantıların azaldılması sahəsində əməkdaşlığı nəzərdə tutur. Həmin layihələrə investisiyanın həcminin 2 milyard dollardan çox olacağı gözlənilir. "Abu Dhabi Future Energy Company" ilə Qazaxıstanın Cambul vilayətində külək-elektrik stansiyası layihəsi üçün də investisiya sazişi bağlanıb. Bu layihə üçün gözlənilən investisiya məbləği 1,5 milyard dollar olacaq.

COP29 çərçivəsində "SOCAR Green" MMC, Birləşmiş Ərəb Əmirliklərinin Masdar şirkəti, Avropa Yenidənqurma və İnkişaf Bankı (EBRD), Asiya İnkişaf Bankı (ADB) və Asiya İnfrastruktur və İnvestisiya Bankı (AIIB) arasında Azərbaycanda iki günəş enerjisi layihəsinin maliyyələşdirilməsi üzrə sənədlər imzalanıb. EBRD, ADB və AIIB tərəfindən maliyyələşdiriləcək 445 MVt-lıq Biləsuvar və 315 MVt-lıq Neftçala günəş enerjisi layihələrinin ümumi dəyərinin 670 milyon ABŞ dolları təşkil edəcəyi gözlənilir.

2027-ci ildə istismara veriləcək stansiyalarda illik təxminən 1.7 milyard kilovat-saatdan çox "yaşıl enerji" istehsalı proqnozlaşdırılır ki, bu da illik 380 milyon kubmetr həcmində təbii qaza qənaət, eyni zamanda atmosferə atılan karbon emissiyasının 830 min ton azaldılması deməkdir.

Azərbaycanın energetika naziri qeyd edib ki, "760 MVt gücündə günəş-elektrik stansiyalarının maliyyələşdirilməsi üzrə yekun razılaşma, Azərbaycanın bərpaolunan enerji sektorundakı hədəflərinə çatmaq yolunda əlamətdar bir nailiyyətdir. Bu razılaşma Azərbaycanın "Masdar" şirkəti ilə uğurlu tərəfdaşlığını və investorların, beynəlxalq maliyyə qurumlarının ölkəmizə olan etimadını nümayiş etdirir. Günəş-elektrik stansiyaları ölkəmizin enerji keçidini sürətləndirmək, karbon emissiyalarını azaltmaq və "yaşıl enerji" ölkəsi olmaq məqsədinə mühüm töhfə verəcək".

Masdar şirkətinin icraçı direktoru Məhəmməd Cəmil əl-Rəmahi isə bildirib: "Azərbaycanda bu iki böyük günəş enerjisi layihəsinin maliyyələşdirilməsi ilə bağlı müqavilələr imzalamaqdan çox məmnunuq. Bu, Qaradağdakı ölkənin ən böyük günəş-elektrik stansiyasının tamamlanmasından sonra mühüm bir addımdır. Azərbaycan bazarı bizim üçün strateji əhəmiyyət daşıyır və ölkənin ambisiyalı təmiz enerji hədəflərinə çatmasını dəstəkləməyə sadiqik".

Hazırda Qarabağın, Şərqi Zəngəzurun və Naxçıvanın "yaşıl enerji" zonalarına çevirilməsi istiqamətində ölkəmizdə genişmiqyaslı fəaliyyət həyata keçirilir. Bu istiqamətdə xarici tərəfdaşlarla, o cümlədən Böyük Britaniyanın BP, Səudiyyə Ərəbistanının "ACWA Power", Avstraliyanın "Fortescue Future Industries", Yaponiyanın "TEPSCO", İtaliyanın "Maire Tecnimont", Çinin "China Gezhouba Group Overseas Investment", Fransanın "Total Energies" və digər xarici şirkətlərlə bərpaolunan enerji istehsalı ilə bağlı müqavilələr imzalanıb, birgə işbirliyi həyata keçirilir. Həmin şirkətlərin investisiyası hesabına yeni bərpaolunan enerji mənbələrinin yaradılması üçün genişmiqyaslı fəaliyyət həyata keçirilir. Bunlara paralel olaraq, Dünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı, Asiya İnkişaf Bankı kimi beynəlxalq maliyyə təşkilatlarının dəstəyi ilə bərpaolunan enerji istehsalı sahəsində müvafiq layihələr reallaşdırılır.

Ölkəmizin "yaşıl enerji"yə keçidlə bağlı gördüyü işlər, əldə etdiyi nailiyyətlər artıq investorlara təqdim olunub. COP29 Azərbaycan qarşısında yeni investisiyaların cəlbi üçün də əlavə imkanlar açır. Xarici investorları cəlb edən hal təkcə ölkəmizdə yaradılan əlverişli sərmayə mühiti deyil, Azərbaycanın yaxın tezlikdə "yaşıl enerji"nin mühüm ixracatçısına çevriləcəyi, həmçinin digər mənbələrdən bu enerji növünün nəqlində tranzit əhəmiyyətidir.

Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında saziş imzalanıb. Artıq müvafiq layihənin texniki-iqtisadi əsaslandırılması başa çatıb. Buna paralel olaraq, Xəzər-Qara dəniz-Avropa Yaşıl Enerji Dəhlizi yaradılır. Azərbaycan, Qazaxıstan və Özbəkistan texniki şərtlərin hazırlanması və daha sonra Mərkəzi Asiyadan "yaşıl enerji"nin ölkəmizdən keçməklə Avropaya ixracı üçün birgə müəssisənin yaradılması barədə razılığa gəliblər. Tezliklə Qafqaz regionu və Mərkəzi Asiyanın enerji sistemlərini sualtı kabel vasitəsilə əlaqələndirən layihənin texniki-iqtisadi əsaslandırma prosesinə başlanacaq. Bütün bunlar xarici, o cümlədən Qərbdən olan investorlar üçün olduqca cəlbedicidir.

COP29 çərçivəsində Xəzər-Qara dəniz-Avropa Yaşıl Enerji Dəhlizi ilə bağlı da böyük bir təqdimatın olması gözlənilir.

Beləliklə, Azərbaycanın "yaşıl enerji" sferasında gördüyü işlər, həyata keçirdiyi fəaliyyət COP29 zamanı dünya ictimaiyyətinə, o cümlədən də xarici investorlara təqdim ediləcək ki, bu da ölkəmizə yeni sərmayə axınını təmin edəcək.

Bununla da COP29 Azərbaycana əlavə dividendlər qazandıracaq. İftixarla deyə bilərik ki, Azərbaycan, Qazaxıstan və Özbəkistan prezidentlərinin iştirakı ilə Azərbaycan, Qazaxıstan, Özbəkistan, Səudiyyə Ərəbistanı Krallığı arasında "Yaşıl enerjinin inkişafı və ötürülməsi sahəsində əməkdaşlıq üzrə Azərbaycan Respublikasının, Qazaxıstan Respublikasının, Özbəkistan Respublikasının və Səudiyyə Ərəbistanı Krallığının Energetika nazirlikləri arasında İcra Proqramı" imzalanıb.

Dünya təcrübəsi göstərir ki, bərpaolunan enerji sektoru istehsal, quraşdırma, texniki xidmət və tədqiqat imkanları ilə artıq dünyada milyonlarla iş yeri yaradıb. Bu da o deməkdir ki, bərpaolunan enerji sektoru qarşıdakı dövrdə Azərbaycanda məşğulluq səviyyəsinin yüksəlməsinə mühüm töhfələr verəcək. Ölkəmizdə "yaşıl infrastruktur"a yerli və xarici mənbələr hesabına investisiyaların bundan sonra da əhəmiyyətli artımı gözlənilir və qeyd edilən istiqamətdə COP29 ölkəmiz üçün yeni imkanlar açır.

***Elşən QƏNİYEV, "Azərbaycan"***









COP29 Baku Azerbaijan

# COP29: keçmişdən gələcəyə şanlı keçid





# İqlim dayanıqlılığı üçün insan inkişafı üzrə Bakı Təşəbbüsünə dair yüksəksəviyyəli iclas keçirilib

**Noyabrın 18-də COP29 çərçivəsində Elm və Təhsil Nazirliyinin təşkilatçılığı, COP29 Sədrliyi, UNESCO, Ümumdünya Səhiyyə Təşkilatı, Beynəlxalq Əmək Təşkilatı, UNICEF, Asiya İnkişaf Bankı və Yaşıl İqlim Fondunun dəstəyi ilə iqlim dayanıqlılığı üçün insan inkişafı üzrə Bakı Təşəbbüsünə dair yüksəksəviyyəli iclas keçirilib.**

AZƏRTAC xəbər verir ki, birgə iclasın əsas məqsədi insan inkişafına investisiya qoyulmasının iqlim dayanıqlılığının təmin edilməsində mühüm əhəmiyyətini vurğulamaq olub.

BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi Vladanka Andreyeva bildirib ki, ilk dəfə olaraq COP Sədrliyi çərçivəsində ev sahibi ölkənin təşəbbüsü ilə İnsan İnkişafı Günü müəyyən edilib.

Tədbirin açılışında çıxış edən COP29-un baş danışıqçısı, xarici işlər nazirinin müavini Yalçın Rəfiyev bildirib ki, qlobal iqlim probleminin ən kritik və bir-biri ilə əlaqəli olan aspektlərindən sayılan insan inkişafı təhsil, səhiyyə, sosial müdafiə, bacarıqlar və məşğulluq kimi sahələri əhatə edir. Yalçın Rəfiyev iqlim dəyişikliyinin həyatımızın hər tərəfinə - sağlamlığa, təhsilə, əmək bazarına və ən əsası gələcək nəsillər üçün mövcud olan imkanlara təsir göstərdiyini qeyd edib. Onun sözlərinə görə, qlobal istiləşmə ilə bağlı çağırışlara cavab vermək üçün insan inkişafına sərmayə qoyulmalıdır və bu investisiya həyatın ən erkən mərhələlərində başlamalıdır ki, uşaqların və gənclərin təhsil, səhiyyə və bacarıqların inkişafı yolu ilə güclənməsi təmin edilsin. Bu investisiya təkcə dayanıqlılığa aid deyil, həm də iqlim dəyişikliyinin təsirlərinin azaldılması səylərini əhatə etməlidir.

Yalçın Rəfiyev iqlim dayanıqlılığı üçün insan inkişafı üzrə Bakı Təşəbbüsündən danışaraq bildirib ki, bu təşəbbüs insanayönümlü iqlim fəaliyyətinə sadiqliyimizin təbii davamıdır: "Təşəbbüs sektorlar üzrə qlobal əməkdaşlığı gücləndirəcək, investisiyaları səfərbər edəcək və insan inkişafının iqlim strategiyamızın əsas sütunu olmasını təmin edəcək çoxşaxəli və vahid yanaşma tələb edir. Bakı Təşəbbüsünün mərkəzində insan inkişafı və iqlim fəaliyyətinin ayrı-ayrı məqsədlər deyil, bir-birini gücləndirən məqsədlər olduğuna inam dayanır. Təşəbbüsün digər məqamı isə ekoloji savadlılığın təhsilin əsas məqsədinə çevrilməsini təmin etmək üçün qlobal əməkdaşlığı inkişaf etdirməkdir".

Yalçın Rəfiyev iqlim dayanıqlılığı üçün insan inkişafı üzrə Bakı Rəhbər Prinsiplərini elan edib. O bildirib ki, bu prinsiplər iqlim strategiyalarında insan inkişafı üzrə fəaliyyətin istiqamətləndirilməsi üçün əsas rol oynayacaq, iqlimlə bağlı fəaliyyətin əsas hərəkətvericiləri kimi bu sahələrdə inteqrasiya olunmuş yanaşmanı təşviq edəcək.

Birgə iclasın əsas mövzularından biri olan iqlim dayanıqlılığının təmin edilməsində təhsilin rolu çərçivəsində aparılan müzakirələrdə gələcək nəsillərin iqlim problemləri ilə mübarizə üçün zəruri bilik və bacarıqlarla təmin edilməsi məqsədilə "İqlim dostu" tədris proqramlarının hazırlanmasının vacibliyi qeyd edilib.

Elm və təhsil naziri Emin Əmrullayev bildirib ki, dayanıqlı cəmiyyət fərdlərin ətraf mühit çağırışları qarşısında uyğunlaşması üçün lazımi bilik, bacarıq və dəstək sistemləri ilə təmin edilməsidir. Nazir qeyd edib ki, Bakı Təşəbbüsü gəncləri iqlim dəyişiklikləri ilə mübarizədə davamlı tədbirlərin fəal iştirakçıları kimi gücləndirməyi hədəfləyir.

Emin Əmrullayev tədbir çərçivəsində Azərbaycan Beynəlxalq Şagird Qiymətləndirmə Proqramı (PISA) vasitəsilə ətraf mühit savadlılığı ilə bağlı biliklərin ölçülməsini təklif edib. Bu təşəbbüs Azərbaycanın qlobal iqlim təhsili standartlarına dəstəyinin göstəricisi kimi qiymətləndirilib.

Birgə iclasda, həmçinin məktəblərdə iqlim şüurunun artırılması, müəllimlərin bu sahədə hazırlanması, iqlim dayanıqlı təhsil sistemlərinin qurulması kimi məsələlər müzakirə edilib. Bununla yanaşı, tələbələrin yaşıl iqtisadiyyat üçün zəruri bacarıqlara yiyələnməsi məqsədilə strateji yanaşmalar təqdim olunub.

Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev çıxışında bildirib ki, nazirliyin əsas prioritetlərindən biri işçi qüvvəsinin bacarıqlarının əmək bazarının dəyişən tələblərinə uyğun davamlı inkişafına nail olmaqdır. Nazir moderatorun - "LinkedIn"in davamlılıq və işçi qüvvəsi siyasətinin rəhbəri Efrem Bayserin işçi qüvvəsinin əmək bazarının ehtiyaclarına uyğun bacarıqlara yiyələnməsi, habelə "yaşıl bacarıqlar"ın inkişaf etdirilməsi sahəsində görülən işlərə dair suallarını cavablandırıb.

Sahil Babayev qeyd edib ki, 2021-2024-cü illər ərzində nazirliyin tabeliyindəki Dövlət Məşğulluq Agentliyinin sifarişi ilə ümumilikdə 1600 peşə təlimi kursu təşkil edilib. Nazir növbəti illərdə bu sahədə peşə təhsili mərkəzləri, dövlət və özəl tədris müəssisələri ilə əməkdaşlıq şəbəkəsinin daha da genişləndiriləcəyini diqqətə çatdırıb.

Panel müzakirələrində, həmçinin İtaliya, Niderland, Böyük Britaniya, Braziliya və digər ölkələrdən qurum rəsmiləri, beynəlxalq təşkilatların nümayəndələri fikirlərini ifadə ediblər.

# COP29-da Fransanın nüvə sınaqlarının mənfi təsirlərinə görə təzminat ödəməsi tələbi ilə aksiya keçirilib

**BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) çərçivəsində dekolonizasiya və yaşıl gələcəyə həsr edilmiş konfransın iştirakçıları Mavi Zonada aksiya keçiriblər.**

AZƏRTAC xəbər verir ki, Bakı Təşəbbüs Qrupu (BTQ) tərəfindən keçirilmiş "Dekolonizasiya və yaşıl gələcək naminə həmrəylik" adlı aksiyanın iştirakçıları - Afrikanın Mali, Keniya, Konqo Demokratik Respublikası, Nigeriya, Cibuti, Toqo, Mavritaniya, Zimbabve, Zambiya və Kamerundan olan deputatlar, qeyri-hökumət təşkilatlarının rəhbərləri, siyasətçilər, ekofəallar, hüquq müdafiəçiləri öz ölkələrindəki acınacaqlı ekoloji vəziyyətlə bağlı məlumat verib, ekoloji çağırış ediblər.

Aksiyada Fransanın həyata keçirdiyi nüvə sınaqlarının ətraf mühitə, yerli əhalinin sağlamlığına və geosiyasi dinamikaya ciddi və davamlı mənfi nəticələri nümayiş olunub. Bildirilib ki, Fransanın 1960-cı illərdə Afrikada, xüsusilə Əlcəzairdə həyata keçirdiyi nüvə sınaqları ətraf mühitə, yerli əhalinin sağlamlığına və geosiyasi dinamikaya ciddi və ağır təsirlər göstərib. "Soyuq müharibə" və Fransanın müstəqil nüvə gücü əldə etmək istəyi fonunda həyata keçirilən bu sınaqlar həyata keçirildiyi bölgələrdə zəhərli miras qoyub. Fransanın Afrikadakı nüvə sınaqları torpağın, havanın və yeraltı suların kütləvi şəkildə radioaktiv çirklənməsinə səbəb olub. Fransanın 1960-1966-cı illərdə Əlcəzairdə, Böyük Səhranın mərkəzində yerləşən Reqqane və In Ekker bölgələrində 17 nüvə sınağı keçirdiyi, onların atmosferə xeyli miqdarda radioaktiv hissəciklər buraxaraq ətrafdakı ekosistemi çirkləndirdiyi, bu əraziləri yaşayış və kənd təsərrüfatı üçün yararsız hala saldığı




qeyd edilib. Həmçinin nüvə sınaqlarının aparıldığı ərazilərin yaxınlığında yaşayan icmalar çox vaxt məlumatlandırılmadığını və qorunmadığı üçün birbaşa radioaktivliyə məruz qaldığı, minlərlə insanın xərçəng, anadangəlmə qüsurlar və tənəffüs xəstəlikləri də daxil olmaqla çirklənmə ilə əlaqədar xəstəliklərə yoluxduğu vurğulanıb. Sınaq meydançalarında işləyən, çox vaxt adekvat qoruyucu vasitələri olmayan yerli işçilərin uzun müddət təhlükəli radiasiya dozasına məruz qaldıqları diqqətə çatdırılıb.

Bildirilib ki, nüvə sınaqları ətraf mühitə və əhaliyə təsirləri məhdudlaşdırmaq üçün kifayət qədər ehtiyat tədbirləri görülmədən həyata keçirilib. Sınaqlardan sonra radioaktiv materiallar, çirklənmiş avadanlıqlar və nüvə tullantıları təhlükəsizlik standartlarına riayət olunmadan ətrafda qalıb və ya düzgün basdırılmayıb. Bu məsuliyyətsiz idarəetmə radioaktiv çirklənmənin xeyli məsafəyə yayılmasına təkan verib. Bu sınaqların təsirləri Fransa tərəfindən rəsmi olaraq tanınmayıb və yerli əhali hələ də rəsmi üzrxahlıq və təzminat gözləyir. Nüvə sınaqlarının təsirinə məruz qalan bölgələrdə doğulmuş uşaqlar radiasiyanın təsirindən, radiasiyanın törətdiyi qüsurlardan və xroniki sağlamlıq problemlərindən əziyyət çəkirlər. Afrikada nüvə sınaqlarından sağ çıxanlar, eləcə də QHT-lər və yerli birliklər uzun müddət Fransadan tanınma və təzminat tələb ediblər.

Qeyd olunub ki, Fransa Afrikadakı nüvə sınaqlarının, işğal etdiyi ərazilərdə hərbi fəaliyyətlərinin ağır nəticələrinə görə məsuliyyət daşıyır. Fransa bu sınaqlardan təsirlənən əhali qarşısında mənəvi məsuliyyət daşıyır.

Bu ölkənin Afrikadakı nüvə sınaqları Fransa ilə onun keçmiş müstəmləkələri arasında münasibətlərin tarixində qaranlıq səhifədir. Bu fəaliyyətlərin nəticələri yerli əhaliyə və təsirə məruz qalmış rayonların ətraf mühitinə təsir etməkdə davam edir. Bu zəhərli irslə üzləşən xalqlarla beynəlxalq həmrəylik vurulan zərərin rəsmi şəkildə tanınması və bu sınaqların təsirlərini aradan qaldırmaq üçün səylərin artırılması keçmişdəki ədalətsizlikləri aradan qaldırmaq və daha ədalətli gələcəyə doğru irəliləmək üçün vacibdir.

Aksiya zamanı Fransanın nüvə sınaqlarının mənfi təsirlərini əks etdirən fotolardan ibarət sərgi nümayiş olunub.

COP29 Baku Azerbaijan

# Azərbaycanın "yaşıl təşəbbüsləri"nə qlobal dəstək

## "İlham Əliyev bəşəriyyətin gələcəyi ilə bağlı önəmli təşəbbüslər irəli sürür"

### COP29 çərçivəsində "Həmkarlar ittifaqları üçün strateji gün" mövzusunda tədbir keçirilib









**BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) çərçivəsində noyabrın 17-də Bakıda Beynəlxalq Həmkarlar İttifaqları Konfederasiyasının (BHİK) təşəbbüsü, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının (AHİK) təşkilatçılığı ilə tədbir keçirilib.**

"Həmkarlar ittifaqları üçün strateji gün" mövzusunda keçirilən tədbirdə Azərbaycanın evsahibliyi etdiyi COP29-da iştirak edən müxtəlif ölkələrin həmkarlar ittifaqlarının nümayəndələri iştirak ediblər.

BHİK-nın Baş katibi Luk Trianql iştirakçılara tədbirin məqsədi və mövzusu barədə məlumat verib, əhəmiyyətindən söz açıb. O həmçinin COP29-un nümunəvi təşkilindən və gedişindən məmnunluğunu ifadə edib, aparılan müzakirələrin və nəticənin iqlim dəyişmələrinin fəsadları ilə mübarizədə faydalı olacağını bildirib.

Tədbirdə çıxış edən Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri Sahib Məmmədov ölkəmizdə keçirilən COP29-dan bəhs edib. Bildirib ki, məsuliyyətli ölkə olan Azərbaycan hər zaman qlobal problemlərə həssas yanaşır, dövlət başçısı İlham Əliyev bəşəriyyətin gələcəyi ilə bağlı önəmli təşəbbüslər irəli sürür. O bildirmişdir ki, Azərbaycan bu mötəbər beynəlxalq tədbiri - COP29-u yüksək səviyyədə təşkil edib, bu çərçivədə bütün işlər sistemli aparılır. Azərbaycanın "yaşıl gündəliy"indən danışan konfederasiya sədri iqlim dəyişmələri ilə mübarizədə həmkarlar ittifaqlarının üzərinə düşən vəzifələri xatırladıb, bu istiqamətdə həmrəyliyin və əməkdaşlığın önəminə diqqət çəkib. Qeyd edib ki, COP29 işçilərin hüquqlarının və sosial ədalətin müdafiəsi, iş şəraitinin yaxşılaşdırılması kimi aktual məsələlərin müzakirəsi üçün də unikal platformadır.

Vurğulanıb ki, hazırda həmkarlar ittifaqları istehsal proseslərində dəyişikliklər, "yaşıl texnologiyalar" və bərpaolunan enerji mənbələrinə keçidlə bağlı qərarların qəbulu proseslərində iştirak edirlər. Bugünkü tədbir yeni təşəbbüslərin, birgə layihələrin başlanğıc nöqtəsinə çevriləcək, səslənən fikir və təkliflər gələcək fəaliyyətlər üçün əsas olacaq.

Sonra COP29-un ilk həftəsində keçirilən tədbir və aparılan müzakirələr, həmkarlar ittifaqlarının bu prosesdə iştirakı, həmçinin COP29-un ikinci həftəsinin prioritetləri nəzərdən keçirilib, milli səviyyədə müəyyən edilən töhfələrlə bağlı fikirlər səsləndirilib.

BHİK-nın Qlobal iqlim siyasəti üzrə koordinatoru Bert De Vel dünyanı narahat edən məqamlardan biri kimi iqlim dəyişmələri ilə mübarizənin önəmini qeyd edib. Bildirib ki, bu sahədə fəaliyyət göstərən təcrübəli iqtisadçı kimi problemin mahiyyətinin daha ciddi olmasının fərqindədir. O, COP29 çərçivəsində aparılan danışıqlar, müzakirə olunan məsələlər və prioritetlər barədə də fikirlərini bölüşüb.

Eləcə də tədbirdə tematik sessiyalar keçirilib, iqlim dəyişikliyi ilə mübarizəyə maliyyə vəsaitinin cəlb edilməsinin vacibliyi, İqlim Maliyyəsi üzrə Yeni Kollektiv Kəmiyyət Məqsədinin razılaşdırılması vurğulanıb, əmək hüquqları sahəsində ortaya çıxan tendensiyaların müzakirəsi aparılıb, bu istiqamətdə çətinliklər və gələcək çağırışlar qeyd olunub.

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***














## Azərbaycanın COP29-da bəşəriyyətin xilasına verdiyi daha bir böyük töhfə

**Dünyanın inkişaf tarixinə nəzər yetirdikdə bu gün qarşılaşdığımız ekoloji problemlərin kökündə insan amilinin olduğunu görməmək mümkün deyil. Sənayenin təşəkkül tapdığı ilk illərdən bu günədək insan daha çox gəlir əldə etmək üçün təbiətə qənim kəsilib və nəticədə öz gələcəyi ilə birlikdə bəşəriyyətin mövcudluğunu sual altına qoyub.**

Əvvəllər bu barədə ekoloqlar, elm adamları həyəcan təbili çalsalar da, siyasətçilər, dövlətləri idarə edənlər buna o qədər də əhəmiyyət vermirdilər. Ancaq problem bütün ciddiliyi ilə məlum olandan sonra vəzifəsindən, mövqeyindən, səlahiyyətindən asılı olmayaraq hər kəs anladı ki, təbiətə qarşı bu qədər amansız davranmağın sonu faciə, fəlakətdir. Ona görə də bu, bir ölkənin və ya bir qitənin deyil, ümumbəşəri problemdir və onu həll etmək lazımdır.

Amma iş bu gün elə bir həddə gəlib çatıb ki, bunun üçün külli miqdarda vəsait lazımdır. Mütəxəssislərin hesablamalarına görə, 1,5 emissiyaya nail olmaq üçün 2050-ci ilə qədər trilyonlarla dollar vəsait lazım olacaq. Amma mütəxəssislər onu da hesablayıblar ki, dünyanın bir çox ölkəsi, xüsusən Afrika dövlətləri bu vəsaitin qarşısında acizdirlər. Deməli, yük inkişaf etmiş ölkələrin çiyinlərinə düşməlidir.

Azərbaycanda keçirilən COP29-un da əsas məqsədi bu məsələni həll etməkdir. Ölkəmiz bu möhtəşəm tədbirə qədər BMT-nin nümayəndələrinin iştirakı ilə dünyanın müxtəlif ölkələri ilə səmərəli danışıqlar aparıb. Artıq demək olar ki, həmin danışıqlar nəticəsiz qalmayıb. Danışıqlar prosesində bu günədək Paris Sazişinin 6.4-cü maddəsi, habelə çoxtərəfli maliyyə institutları tərəfindən illik əsasda iqlim maliyyəsi öhdəliyinin 75 milyard dollardan 170 milyard dollara qədər artırılması üzrə razılıq əldə edilib (Sözsüz ki, maliyyə vəsaitinin birdənbirə belə rekord məbləğdə artırılması Azərbaycanın hünəri ilə mümkün olmuşdur).

Bu barədə xarici işlər naziri Ceyhun Bayramov BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasında (COP29) iştirak məqsədilə ölkəmizdə səfərdə olan Norveç Krallığının beynəlxalq inkişaf naziri Anne Beate Tvinreym ilə görüşündə məlumat verib. Nazirliyin Mətbuat xidmətindən verilən məlumata görə, görüşdə Azərbaycan və Norveç arasında əməkdaşlığın perspektivləri, o cümlədən ölkəmizin COP29 sədrliyindən irəli gələn məsələlər, eləcə də regional vəziyyətlə bağlı digər məsələlər müzakirə olunub.

Sözsüz ki, dünyanın inkişaf etmiş ölkələrinin ekoloji problemlərin aradan qaldırılmasına göstərəcəyi münasibət mühüm əhəmiyyət kəsb edir. ABŞ Prezidentinin iqlim üzrə xüsusi nümayəndəsinin müavini Syu Biniaz "Qlobal iqlim şəffaflığı üzrə nazirlərin "dəyirmi masa"sında bildirib ki, ölkəsi Paris Sazişi çərçivəsində hesabatlılıq üzrə öhdəliklərini bu ilin sonuna qədər yerinə yetirəcək. Tədbirdəki çıxışında Syu Biniaz qeyd edib ki, ABŞ şəffaflıq sahəsində ölkələrin inkişafını fəal şəkildə dəstəkləyir. O, istixana qazları inventarizasiyasının yaradılması və təkmilləşdirilməsi, həmçinin hesabatların hazırlanmasına yardım göstərildiyini bildirib. Cari ildə ABŞ 19 ölkə ilə əməkdaşlıq edərək hesabatların hazırlanması üçün texniki dəstək göstərib və 17 Afrika ölkəsi üçün seminarlar təşkil edib.

Dünya qarşısında duran əsas məsələ iqlim maliyyəsini yaratmaqla 1,5 emissiyaya nail olmaqdır. COP29-un əsas hədəfi budur və həmin məqsədə çatmaq üçün maliyyə təminatı yaradılmalıdır. Bu möhtəşəm tədbirdə ölkəmizin iqlim maliyyəsi üçün yığılan vəsaitin 75 milyard dollardan 170 milyard dollara qədər artırması təqdirəlayiq nəticədir. Bu, Azərbaycanın COP29-da bəşəriyyətin xilasına verdiyi daha bir böyük töhfədir.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

## Naftalanda da təmiz ekoloji mühitin yaradılmasına diqqətlə yanaşılır

**Naftalanda şəhər icra hakimiyyətinin təşkilatçılığı ilə "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində növbəti tədbir keçirilmişdir.**



Tədbirdə şəhər icra hakimiyyətinin, Ekologiya və Təbii Sərvətlər Nazirliyi 10 saylı Regional Ekologiya və Təbii Sərvətlər İdarəsinin əməkdaşları, şəhər bələdiyyəsinin üzvləri, idarə, müəssisə, təşkilat rəhbərləri, eləcə də həkimlər və ziyalılar iştirak etmişlər.

Çıxış edənlər ölkəmizdə ətraf mühitin mühafizəsinin, yaşıllıqların artırılmasının, sağlam ekoloji mühitin yaradılmasının prioritet məsələ olduğunu qeyd etmiş və diqqətə çatdırmışlar ki, bu gün də dövlətimiz tərəfindən ekoloji sahədə mühüm işlər görülür. Buna misal olaraq iqlim dəyişikliyi ilə bağlı Bakıda keçirilən COP29-u misal çəkən iştirakçılar bildirmişlər ki, Azərbaycan dünyada gedən iqlim dəyişikliyi proseslərinə ən həssas yanaşan azsaylı ölkələrdən biridir. Azərbaycanın 2030-cu ilədək sosial-iqtisadi inkişafa dair milli prioritetlərindən birinin "Təmiz ətraf mühit və yaşıl artım ölkəsi" kimi müəyyən edilməsinin mühüm əhəmiyyətindən danışan iştirakçılar COP29 kimi mötəbər tədbirə Azərbaycanın evsahibliyi etməsinin ölkəmizə göstərilən yüksək etimadın və inamın növbəti təzahürü kimi dəyərləndirmişlər.

Çıxışlarda həmçinin "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində Naftalan şəhərində də çoxsaylı işlərin həyata keçirildiyi diqqətə çatdırılmış və bu istiqamətdə müzakirələr aparılmışdır.

Tədbir ekologiya ilə bağlı bukletlərin paylanması ilə başa çatmışdır.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***









COP29 Baku Azerbaijan

## Beynəlxalq media COP29-dan yazır

# "Yaşıl dünyanın güclü carçısı"

**Azərbaycanda BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) öz işini davam etdirir. Bu mötəbər konfransın Bakıda keçirilməsi Azərbaycan üçün çox mühüm hadisədir.**

Konfransın məqsədi iqlim dəyişmələri ilə mübarizə aparmaq, onun təsirlərini azaltmaq, iqlim dəyişmələrinə uyğunlaşmaq, maliyyə məsələlərini müzakirə etmək və ölkələrin üzərinə düşən öhdəliklərin yerinə yetirilməsini təmin etməkdir. Bakıda keçirilən COP29 dünya mediasının gündəmində əsas müzakirə mövzularından biri kimi qalmaqda davam edir.

Böyük Britaniyanın nüfuzlu **"Telegraph" qəzetində** yayımlanan məqalə Bakı ilə Barselonanın müqayisəsinin aparılması ilə başlayır: "Kənara çəkil, Barselona - Bakı kafe mədəniyyəti, çimərlikləri və əla şərabı ilə gözlədiyinizdən daha artığını təklif edir".

Yazıda Avropanın ən məşhur şəhərlərinin turistlər üçün cəlbediciliyi azaldıqca nisbətən uzaqda yerləşən şəhərlərə marağın artdığı diqqətə çatdırılıb. Müəllif Anna Selbi tərəfindən tarixi İpək yolunun üzərində, Xəzərin sahilində yerləşən Bakı şəhərinin qədim İçərişəhəri və buradakı karvansaralar, təhlükəsiz küçələr, gözəl memarlıq abidələri, əla restoranlar, asanlıqla gedilə bilən ətraf kəndlər dəniz kənarı ilə turistlərə gözəl istirahət imkanı bəxş etdiyi vurğulanıb.

Məqalədə İçərişəhərdən ətraflı bəhs olunub, daş döşənmiş dar küçələr, kiçik həyətlər, UNESCO-nun Ümumdünya Mədəni İrs siyahısına salınan "memarlıq incisi" Şirvanşahlar sarayı, buradakı məqbərə, hamam, sərdabələr, qədim məscid və digər tarixi tikililər və Bakının rəmzi hesab olunan Qız qalası haqqında ətraflı söhbət açılıb.

**"The World of Fine Wine" jurnalında** dərc olunan məqalədə isə xüsusilə 2000-ci illərdən etibarən ölkədə şərabçılıq sənayesinin dirçəldilməsinə və inkişafına xüsusi diqqət yetirildiyi, son bir neçə ildə bu istiqamətdə böyük inkişafa nail olunduğu vurğulanıb. Diqqətə çatdırılıb ki, burada inkişaf prosesi dəqiq və düşünülmüş şəkildə icra edilib, üzüm bağları, üzüm sortları torpağın və iqlimin xüsusiyyətlərinə görə diqqətlə seçilib. İnkişaf etməkdə olan daxili auditoriyanı, həm də geniş bazarları təmin etmək üçün ardıcıllığa, keyfiyyətə yüksək həssaslıqla diqqət yetirilməsi Azərbaycan şərabının şöhrət tapmasında mühüm rol oynayır.

Yazıda Azərbaycanın şərabçılıq sənayesində istifadə olunan üzüm sortları, onların xüsusiyyətləri, yetişdirilməsi qaydaları, şərabçılıq regionları haqqında ətraflı söhbət açılıb. Bu xüsusda Azərbaycanın üç ən iri şərab istehsalçısının Şamaxı rayonunda Böyük Qafqaz dağlarının cənub ətəklərində yerləşdiyi qeyd edilib. Burada fransız və italyan sortları ilə yanaşı, "Savalan", "Meysəri", "Mədrəsə", "Sədəf", "İnnabı", "Bayanşirə", "Chabiant" və digər üzüm sortlarının yetişdirildiyi bildirilib, onların hər biri haqqında ətraflı məlumat verilib. Azərbaycan Üzümçülük və Şərabçılıq Elmi-Tədqiqat İnstitutunda 350-400 yerli üzüm sortunun tədqiq edildiyi, ölkədə üzümçülüyün inkişafı məqsədilə yeni DNT fəaliyyətinin aparıldığı vurğulanıb. Qeyd edilib ki, şərab istehsalçıları yaxın vaxtlarda çoxlu yeni yerli üzüm sortlarına sahib olacaqlar. Müəllif uzun fasilədən sonra 20 il əvvəl dirçəldilən Azərbaycan şərabçılığının özünü dünyanın ən yeni mərkəzlərindən biri kimi tanıtmağa başladığını xüsusi qeyd edib.

Məqalədə Azərbaycanda şərabçılıq turizminin də inkişaf etdiyi vurğulanaraq, Bakının kosmopolit şəhər olduğu, Barselona və İstanbul şəhərlərinin ruhunun burada vəhdət təşkil etdiyi, şəhərin qala divarlarının uzandığı Orta əsrlər dövrünə aid mərkəzi hissəsinin yüksək səviyyədə bərpa olunduğu diqqətə çatdırılıb. Qeyd olunub ki, Bakı həm də Azərbaycanın şərab zavodlarını kəşf etmək üçün əla mərkəzdir. Çünki bu şərab zavodlarının əksəriyyəti Bakıdan avtomobillə bir-iki saatlıq məsafədə yerləşir. Onların hamısında yüksəkkeyfiyyətli milli yeməklərin və yerli məhsulların təqdim olunduğu restoranlar var.

Pol Uayt məqaləni bu sözlərlə yekunlaşdırıb: "Azərbaycanı və Azərbaycan şərabını daha yeni tanıdığım üçün oraya qayıtmağı çox istəyirəm".

Moldovanın **"Noi.md" xəbər portalında** rus və rumın dillərində nəşr edilən "Moldova Prezidenti və Bakıda keçirilən COP29-un digər iştirakçıları Azərbaycanın iqlim dəyişikliyi ilə mübarizə ideyalarını dəstəkləyirlər" sərlövhəli məqalədə nüfuzlu beynəlxalq konfransın təşkili, müzakirə olunan strateji mövzular barədə məlumat verilib.

Məqalədə bildirilir ki, Bakıda COP29-un iştirakçısı olan ölkələrin dövlət və hökumət başçılarının sammiti baş tutub və burada Moldova Prezidenti Maya Sandu da çıxış edib. Sandu qlobal ekoloji problemlərin həllində inkişaf etməkdə olan ölkələrə dəstək verilməsinin zəruriliyi ilə bağlı sessiyanın əsas doktrinasını alqışlayıb.

"Yaşıl zona" ərazisində bütün maraqlı tərəflərin - fəallardan və özəl təşəbbüslərin tərəfdarlarından tutmuş iri biznes və dövlət qurumlarının nümayəndələrinə qədər çoxşaxəli ünsiyyət təşkil olunur. "Mavi zona"da sessiyalar, görüşlər və sammitlər keçirilir.

Yazıda daha sonra qeyd olunur ki, müxtəlif ölkələrin onlarca prezident və digər yüksəkvəzifəli şəxslərinin iştirak etdiyi tədbirdə Afrika, Latın Amerikası və xüsusilə kiçik ada dövlətləri geniş nümayəndə heyəti ilə təmsil olunub. COP29-a evsahibliyi edən tərəfin əsas diqqəti ekoloji bərabərlik məsələsinə yönəlib. Forumun əsas məqsədinə görə, həm karbohidrogenlərin istehlakında, həm də zərərli emissiyaların istehsalında lider olan inkişaf etmiş ölkələr iqlimə təzyiqə görə məsuliyyəti öz üzərinə götürməli və təbiətə dəyən zərərin ödənilməsində daha zəif ölkələrə kömək etməlidirlər.

Əslində, bütün COP konfranslarının məqsədi sənayedən əvvəlki dövrdə və 2015-ci il Paris Sazişinin tələb etdiyi kimi, karbon qazının miqdarını və qlobal temperatur artımını 1,5 dərəcə Selsi ilə məhdudlaşdırmaqdır. Eyni zamanda dövlət başçılarının, ətraf mühit fəallarının və ekspertlərin bəyanatlarına görə, COP29-dan bu problemin həlli istiqamətində konkret addımlar gözlənilir.

Sonda vurğulanır ki, Bakıda keçirilən COP29-da qlobal temperaturun artmasının qarşısını almaq üçün Parisdə iqlim sazişinin imzalanmasından 9 il sonra karbon bazarları üzrə mühüm razılaşma artıq əldə olunub. Tədbir zamanı BMT-nin Baş katibi Antonio Quterreş iqlim dəyişikliyinin qarşısının alınması üçün vaxtın daraldığını bildirib və ölkələri bu məqsədlə ayrılan vəsaitin artırılmasına çağırıb.

Səudiyyə Ərəbistanı Krallığının nüfuzlu **"əş-Şarq əl-Avsat" qəzeti** Azərbaycan Prezidenti İlham Əliyevin noyabrın 12-də Bakıda keçirilmiş Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) Liderlər Sammitinin açılış mərasimində çıxışından yazıb. Nəşr Azərbaycan Prezidentinin ölkələrin təbii sərvətlərə malik olduğuna və tələbatı ödəmək üçün onları bazarlara çıxarmasına görə suçlanmasının yolverilməzliyi barədə dediklərini oxucularının diqqətinə çatdırıb. Sitatda dünya ictimaiyyətini bu məsələlərdə realist olmağa çağıran Prezident İlham Əliyevin Azərbaycanın COP29-un sədri kimi "yaşıl dünya"-nın güclü carçısı olduğunu və bunu davam etdirdiyini bildirdiyi də diqqətə çatdırılır.

Səudiyyə nəşri Azərbaycan liderinin çıxışında planetin qlobal istiləşməsindən danışan, amma əslində, Azərbaycan qazının tədarükünü daha da artırmağa can atan bir sıra Qərb ölkələrinin ikiüzlülüyü ilə bağlı fikirlərindən sitat gətirərək yazır: "Əfsuslar olsun ki, ikili standartlar, digər ölkələrə dərslər vermək adəti və siyasi riyakarlıq bəzi Qərb ölkələrindəki bir sıra siyasətçilər, dövlət nəzarətində olan QHT-lər, yalan xəbər mediası üçün fəaliyyət metoduna çevrilib".

Türkiyənin **"TRT Avaz" telekanalı** COP29 çərçivəsində Türkiyənin "Sıfır Tullantı" ekoloji təşəbbüsünə həsr olunmuş stendin açılışı ilə bağlı reportaj hazırlayıb. Telekanalın qeyd etdiyinə görə, Türkiyə Prezidenti Administrasiyasının Kommunikasiya şöbəsi tərəfindən yaradılmış "Sıfır Tullantı" stendi Azərbaycanda 169 ölkədən 72 min nəfərin iştirakı ilə davam edən qlobal iqlim sammitində iştirakçıların böyük marağına səbəb olub. Reportajda qeyd olunub ki, Türkiyə pavilyonunda yer alan "Sıfır Tullantı" stendində BMT-yə üzv olan 105 ölkənin dəstəklədiyi ekoloji hərəkat haqqında dolğun məlumatlar yer alıb.

Telekanal tamaşaçıların diqqətinə çatdırıb ki, COP29 "yaşıl zona"sının eyni hissəsində Türkiyənin flora və faunası, o cümlədən endemik bitkilər və nəsli kəsilməkdə olan heyvanlar haqqında məlumatlarla da tanış olmaq mümkündür. Türkiyə pavilyonunda həmçinin tullantılardan toplanan parçalar, kağız və üzvi materiallardan yaradılmış əsərlərdən ibarət "Tullantıdan sənətə" adlı sərgi də keçirilir.

"Pavilyonu ziyarət edənlərə Türkiyədə su tənzimlənməsi mövzusunda stend, "Dünya ortaq evimizdir" kitabı, həmçinin Türkiyənin ətraf mühitlə bağlı təşəbbüslərinə dair nəşrlər təqdim olunacaq", - deyə məlumatda bildirilir.

İordaniyanın aparıcı media qurumlarında da Azərbaycanın evsahibliyi etdiyi BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) aid çoxlu sayda xəbərlər və videomateriallar yayımlanıb. Ölkənin **"Petra" Dövlət İnformasiya Agentliyi, "The Jordan Times", "Al-Rai", "Əd-Dustur", "Ammon News", "Jordan News", "Roya News", "Al-Mamlaka" qəzet və saytlarında, eləcə də "Jordan Tv", "Roya Tv" və "Mamlaka Tv" televiziya kanallarında** COP29 ilə bağlı silsilə məqalə və videomateriallar dərc edilib. Xəbərlərdə COP29 çərçivəsində keçirilən Liderlər Sammitində İordaniya Kralı II Abdullahı təmsil edən Vəliəhd Şahzadə II Əl-Hüseyn bin Abdullahın tədbirdəki çıxışı, həmçinin Azərbaycan Prezidenti İlham Əliyev ilə görüşü barədə ətraflı məlumat verilib.




*Hazırladı:*
***Elçin CƏFƏROV,***
*"Azərbaycan"*

# Azərbaycan qlobal tədbirlərin mükəmməl təşkilatçılıq modelini yaradıb






















## Cuzeppe VALDİTARA: "Təhsil siyasəti ekoloji dayanıqlılığa keçiddə ən effektiv vasitə ola bilər"

**"Təhsil siyasəti texnoloji innovasiyalara və ekoloji dayanıqlılığa keçidi istiqamətləndirmək üçün ən effektiv vasitə ola bilər".**



"Report" xəbər verir ki, bunu İtaliyanın təhsil naziri Cuzeppe Valditara COP29 çərçivəsində təşkil olunmuş "İqlim dayanıqlılığı üçün Bakı İnsan İnkişaf Təşəbbüsü" mövzusunda birgə iclasda bildirib.

"İqlim dəyişikliyi həyat tərzimizin yenidən, hərtərəfli qiymətləndirilməsini tələb edir. Bu mənada təhsil sahəsi bilik və məlumatlılığın əldə edilməsində əsas rol oynaya bilər. Elmi-mədəni bilik və səriştələr insanlara doğru və yanlış məlumatları ayırd etməyə, həmçinin iqlim fəaliyyətini irəlilətmək, davamlılıq yaratmaq üçün potensialı inkişaf etdirməyə imkan yaratmaq üçün vacibdir. Biz elmi yanaşmaya inanırıq, hesab edirik ki, iqtisadi artım və ətraf mühitin mühafizəsi paralel inkişaf etdirilməlidir. İtaliya gələcək nəsillərin maraqları naminə təhsilə, bioiqtisadiyyata, biomüxtəlifliyin və ekosistemlərin qorunmasına xüsusi diqqət yetirir", - deyə o vurğulayıb.

## Vinsent KARREMANS: "Sağlamlıq və iqlim dəyişikliyi arasında çox əhəmiyyətli əlaqə var"

**"Sağlamlıq və iqlim dəyişikliyi arasında çox əhəmiyyətli əlaqə var".**



Bunu Niderlandın gənclər və idman naziri Vinsent Karremans COP29 çərçivəsində "İqlim dayanıqlılığı üçün Bakı İnsan İnkişaf Təşəbbüsü" mövzusunda keçirilən birgə iclasda çıxışı zamanı deyib.

O bildirib ki, iqlim dəyişikliyi hər kəsin, xüsusilə də uşaqların sağlamlığı üçün böyük riskdir: "İqlim dəyişikliyi ilə mübarizə apararkən və emissiyaları azaldarkən insan sağlamlığına da nəzər yetirmək lazımdır. Misal olaraq, Avropanın ən böyük limanı olan Rotterdamda güclü yağış və ekstremal istiliklə mübarizə aparmaq üçün daha çox "yaşıl infrastruktur" üzərində işləyirik. Yaşıllıqların çox olmasının böyük faydası var. Çünki bu, təmiz hava yaradır, insanları idmanla məşğul olmağa, uşaqları oynamağa, qaçmağa sövq edir. Bu gün Niderlandın Səhiyyə Nazirliyi bu istiqamətdə layihələri maliyyələşdirir və dəstəkləyir, çünki bu, iqlim dəyişikliyi ilə mübarizədə çox aktual məsələdir".

## Krispian OLVER: "İnsan inkişafına diqqət sıfır emissiyaya ədalətli keçidin əsasını təşkil edir"

**"İnsan inkişafına diqqət yetirmək sıfır emissiyaya ədalətli keçidin əsasını təşkil edir".**



Bunu Cənubi Afrikada fəaliyyət göstərən İqlim Komissiyasının icraçı direktoru Krispian Olver COP29 çərçivəsində "İqlim dayanıqlılığı üçün Bakı İnsan İnkişaf Təşəbbüsü" mövzusunda keçirilən birgə iclasda çıxışı zamanı deyib.

Onun sözlərinə görə, kömür dominantlı iqtisadiyyatdan çıxdıqca bəzi sektorlar yox olacaq və bir çoxu kəskin şəkildə böyüyəcək.

"Sadəcə ən yaxşısını ümid etdiyimiz sərbəst yanaşma sosial baxımdan son dərəcə pozucu olacaq. Ədalətli keçid haqqında düşünəndə bacarıq və dolanışığı eyni sikkənin iki tərəfi kimi düşünürük. Başlıca məqsəd insanlarımıza iqtisadiyyatda məhsuldar rol verməkdir".

K.Olver bildirib ki, Cənubi Afrikada təhsil sistemi hazır kadrlar yetişdirmir: "Ən yaxşı öyrənmə və bacarıq inkişafı, əslində, iş başında təlimdir. İşəgötürənlər tələbatın hara getdiyini bilir və hökumətlə birgə tərəfdaşlıq edərək maliyyə məsələsini təmin etməlidirlər".

## Qael QRUBİ: "Davamlı ticarətin asanlaşdırılması üçün yeni həllər tələb olunur"

**"Davamlı ticarətin asanlaşdırılması üçün yeni həllər və innovativ yanaşmalar tələb olunur"**



Bunu Ümumdünya Gömrük Təşkilatının (ÜGT) Tarif və ticarət işləri üzrə müvəqqəti direktoru Qael Qrubi (Gael Grooby) COP29 çərçivəsində keçirilən "Yaşıl gömrüklər: Davamlı ticarətin asanlaşdırılması, innovasiya və standartlarla inkişafı" adlı tədbirdə çıxışı zamanı bildirib.

O, qeyri-qanuni ticarətin qarşısının alınması və tullantıların əvvəlcədən məlumatlandırılmış razılığı ilə bağlı görülən işlərin əhəmiyyətini vurğulayıb.

Qeyd edib ki, mövcud metodların təkmilləşdirilməsi vacib olsa da, bu kifayət etmir: "Əgər biz eyni yanaşmaları təkrarlamağa davam etsək, həqiqi irəliləyiş əldə edə bilməyəcəyik. Yeni həllər və innovativ yanaşmalar lazımdır. Belə ki, bu həllər həm təkmilləşməli, həm də yeniliklərə açıq olmalıyıq".

Onun sözlərinə görə, hazırda ÜGT-də harmoniya edilmiş sistemin təkmilləşdirilməsi üzrə işçi qrupu fəaliyyət göstərir: "Fəaliyyət planımızın əsas məqsədlərindən biri ətraf mühit üçün vacib olan malların təsnifat sistemində görünüşünü artırmaqdır. Bu, hökumətlərə yaşıl malların idxalını asanlaşdırmaq və ya əksinə, zərərli məhsulları məhdudlaşdırmaq imkanı verir".

Q.Qrubi əlavə edib ki, dövri iqtisadiyyat prinsiplərinin ticarət sahəsində tətbiqi gömrük sistemində mövcud çətinlikləri aradan qaldırmağa mühüm töhfə verəcək.

## Stefani SPEK: "İqlim maliyyəsi ən həssas yerlərə sürətli şəkildə səfərbər edilməlidir"

**"İnsanları iqlim maliyyəsinin mərkəzinə qaytaran müzakirələrdən, təhsil, səhiyyə, sosial müdafiə, məşğulluqla insan inkişafının ən çətin yerlərdə getdikcə artan mühüm kəsişməsindən başlamaq lazımdır".**



Bunu Yaşıl İqlim Fondunun (GCF) Kommunikasiya rəhbəri Stefani Spek COP29 çərçivəsində "İqlim dayanıqlılığı üçün Bakı İnsan İnkişaf Təşəbbüsü" mövzusunda keçirilən birgə iclasda çıxışı zamanı deyib.

Onun sözlərinə görə, bu, mütləq vacibdir və iqlim maliyyəsi ən həssas yerlərə sürətli şəkildə səfərbər edilməlidir: "Təkcə layihələr deyil, həm də inklüzivlik təmin edilməli, eyni zamanda ədalət və bərabərliklə həyata keçirilməlidir".

GCF rəsmisi vurğulayıb ki, fond bu sahədəki məsuliyyətləri həm birbaşa öz investisiyaları vasitəsilə (hazırda 16 milyard dollar həcmində), həm də digər mənbələr hesabına icra edir: "Maliyyələşməyə 60 milyard dollardan çox investisiya cəlb etmişik. Məqsədyönlü şəkildə səhiyyə, təhsil və sosial müdafiəyə artan investisiyalar yatırmağa çalışırıq". O qeyd edib ki, bu sahədə daha çox iş görülməlidir: "Uzunmüddətli dolanışıq vasitələri yaratmalıyıq. İstixana qazı emissiyalarının azaldılması yolu ilə iqlim dəyişikliyinin yumşaldılmasına birbaşa və məqsədyönlü töhfə verən ictimai işlər proqramları, gəlir transferləri təmin etməklə, yumşaldılmanın sosial təsirlərini həll etməyə və ədalətli keçidləri dəstəkləməyə kömək edən bacarıqlar yaratmaq lazımdır".

## Liesbet STİR: "İnsan kapitalına investisiyanı artırmaq üçün həll yolları tapmaq lazımdır"

**"İnsan kapitalı və bacarıqlara investisiyanı artırmaq üçün "İqlim dayanıqlılığı üçün Bakı İnsan İnkişaf Təşəbbüsü" çərçivəsində həll yolları tapmaq lazımdır".**



Bunu "Systemiq"in baş müşaviri və "ODI Global"ın İdarə Heyətinin sədri Liesbet Stir BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) çərçivəsində keçirilən "İqlim dayanıqlılığı üçün Bakı İnsan İnkişaf Təşəbbüsü" mövzusunda birgə iclasda bildirib.

"İlk dəfədir ki, COP-da insan inkişafı mövzusu müzakirə olunur. Bu, mühüm əhəmiyyət kəsb edir. Bir sıra tərəfdaşlarla birlikdə bu istiqamətdə bəzi məsələləri həyata keçirməyə çalışırıq. Məsələn, bu sahədə investisiya üçün daha yaxşı əsas yaratmaq lazımdır. Bu gün iqlim dəyişikliyi ilə bağlı tədbirlərin artım üçün faydalı olduğuna dair anlayışa malikik. Düzgün həyata keçirilərsə, bu, artım üçün həqiqətən yaxşı ola bilər və düşünürəm ki, indi hamımız buna inanırıq. Biz insanlara bu istiqamətdə sərmayə qoyuluşunun təkcə mənəvi deyil, həm də iqtisadi və siyasi cəhətdən vacib olduğunu sübut etməliyik", - deyə o qeyd edib. Onun sözlərinə görə, bu qlobal təşəbbüs vasitəsilə insan kapitalı və bacarıqlara investisiyanı artırmaq üçün həll yolları tapmağa çalışmaq lazımdır: "Bu məqsədlə yeni yollar tapmaq lazımdır. Təbii ki, bu mənada maliyyə resursları mühüm əhəmiyyət kəsb edir. Doğrudur, iqlim maliyyəsində hazırda buna üstünlük verilməyib. Düşünürəm ki, bu yanaşma dəyişməlidir".

## Roland PRAYS: "Xəzər dənizinin səviyyəsinin azalması sahilyanı ölkələrin iqtisadiyyatına mənfi təsir göstərir"

**"Xəzər dənizinin səviyyəsinin azalması sahilyanı ölkələrin iqtisadiyyatına mənfi təsir göstərir".**



Bunu Dünya Bankının Cənubi Qafqaz üzrə regional direktoru Roland Prays COP29 çərçivəsində Xəzər dənizinin dayazlaşması ilə bağlı məsələlərə həsr olunmuş tədbirdə bildirib.

Dünya Bankı bu təsirləri yumşaltmaq və Xəzəryanı dövlətlərin potensialını artırmaq üçün onlara dəstək verməyə hazırdır.









COP29 Baku Azerbaijan

# Azərbaycan qlobal tədbirlərin mükəmməl təşkilatçılıq modelini yaradıb






## *Əhməd Mohammed Əl-SADA:* "Azərbaycanla ekologiya və dayanıqlı inkişaf sahəsində əməkdaşlıq edə bilərik"

**"Qətər iqlim maliyyəsi məsələlərində ümumi, lakin diferensiallaşdırılmış məsuliyyət prinsipinə sadiqdir".**



Bu barədə "Report"a eksklüziv açıqlamasında Qətərin ətraf mühit və iqlim dəyişikliyi nazirinin iqlim dəyişmələri məsələləri üzrə müavininin köməkçisi Əhməd Mohammed Əl-Sada bildirib.

Onun sözlərinə görə, Qətər COP29-da iştirakı ilə iqlim dəyişikliyinin yumşaldılması tədbirlərinin həyata keçirilməsinə töhfə vermək və bu məqsədlər üçün innovativ həllərin işlənib hazırlanmasında dəstəyini gücləndirmək niyyətindədir.

"Qətər inkişaf etmiş ölkələrin inkişaf etməkdə olan ölkələr üçün maliyyələşdirmə, texnologiyaların işlənib hazırlanması və ötürülməsi, potensialın artırılması məsələsində məsuliyyətini vurğulayır", - deyə Əl-Sada bildirib. O həmçinin Qətər və Azərbaycan arasında ekologiya və dayanıqlı inkişaf sahəsində əməkdaşlığın mümkün olduğunu vurğulayıb. Əl-Sada Qətərin Azərbaycanda bərpaolunan enerji mənbələri sahəsində layihələrə investisiya yatırmağı planlaşdırıb-planlaşdırmadığı sualının cavabında bildirib ki, zəruri araşdırmalar aparıldıqdan və əməkdaşlığın bütün aspektləri öyrənildikdən sonra müvafiq qərar qəbul etmək mümkün olacaq.

## *Serik BEKMAQANBETOV:* "Xəzərin Aralın taleyini təkrarlamaması üçün səylərimizi birləşdirməliyik"

**"Aralı Xilasetmə Beynəlxalq Fondu dayazlaşma ilə mübarizə təcrübəsinin ötürülməsində Azərbaycanla əməkdaşlıq etmək niyyətindədir".**



Bunu fond sədrinin müavini Serik Bekmaqanbetov bildirib.

Onun sözlərinə görə, təşkilatın öyrənəcəyi, uğurla tətbiq edəcəyi texnologiya və metodlardan Xəzər hövzəsi ölkələri, o cümlədən Azərbaycan da istifadə edə biləcək.

"Məqsədimiz su hövzələrini qorumaqdır və buna görə mən Aralı Xilasetmə Beynəlxalq Fondunun əməkdaşı olaraq Azərbaycanla əməkdaşlıq və tərəfdaşlığın gücləndirilməsində maraqlıyam", - deyə S.Bekmaqanbetov qeyd edib.

O həmçinin COP29 iqlim konfransının yüksək səviyyədə təşkilinə görə Azərbaycana təşəkkürünü bildirib.

COP29 çərçivəsində layihə və təşəbbüslərin həyata keçirilməsindən danışan sədr müavini qeyd edib ki, fond Beynəlxalq Su Ehtiyatlarının İdarə edilməsi İnstitutu (IWMI) ilə Anlaşma Memorandumu imzalayaraq beynəlxalq səviyyədə əməkdaşlıq üçün daha çox imkanlar açıb.

"Bizim daimi tərəfdaşlarımız var, lakin əlaqələrimizi genişləndirmək istərdik", - deyə S.Bekmaqanbetov qeyd edib.

Onun sözlərinə görə, təşkilatın Türkmənistan və Qazaxıstanla maraqlarının kəsişdiyi bir çox məsələ var və bu, Xəzərin dayazlaşması məsələlərində əməkdaşlığı gücləndirir.

"Xəzərin Aral dənizinin taleyini təkrarlamaması üçün əlimizdən gələni etməliyik", - deyə sədr müavini vurğulayıb.

## *Timur BUTUNBAYEV:* "Azərbaycan və Özbəkistan su ehtiyatlarının qorunması prinsipləri məsələlərində fəal əməkdaşlıq edirlər"

**"Azərbaycan və Özbəkistan su ehtiyatlarının qorunması, dayazlaşma və səhralaşma ilə mübarizə məsələlərində fəal təcrübə mübadiləsi aparırlar".**



Bunu Özbəkistanın su təsərrüfatı nazirinin birinci müavini Timur Butunbayev deyib.

"Özbəkistan Prezidenti Şavkat Mirziyoyev iqlim məsələlərinin təşviqində və su ehtiyatlarının qorunmasında Azərbaycanın rolunu xüsusilə vurğulayıb. Məncə, perspektivlər genişdir, hər şey nazirliklərdən, özəl sektordan, əməkdaşlığımızı necə təşkil etməyimizdən asılıdır", - deyə o bildirib.

T.Butunbayev bildirib ki, Aral və Xəzər dənizləri problemi gündəlikdədir və bu sahədə qarşılıqlı fəaliyyət üçün imkanlar açır.

Suya qənaət texnologiyaları sahəsində görülən işlərdən danışan T.Butunbayev iki ölkə arasında həm nazirliklər, həm də özəl sektor səviyyəsində əlaqələrin qurulduğunu vurğulayıb.

Nazir müavini beynəlxalq ictimaiyyətin də cəlb olunmasının vacibliyini vurğulayaraq iqlim konfranslarında səhralaşma və suyun mühafizəsi problemlərinin daha tez-tez qaldırılmalı olduğunu qeyd edib.

## *İsmahene ELOUAFİ:* "Dünyada milyonlarla insan aclıqdan əziyyət çəkir"

**"Dünyada milyonlarla insan aclıqdan əziyyət çəkir və bunun da 350 milyonu həddindən artıq aclıq içərisindədir".**



Beynəlxalq Kənd Təsərrüfatı Tədqiqatları üzrə Məşvərət Qrupunun (CGIAR) icraçı direktoru İsmahene Elouafi COP29 çərçivəsində "Davamlı və ədalətli gələcək üçün qadınları, gəncləri və innovasiyaları gücləndirən iqlimə davamlı kənd təsərrüfatı" tədbirində deyib.

Onun sözlərinə görə, bu böhranın mərkəzində iqlim dəyişikliyinin birbaşa təsirinə məruz qalan, lakin həll yollarını təqdim etmək üçün böyük potensiala malik olan kənd təsərrüfatı dayanır: "Kənd təsərrüfatı milyardlarla insanın dolanışığını təmin edir və hamımızdan asılı olan ərzaq istehsal edir. Bununla belə o, qeyri-sabit hava şəraitinə, resurs çatışmazlığına, sistemli bərabərsizliklərə qarşı daha həssasdır. Beləliklə, sistemi davamlı, dayanıqlı və əhatəli olmağa və iqlim böhranımızın həllinə necə çevirə bilərik. İnsan kapitalında, ixtiraçılıqda, liderlikdə, insanların, xüsusən də qadınların və gənclərin möhkəmliyindədir".

O əlavə edib ki, qadınlar bu transformasiya üçün çox vacibdir: "Beləliklə, bu qrupların gücləndirilməsi təkcə mənəvi imperativ deyil, həm də iqtisadi zərurətdir. Qadınlar regionun bir çox ölkəsində kənd təsərrüfatı işçilərinin təxminən 50 faizini təşkil edir. Lakin ümumilikdə onlar torpağa, maliyyəyə və texnologiyaya qeyri-bərabər çıxışlarla üzləşirlər. Onlar tez-tez qərar qəbul etmə səlahiyyətlərindən kənarda qalırlar, icmalarının potensialını məhdudlaşdırırlar. Lakin araşdırmalar göstərir ki, qadınların səlahiyyətlərinin artırılması transformasiyaya təkan verir".

Onun sözlərinə görə, gənclər çox vaxt istifadə olunmamış potensialdır: "Onlar kənd təsərrüfatına yeni perspektiv və innovasiyalar gətirir. Onlar yeni texnologiyalar, sahibkarlıq metodologiyalarını mənimsəmək üçün yaxşı şəraitə malikdirlər, lakin çox vaxt imkanları yoxdur və bu sektorda uğur qazanmaq üçün dəstək yoxdur".

## *Con BALBUS:* "İqlim dəyişikliyi uşaqların sağlamlığının qorunması üzrə proqramlarda nəzərə alınır"

**"ABŞ Səhiyyə və Sosial Xidmətlər Nazirliyi (HHS) uşaqların dəstəklənməsi və müdafiəsi ilə bağlı mövcud proqramlar çərçivəsində iqlim dəyişikliyini fəal şəkildə nəzərə alır".**



Bu barədə İqlim Dəyişikliyi və Səhiyyə İdarəsinin direktoru, səhiyyə nazirinin köməkçisinin müavini Con Balbus media nümayəndələri ilə görüşdə bildirib.

"HHS aztəminatlı ailələrdən olan uşaqlar üçün tibbi sığorta proqramından başlayaraq Head Start proqramına qədər geniş xidmətlər spektri təklif edir. Departamentimiz iqlim dəyişikliyinin bu təşəbbüslərdə nəzərə alınması üçün əlindən gələni edir", - deyə o qeyd edib.

C.Balbus ölkə üzrə bütün Head Start müəssisələri üçün iqlim risklərinin təhlilinin aparıldığı layihəni nümunə gətirib. Bu, onların əməkdaşlarına dəyişikliklərə uyğunlaşmağa və xidmətləri davam etdirməyə imkan verir. Bundan əlavə, uşaqların tibbi sığorta proqramında təbii fəlakətlər, məsələn, meşə yanğınları zamanı hava təmizləyicilərinin alınması üçün güzəştlər nəzərdə tutulub.

O vurğulayıb ki, uşaqların iqlim risklərindən qorunması ilə bağlı böyük federal proqramların hazırlanması Konqresin səlahiyyətlərinə daxildir. "HHS çərçivəsində "İqlim dəyişikliyi ilə əlaqədar uşaqların sağlamlığının qorunması" adlı genişmiqyaslı proqram yoxdur, çünki yeni proqramların yaradılması Konqresin səlahiyyətindədir. Lakin biz mövcud təşəbbüslərin iqlim dəyişikliyi ilə bağlı çağırışlara uyğunlaşdırılması üçün çalışırıq", - deyə direktor əlavə edib.

## *Nepallı iştirakçı:* "İnkişaf etmiş ölkələrdən adekvat iqlim maliyyəsi gözləyirik"

**"Artıq 20 ildir mən iqlim dəyişikliyi məsələləri ilə mübarizə aparıram. Təəssüf ki, hazırda apardığımız danışıqlar o qədər də ürəkaçan deyil. Mən nələr ola biləcəyindən bir qədər narahatam. Çünki biz ümidli idik. Belə ki, biz həssas bölgələri, cəmiyyətləri təmsil edirik. Mənim ölkəmdə - Nepalda bir çox fəlakət baş verir. Gördüyümüz kimi, artıq iqlim dəyişikliyi dəhşətli nəticələrə səbəb olur. Biz bunu hiss edirik. Ümidvaram ki, danışıqlar müsbət davam edəcək".**



Bu fikirləri AZƏRTAC-a müsahibəsində Nepal nümayəndə heyətinin üzvü Bimal Raj Reqmi deyib: "Düzünü desəm, vəziyyət o qədər də ürəkaçan deyil. Biz artıq nəticəyönümlü danışıqlar gözləyirdik. Onlar hələ də daha böyük prinsiplər üzərində mübahisə edirlər, konkret rəqəmlərdən danışmırlar. Bizim isə istəyimiz ildə 5 və ya 6 trilyon dollardır. İnkişaf etmiş ölkələrdən adekvat iqlim maliyyəsi gözləyirik, lakin belə görünür ki, bu baş verməyəcək. 700 milyon yalnız "aysberqin bir kənarıdır". Bir çox sual hələ də cavabsız qalıb. Bizim 1.5 dərəcədən də böyük ambisiyalara ehtiyacımız var", - deyə Bimal Raj Reqmi qeyd edib.











## Kütləvi iştirak, böyük ictimai maraq, peşəkar təşkilatçılıq

# COP29 çərçivəsində "Qlobal İqlim Şəffaflığı üzrə Nazirlərin "dəyirmi masa"sı keçirilib










**COP29 çərçivəsində Yaponiya, Cənubi Afrika, ABŞ, İtaliya, Qazaxıstan nazirlərinin iştirakı ilə "Qlobal İqlim Şəffaflığı üzrə Nazirlərin "dəyirmi masa"sı keçirilib.**

AZƏRTAC xəbər verir ki, COP29-un prezidenti Muxtar Babayev tədbirin təşkilində fəal iştirak etmiş Qazaxıstan və İtaliya nümayəndələrinə təşəkkürünü bildirib.

O vurğulayıb ki, Azərbaycanın İkiillik Şəffaflıq Hesabatı (BTR) bu həftə təqdim olunmağa hazırdır.

"Ambisiyaların artırılması Milli Səviyyədə Müəyyən Edilmiş Töhfələr Sənədi (NDC), Milli Uyğunlaşma Planları və İkiillik Şəffaflıq Hesabatı (BTR) vasitəsilə 1,5 dərəcə hədəfini qorumaq üçün aydın planların hazırlanmasını tələb edir. İnanıram ki, qlobal iqlim şəffaflığının müxtəlif ölkələrin nazirlərinin iştirakı ilə müzakirəsi daha effektiv addımlar atmağa imkan verəcək. COP29-u bu addımları atmağa bir fürsət kimi dəyərləndirməyə çağırıram. Bu "dəyirmi masa"da qəbul olunacaq Bakı Bəyannaməsi qlobal iqlim şəffaflığı və qlobal iqlim dəyişikliyi məsələlərində daha səmərəli addımlar atmağa təşviq edəcək", - deyə M.Babayev əlavə edib.

Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının (UNFCCC) icraçı katibinin müavini Nura Hamlaji çıxışında bildirib ki, Bakıda COP29 çərçivəsində 11 ölkə İkiillik Şəffaflıq Hesabatlarını (BTR) təqdim edib: "Bu il Paris Sazişinə əsasən Artırılmış Şəffaflıq Çərçivəsinin tam tətbiqi qeyd olunur. İlk iki ildə bir dəfə bu hesabatların təqdim edilməsində lider olmuş ölkələri qeyd edəcəyəm: Andorra, Qayana, Panama, Yaponiya, İspaniya, Türkiyə, Qazaxıstan, Almaniya, Maldiv adaları, Niderland və Sinqapur. Bu ölkələr, həqiqətən də, başqaları üçün güclü nümunədir".

COP29 çərçivəsində keçirilən Nazirlər Görüşündə İkiillik Şəffaflıq Hesabatlarının (BTR) təqdimatına görə, nümayəndə heyətləri mükafatlandırılıb. Mükafatlandırılan ölkələr arasında Azərbaycan, Andorra, Qayana, Panama, Yaponiya, İspaniya, Türkiyə, Qazaxıstan, Almaniya, Maldiv adaları, Niderland və Sinqapur yer alıb.

Yaponiyanın ətraf mühit naziri Keyitiro Asao vurğulayıb ki, Yaponiya Bakı Qlobal İqlim Şəffaflığı Platformasını (BTP) dəstəkləyir.

Cənubi Afrikanın ətraf mühit, meşə təsərrüfatı və balıqçılıq naziri Dion Corc qeyd edib ki, Cənubi Afrika Təkmilləşdirilmiş Şəffaflıq Sistemi (ETF) çərçivəsində fəal şəkildə çalışır və iqlim öhdəliklərinin yerinə yetirilməsini davam etdirir.

Sinqapurun davamlı inkişaf və ətraf mühit naziri Qreys Fu isə öz növbəsində bildirib ki, Sinqapur Bakı Qlobal İqlim Şəffaflığı Platformasına dəstəyini ifadə edir.

Sonra Qırğızıstanın baş nazirinin müavini Edil Baysalov çıxışında bildirib ki, ölkəsi yaxın aylarda beynəlxalq standartlara və kollektiv məqsədlərə uyğun ilk İkiillik Şəffaflıq Hesabatını təqdim edəcək.

Niderland Krallığının gənclər və idman naziri Vinsent Karremans qeyd edib ki, iqlim dəyişikliyi ilə mübarizədə emissiyaları azaltmaqla yanaşı, səhiyyəyə də nəzər salınmalıdır.

Türkiyənin İqlim Dəyişikliyi Bürosunun rəhbəri Halil Hasar çıxışında vurğulayıb ki, Türkiyə ədalətli keçidi nəzərə alaraq, "yaşıl transformasiya" üçün sektoral infrastrukturun yaradılması üzərində işləyir.

Yekun nitqində Azərbaycanın xarici işlər nazirinin müavini, COP29 üzrə baş danışıqçı Yalçın Rəfiyev deyib ki, Azərbaycan İkiillik Şəffaflıq Hesabatlarının (BTR) təqdim edilməsində mühüm rol oynayır və əhəmiyyətli töhfə verir: "Bu gün bir sıra dövlətlər də ikiillik iqlim hesabatlarını təqdim edib. Həmin dövlətlərin sayı ilin sonunadək artacaq. Azərbaycanın bu məsələyə böyük rolu və töhfəsi var. Buna görə də dövlət nümayəndələri bunu xüsusi qiymətləndirdilər. Prosesi sürətləndirmək üçün biz Bakı Bəyannaməsinin imzalanmasını təklif etdik. Bu sənəd artıq qəbul olundu və dövlətlər bəyannaməyə qoşuldular. Bu sənədin mahiyyəti ondan ibarətdir ki, növbəti illərdə dövlətlər tərəfindən bu sahədə hesabatların hazırlanmasında texniki boşluqların aradan qaldırılması üçün Bakı Şəffaflıq Platforması əsasında onlar texniki dəstək, təlimlər və digər fəaliyyətlərlə təmin olunacaq. Bu, bir az vaxt və kifayət qədər resurs tələb edən prosesdir. Azərbaycanın bu təşəbbüsünü Qərb dövlətləri, donorlar da dəstəkləyir. Növbəti illərdə dövlətlərə veriləcək dəstək məhz bu donorlar, eləcə də Azərbaycan tərəfindən həyata keçiriləcək".

Tədbirin sonunda Bakı Bəyannaməsi qəbul olunub.









# "Beynəlxalq qiymətləndirmə çərçivəsində ətraf mühit savadlılığının ölçülməsi" mövzusu müzakirə olunub

**Noyabrın 18-də BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) çərçivəsində "Beynəlxalq qiymətləndirmə çərçivəsində ətraf mühit savadlılığının ölçülməsi" mövzusunda yüksəksəviyyəli panel keçirilib.**

AZƏRTAC xəbər verir ki, panel sessiyasında beynəlxalq ekspertlərin iştirakı ilə PISA kimi qiymətləndirmələrin şagirdlərdə ətraf mühit savadlılığının artırılmasındakı rolu ətraflı müzakirə edilib.

Sessiyada İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) təhsil və bacarıqlar üzrə direktoru Andreas Şleyxer PISA-nın yeni göstəricilərinin şagirdlər arasında iqlim dəyişikliyi savadlılığını necə qiymətləndirə və təşviq edə biləcəyinə dair təqdimatla çıxış edib.




Andreas Şleyxer bildirib ki, Azərbaycan tərəfindən irəli sürülən və təşəbbüs göstərilən bu göstəricilər şagirdlərin ətraf mühit bilikləri və problem həlletmə bacarıqlarını qiymətləndirmək üçün geniş çərçivənin təqdim olunmasını hədəfləyir.

Çıxış edən elm və təhsil naziri Emin Əmrullayev iqlim savadlılığı göstəricilərinin qlobal miqyasda inkişaf etdirilməsinin vacibliyini vurğulayıb. Nazir əlavə edib ki, təhsil iqlim dəyişikliyinin reallıqlarına uyğunlaşma, dayanıqlılıq və innovativ həllər üçün əsas baza rolunu oynamalıdır. Emin Əmrullayevin sözlərinə görə, Azərbaycan olaraq biz bu yeni göstəriciləri təklif etməklə qlobal təhsil sistemlərinə iqlim savadlılığının inteqrasiyası istiqamətində cəsarətli bir addım atmış olduq.

Panel sessiyası Elm və Təhsil Nazirliyi ilə OECD arasında şagirdlərin PISA çərçivəsində iqlim savadlılığını qiymətləndirmək üçün razılaşmanın imzalanması ilə yekunlaşıb.

Razılaşma qlobal səylərin iqlim savadlılığının təhsilə inteqrasiyasına yönəlməsi baxımından mühüm addım olaraq qiymətləndirilir.

COP29 Baku Azerbaijan

# Azərbaycandan dünyaya "yaşıl çağırış"lar

## COP29-da insan kapitalına investisiyaların davamlı kənd təsərrüfatı transformasiyasına və iqlim fəaliyyətinə təsiri müzakirə edilib

**BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının Bakıda keçirilən 29-cu (COP29) sessiyası çərçivəsində Kənd Təsərrüfatı Nazirliyinin "yaşıl zona"da fəaliyyət göstərən pavilyonunda "AgriFuture 2024: Dayanıqlı və ədalətli gələcək üçün qadınları, gəncləri və innovasiyaları gücləndirən iqlim təsirlərinə davamlı kənd təsərrüfatı" mövzusunda panel müzakirələr keçirilib.**



AZƏRTAC xəbər verir ki, İnsan inkişafı, Uşaq və Gənclər, Sağlamlıq, Təhsil Günündə keçirilən panel sessiyanın əsas məqsədi insan kapitalına investisiyaların davamlı kənd təsərrüfatı transformasiyasına və iqlim fəaliyyətinə təsirini müzakirə etməkdir.

Panel sessiyada moderatorluq edən Beynəlxalq Aqrar Tədqiqatlar üzrə Məsləhət Qrupunun (CGIAR) Torpaq, su və aqronomluq üzrə tədqiqat qrupunun rəhbəri Vinay Nangia aqrar sahənin uğurlu inkişafında qadınların və gənclərin mühüm rol oynadığını, innovativ yenilik və təcrübənin kənd təsərrüfatının inkişafına təkan verdiyini qeyd edib.

Panel sessiyanı giriş sözü ilə açan kənd təsərrüfatı naziri Məcnun Məmmədov bildirib ki, bu tədbir bəşəriyyətin gələcəyi üçün vacib məsələlərə xüsusi diqqət yetirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Onun sözlərinə görə, kənd təsərrüfatı cəmiyyətin əsasını təşkil etməklə iqtisadiyyatın dəstəklənməsi, əhalinin məşğulluğunun təmin olunması, ərzaqla təminatda vacib rol oynayır. Nazir Məcnun Məmmədov qeyd edib ki, hazırda iqlim dəyişikliyi, məhdud resurslar və dəyişən bazar tələbləri aqrar sahəyə hər tərəfdən təzyiq edir. Azərbaycanda aqrar sahənin inkişafı ilə bağlı icra edilən tədbirlərin tərkib hissəsi kimi gənclərin və qadınların potensial imkanlarının düzgün qiymətləndirilməsi, onların məşğulluq səviyyəsinin artırılması, innovativ layihələrdə iştirakının stimullaşdırılmasının aqrar siyasətin əsas hədəflərindəndir.

M. Məmmədov fermerlərin üzləşdikləri çətinliklərin həlli istiqamətində Azərbaycanın kənd təsərrüfatı, ətraf mühit və iqlim məsələlərini özündə ehtiva edən fermerlər üçün "Bakı Harmoniya İqlim Təşəbbüsü"nü irəli sürdüyünü tədbir iştirakçılarının diqqətinə çatdırıb. Onun sözlərinə görə, harmoniya kənd təsərrüfatında, qida sistemlərində, su idarəçiliyində iqlim dəyişikliyinə uyğunlaşma və davamlı inkişafın təşviqinə yönəlməklə, müxtəlif təşəbbüsləri, koalisiyaları və tərəfdaşlıqları birləşdirən mərkəzi platforma rolunu oynayacaq, kənd təsərrüfatı sistemlərinin transformasiyasını dəstəkləyəcək, davamlı kənd təsərrüfatını dəstəkləyən investisiyaları səfərbər etməyə imkan verəcək, kənd təsərrüfatının onurğa sütunu və gələcək dayanıqlığın əsas hərəkətverici qüvvəsi olan fermerlərin, xüsusilə qadınların və gənclərin imkanlarının artırılmasına xidmət edəcək.

Panel sessiyada çıxış edən Quraq Ərazilərdə Kənd Təsərrüfatı Tədqiqatları üzrə Beynəlxalq Mərkəzin (İCARDA) İcraçı direktoru İsmahane Elouafi, BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) İqlim Dəyişikliyi, Biomüxtəliflik və Ətraf Mühit Ofisinin direktoru Kaveh Zahedi iqlim dəyişikliyi, qida təhlükəsizliyi, su qıtlığı kimi qlobal çağırışların həlli istiqamətində qadınların, gənclərin fəal iştirakının vacibliyinə toxunub, kənd təsərrüfatında rəqəmsal texnologiyaların tətbiqinin əhəmiyyəti, rəqəmsal həllərin istehsalın avtomatlaşdırılmasında rolu, iqlim dəyişikliklərinin təsirlərinin azaldılması, məhsuldarlığın artırılması yolları ilə bağlı fikirlərini bölüşüblər.

"İqlimə davamlı aqroqida sistemləri üçün insan kapitalı: liderlik, elm və icma perspektivləri" mövzusunda panel sessiyada Quraq Ərazilərdə Kənd Təsərrüfatı Tədqiqatları üzrə Beynəlxalq Mərkəzin (İCARDA) mütəxəssisi Akmal Əkrəmxanov, Azərbaycan Kənd Qadınları Assosiasiyasının sədri Gülbəniz Qənbərova fərdi təsərrüfatlara dəstək, ərzaq təhlükəsizliyinin təmin olunması, iqlim dəyişikliyinin aqrar sahəyə təsiri, torpaq, su resurslarından səmərəli istifadə, təbii sərvətlərin, ekoloji tarazlığın qorunması, aqroərzaq sistemlərinin rəqəmsal transformasiyası, kənd yerlərinin, icmaların davamlı inkişafı üçün dayanıqlı kənd təsərrüfatı sisteminin qurulması mövzuları ətrafında fikir mübadiləsi aparıblar.

Panel müzakirələr sual-cavab formatında davam etdirilib.

## COP29-da "yaşıl bacarıqlar"a dair yüksəksəviyyəli debat təşkil olunub








**COP29 Azərbaycan Əməliyyat Şirkətinin təşkilatçılığı ilə "Bacarıqlara investisiya əhəmiyyətli iqlim öhdəliyidir: COP29-un yüksəksəviyyəli çempionu" adlı xüsusi tədbir keçirilib.**

AZƏRTAC xəbər verir ki, İnsan İnkişafı Günündə BMT-nin iqlim dəyişikliyi üzrə yüksəksəviyyəli çempionu Nigar Arpadarai və "LinkedIn" sosial şəbəkəsinin birgə əməkdaşlığı ilə keçirilmiş debatda COP29 Sədrliyinin İqlim Dayanıqlılığı üçün İnsan İnkişafı üzrə Bakı Təşəbbüsündən danışılıb.

Davamlı gələcəyə qlobal keçiddə yaşıl bacarıqların kritik roluna dair müzakirələrin aparıldığı debatda COP29-un yüksəksəviyyəli çempionu Nigar Arpadarai bildirib ki, dünya iddialı iqlim məqsədlərinə çatmaq üçün insanları düzgün bacarıqlarla təchiz etmək həlledici fürsətdir. Tədbir bu sahədə əsas məqsədi müzakirə etmək üçün qlobal ekspertləri bir araya gətirib. Tədbirdə "yaşıl bacarıqlar"ın iqlim fəaliyyətinin təməl daşı olması, texnologiya və təbiətin mühafizəsi kimi digər prioritetlər də müzakirə olunub.

COP29 Sədrliyinin Fəaliyyət Gündəliyinin Qlobal və Regional Təşəbbüslər Komandasının həmrəhbəri, Xarici İşlər Nazirliyinin İqtisadi əməkdaşlıq idarəsinin rəisi Elmar Məmmədov investisiya əhəmiyyətli iqlim öhdəliyinə dair aparılan işlərdən danışıb. Qeyd edilib ki, "yaşıl keçid"in mərkəzində insanların rolu dayanır. İqlim məlumatlılığını artırmaq və fəaliyyətə təşviq etmək üçün "yaşıl təhsil" proqramları tətbiq olunmalıdır. İqlim təsirləri haqqında məlumatlı, dəyişən dünyada inkişaf etmək üçün bacarıq və dayanıqlılıqla təchiz edilmiş nəsil yetişdirmək çox vacibdir. İstehsalatda səmərəlilik üçün texnoloji tərəqqiyə üstünlük verilməsinin əhəmiyyətini vurğulayan E.Məmmədov qeyd edib ki, gələcəyimizə təhlükə yaradan hərəkətləri cilovlamaq üçün tətbiq olunan tədbirləri təşviq etməklə yanaşı, təchizat və istehlak da önəmlidir. Müzakirələrdə münsiflər heyətinin ekspert rəyləri ilə yanaşı, təklifin lehinə və əleyhinə tutarlı arqumentlər təqdim olunub.

"LinkedIn"in Yaşıl Bacarıqlar Hesabatında vurğulandığı kimi, xüsusilə qadınlar və təcrid olunmuş qruplar arasında "yaşıl bacarıqlar"a çıxışda mövcud vəziyyətlə bağlı fikir mübadiləsi aparılıb. Tədbirdə təhsil və təlimə investisiyaların fərdlər, təşkilatlar və iqtisadiyyatlar üçün yaratdığı imkanlara və onların həllinə diqqət yetirilib.

Qlobal liderlər və novatorlar ilə iqlim fəaliyyətində fəal iştirak etmək üçün unikal platforma təqdim edən debatda bacarıqların, inklüzivliyin və ambisiyaların "yaşıl keçid"də tətbiqinə dair strategiyalar haqqında məlumat verilib.






# Uşaqların COP29 sevinci



























COP29 Baku Azerbaijan

# Büdcə müzakirələri başladı

**Noyabrın 18-də Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin növbəti iclası keçirilib. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, iclasda "Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsi haqqında" qanun layihəsi birinci oxunuşda müzakirə olunub.**



## Büdcə zərfinə daxil olan qanun layihələri qanunvericiliyin tələblərinə uyğun tərtib edilib

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov qanun layihəsinin ölkə Prezidenti tərəfindən parlamentə təqdim edildiyini söyləyib. O bildirib ki, Milli Məclisin Sədri Sahibə Qafarova komitəyə məsələ ilə bağlı əhatəli, məhsuldar, səmərəli müzakirələrin keçirilməsinə dair tövsiyələrini verib. Bununla yanaşı, spikerin təşəbbüsü ilə büdcə müzakirələrində Milli Məclisdə təmsil olunan siyasi partiyaların rəhbərləri və təmsilçiləri də iştirak edirlər.

Azər Əmiraslanov 2025-ci ilin dövlət büdcəsi layihəsinin və büdcə zərfinə daxil olan qanun layihələrinin qanunvericiliyin tələblərinə uyğun tərtib edildiyini, təqdim edilmiş layihələr üzrə Hesablama Palatasının rəyinin hazırlandığını deyib.

Komitə sədri diqqətə çatdırıb ki, 2025-ci il üçün dövlət büdcəsinin gəlirləri 38316,0 milyon manat, xərcləri 41367,6 milyon manat, büdcə kəsirinin yuxarı həddi isə 3051,6 milyon manat proqnozlaşdırılır. O, təqdim edilən makro-iqtisadi proqnozlar nəzərə alınaraq, büdcə layihəsinin pozitiv rəqəmlərə əsaslandığını, makroiqtisadi sabitlik şərtlərinə cavab verdiyini, gəlir və xərclərin artımla proqnozlaşdırıldığını qeyd edib. Bildirilib ki, növbəti il üçün dövlət büdcəsinin əsas xüsusiyyətlərindən biri də onun iqtisadi strategiyanın müddəalarının, milli inkişaf prioritetlərinin, maliyyə ehtiyaclarının vaxtında qarşılanmasının nəzərə alınmasıdır. Mühüm strateji vəzifələrin daxili imkanlar hesabına reallaşdırılması, büdcə dayanıqlılığının təmin edilməsi üçün fiskal və qeyri-fiskal tədbirlərin paralel həyata keçirilməsi də önəmli məsələlər hesab edilir. Büdcə layihəsinin sosialyönümlülüyü, sənəddə müdafiə və təhlükəsizlik məsələlərinin prioritet təşkil etdiyi, dövlətin mühüm funksiyaları üçün zəruri maliyyə təminatının yaradılması da xüsusi qeyd edilib.

## Xərclər 2024-cü illə müqayisədə 4,1 faiz çox proqnozlaşdırılır

Sonra iclasda maliyyə naziri Samir Şərifov "Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsi haqqında" qanun layihəsini təqdim edib. Nazir əvvəlcə cari il sentyabrın 1-də keçirilmiş növbədənkənar parlament seçkiləri nəticəsində formalaşmış VII çağırış Milli Məclisin yeni tərkibini təbrik edib, deputatlara fəaliyyətlərində uğurlar diləyib.

Samir Şərifov 2025-ci il dövlət və icmal büdcələrinin layihələrinin, həmçinin növbəti üç il üçün icmal büdcənin əsas göstəricilərinin Azərbaycan Respublikasının Prezidenti tərəfindən Milli Məclisə təqdim olunduğunu bildirib. O deyib ki, bununla yanaşı, Vergi Məcəlləsində, "Sosial sığorta haqqında", "Tibbi sığorta haqqında", "İşsizlikdən sığorta haqqında", "Gömrük tarifi haqqında", "Büdcə sistemi haqqında" qanunlarda və digər qanunvericilik aktlarında dəyişikliklərin edilməsi barədə layihələr də büdcə zərfinin tərkib hissəsi olaraq Milli Məclisə daxil olub.

Qeyd olunub ki, 2025-ci ilin dövlət və icmal büdcələrinin tərtibi zamanı İqtisadiyyat Nazirliyi tərəfindən təqdim olunmuş baza proqnozu əsas götürülərək, ölkədə ÜDM-in artım tempi 3,5 faiz, qeyri-neft-qaz ÜDM-in artım tempi 4,9 faiz, orta illik inflyasiya 4,6 faiz, xam neftin 1 barelinin qiyməti 70 ABŞ dolları, təbii qazın 1 min kubmetr ixrac qiyməti 242 ABŞ dolları, manatın məzənnəsi isə 1 dollar üçün 1,7 manat səviyyəsində qəbul edilib.

Büdcə-vergi siyasətinin əsas istiqamətlərinə dair məlumata əsasən, 2025-ci və sonrakı üç ili əhatə edən ortamüddətli dövr üzrə büdcə siyasətinin məqsəd, istiqamət və hədəfləri bir sıra çağırışlar nəzərə alınmaqla müəyyən edilib. Belə ki, növbəti dövrdə ölkənin müdafiə qabiliyyətinin və milli təhlükəsizliyinin gücləndirilməsi, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının bərpası, ölkə iqtisadiyyatına reinteqrasiyası və bu ərazilərə Böyük qayıdışın təmin edilməsi, "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın icrası, qeyri-neft sektorundan əldə olunan gəlirlərin ümumi büdcə gəlirlərində payının artırılması və bir sıra digər çağırışlar aktual olaraq qalır.

Bildirilib ki, 2025-ci ilin dövlət büdcəsinin xərcləri 41367,6 milyon manat nəzərdə tutulur ki, bu da 2024-cü illə müqayisədə 1625,3 milyon manat və ya 4,1 faiz çoxdur. Büdcə xərclərinin strukturunda cari xərclər 60,1 faiz və ya 24845,2 milyon manat, əsaslı xərclər 34,1 faiz və ya 14122,8 milyon manat, dövlət borcuna xidmətlə bağlı xərclər 5,8 faiz və ya 2399,6 milyon manat təşkil edəcək.

## Prioritet istiqamətlərdə xərclər artırılır

Qeyd olunub ki, ölkənin müdafiə qabiliyyətinin və milli təhlükəsizliyinin daha da möhkəmləndirilməsi, ordu quruculuğunun daha da müasirləşdirilməsinin vacibliyi nəzərə alınaraq, bu istiqamətdə xərclərin artırılması labüd hesab edilib. Buna əsasən, müdafiə və milli təhlükəsizliklə bağlı xərclərə 8396,0 milyon manat məbləğində vəsait nəzərdə tutulub. Bu, cari ilin proqnozuna nisbətən 1270,0 milyon manat çoxdur. Bununla yanaşı, layihədə Silahlı Qüvvələrin maddi-texniki təminatının yaxşılaşdırılması məsələləri də diqqətdə saxlanılıb. Növbəti ilin prioritet xərclərində xüsusi önəm verilən işğaldan azad olunmuş ərazilərə Böyük qayıdışın təmin edilməsi, şəhər və kəndlərin yenidən qurulması və bərpası, həmin ərazilərdə müasir infrastrukturların yaradılması məqsədilə 4 milyard manat vəsait nəzərdə tutulub.

Digər prioritet istiqamət - Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyasında nəzərdə tutulmuş sosialyönümlü tədbirlərin maliyyələşdirilməsi üçün 893 milyon manat və investisiyayönümlü layihələr üçün 1100,0 milyon manat, cəm olaraq 1993,0 milyon manat ayrılması nəzərdə tutulur. Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlər icrası üçün 150 milyon manat vəsait ayrılacaq.

Diqqətə çatdırılıb ki, vətəndaşların rifahının yaxşılaşdırılması, sosial müdafiəsinin təmin edilməsi də növbəti ildə prioritet məsələlər olaraq nəzərdə saxlanılır. Belə ki, 2025-ci il üçün dövlət büdcəsinin sosialyönlü xərcləri 2024-cü illə müqayisədə 1370,0 milyon manat və ya 8,8 faiz artırılaraq 16909,7 milyon manata çatdırılır. Əməkhaqqı, pensiya və sosial müavinətlər, ünvanlı sosial yardım və təqaüd xərcləri üzrə minimum əməkhaqqı, minimum pensiya, minimum ehtiyac meyarı, yaşayış minimumunun artımları üçün müvafiq məbləğdə vəsait nəzərdə tutulub. Əhalinin sosial cəhətdən həssas qruplarının sosial müdafiəsinin gücləndirilməsinə xidmət edən sosial müdafiə və sosial təminat xərcləri üçün 4812,0 milyon manat vəsaitin ayrılması planlaşdırılır. Əhalinin gəlir əldə etmək imkanlarının artırılması, sosial cəhətdən həssas təbəqələrin sosial müdafiəsinin gücləndirilməsi üçün 2600,0 milyon manat vəsait nəzərdə tutulub. Bir sıra təqaüdlərin maliyyələşdirilməsi üçün 1943,0 milyon manat, ünvanlı dövlət sosial yardımların verilməsi üçün 457,0 milyon manat, Azərbaycan Respublikasının Məşğulluq Strategiyasının həyata keçirilməsinə dair 2022-2025-ci illər üzrə tədbirlərin planının icrası çərçivəsində 200,0 milyon manat vəsait proqnozlaşdırılır.

Bildirilib ki, büdcə layihəsində təhsil xərcləri 4946,1 milyon manat proqnozlaşdırılır və bu, 2024-cü illə müqayisədə 395,7 milyon manat və ya 8,7 faiz çoxdur. Elmin maliyyələşdirilməsi üçün 244,4 milyon manat vəsait proqnozlaşdırılır ki, bu da 2024-cü illə müqayisədə 8,3 milyon manat və ya 3,5 faiz çoxdur. Səhiyyə xərcləri üçün 1999,4 milyon manat vəsait nəzərdə tutulur ki, bu, 2024-cü illə müqayisədə 133,0 milyon manat və ya 7,1 faiz çoxdur. Mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi, gənclər siyasəti və bu qəbildən olan digər fəaliyyət sahələrinin maliyyələşdirilməsinə nəzərdə tutulan xərclərin dövlət büdcəsi xərclərinin tərkibində xüsusi çəkisi 1,5 faiz olmaqla 635,3 milyon manat təşkil edəcək.

Dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya) xərcləri üçün 2685,4 milyon manat nəzərdə tutulub. Tikinti, bərpa, yenidənqurma, əsaslı təmir və müxtəlif əsaslı alışların həyata keçirilməsi üçün 1662,3 milyon manat, kənd təsərrüfatı, mənzil və kommunal təsərrüfatı, ətraf mühitin mühafizəsi xərclərinə cəm olaraq 1953,8 milyon manat, nəqliyyat və rabitə xərcləri üçün 515,6 milyon manat vəsait ayrılacaq.

Vurğulanıb ki, 2025-ci ilin dövlət büdcəsinin layihəsində beynəlxalq münasibətlər, xarici yardımlar, Azərbaycan Respublikasının xaricdəki ticarət nümayəndələrinin saxlanılması və Azərbaycanın həmtəsisçisi olduğu beynəlxalq investisiya və inkişaf fondlarının nizamnamə kapitalından Azərbaycan tərəfinin payı ilə bağlı xərclər üzrə 754,2 milyon manat vəsait proqnozlaşdırılır.

Diqqətə çatdırılıb ki, 2025-ci ildə gəlirlər sahəsində həyata keçiriləcək əsas istiqamətlər ölkənin iqtisadi inkişafını sürətləndirmək, rəqabət qabiliyyətini gücləndirmək, investisiya mühitini daha cəlbedici etmək məqsədi daşıyır. Əsas prioritet istiqamətlər olaraq, investisiya mühitinin və sahibkarlıq fəaliyyətinin təşviq edilməsi, sahibkarlıq subyektlərinin vergi yükünün azaldılması, ekoloji təmiz və təhlükəsiz nəqliyyat vasitələrinin dövriyyəsinin stimullaşdırılması və infrastrukturunun təkmilləşdirilməsi istiqamətində işlərin davam etdirilməsi, vergi və gömrük inzibatçılığı mexanizminin həmçinin dövlət rüsumlarının idarə edilməsi sisteminin təkmilləşdirilməsi nəzərdə tutulur.

## Gəlirlər 2024-cü ilin proqnozu ilə müqayisədə 5,3 faiz çox olacaq

Layihəyə əsasən, 2025-ci il üçün dövlət büdcəsinin gəlirləri 38316,0 milyon manat proqnozlaşdırılır ki, bu da 2024-cü ilin proqnozu ilə müqayisədə 1928,0 milyon manat və yaxud 5,3 faiz çoxdur. Gəlirlərin 49 faizi və ya 18773,0 milyon manatı neft-qaz sektorunun, 51 faizi və ya 19543,0 milyon manatı qeyri-neft-qaz sektorunun payına düşür.

Növbəti ilin dövlət büdcəsi gəlirlərinin tərkib hissəsi olan yerli gəlirləri 795,0 milyon manat nəzərdə tutulur, büdcənin yerli xərcləri 800,3 milyon manat məbləğində proqnozlaşdırılır.

2025-ci il üçün dövlət büdcəsi kəsirinin yuxarı həddi 3051,6 milyon manat məbləğində nəzərdə tutulub. Dövlət büdcəsi kəsirinin ÜDM-də xüsusi çəkisi 2,4 faiz təşkil edəcək.

2025-ci il üçün icmal büdcəsinin gəlirləri 43910,5 milyon manat, xərcləri 47589, 4 milyon manat proqnozlaşdırılır, icmal büdcənin kəsiri isə 3678,9 milyon manat təşkil edəcək.

Sonra iclasda iqtisadiyyat nazirinin müavini Səməd Bəşirli çıxış edərək ölkədə həyata keçirilən sosial-iqtisadi inkişaf strategiyasının təmin edilməsi, makroiqtisadi sabitliyin və maliyyə dayanıqlılığının daha da möhkəmləndirilməsinin vacibliyini vurğulayıb. O, iqtisadi inkişaf və təhlükəsizlik sahəsində dövlət siyasətinin prioritetlərinin və məqsədlərinin həyata keçirilməsi üçün lazımi şəraitin yaradıldığını qeyd edib. Ölkə iqtisadiyyatında həyata keçirilən bəzi struktur islahatlar, özəl sektorun təşviqi, sahibkarlığa dəstək tədbirləri barədə söhbət açıb. Nazir müavini 2025-ci il və sonrakı üç il üzrə iqtisadi və sosial inkişaf konsepsiyası, habelə büdcənin gəlir və xərclərinə dair proqnoz göstəricilərlə bağlı fikirlərini bölüşüb.

## Daxili iqtisadi mühitdə müsbət dinamika müşahidə olunub

Sonra Mərkəzi Bankın sədri Taleh Kazımov 2025-ci il üzrə dövlət büdcəsinin layihəsinə münasibət bildirib. O, öncə cari ilin ötən dövrü üzrə qlobal iqtisadiyyatda və ölkədə daxili iqtisadi mühitdə baş verənlər barədə danışıb. Bildirib ki, cari ildə bir sıra amillər, xüsusilə də aparıcı iqtisadiyyatlarda həyata keçirilən sərt pul-kredit siyasəti, davam edən geosiyasi münaqişələr və geoiqtisadi parçalanmalar qlobal iqtisadiyyata da öz təsirini göstərib. Buna baxmayaraq, 2024-cü ildə qlobal iqtisadi artım davam edib, iqtisadi artım üzrə proqnozlarda nikbinlik müşahidə olunur.

Qeyd olunan xarici amillər cari ilin ötən dövründə ölkə iqtisadiyyatının xarici şəraitinə, yəni tədiyə balansına müsbət təsir göstərib. 6 ayda cari əməliyyatlar hesabında 2.6 milyard ABŞ dolları həcmində və ya ümumi daxili məhsulun 7.5 faizi səviyyəsində profisit yaranıb. 9 ayda xarici ticarət balansında müsbət saldo 5.2 milyard ABŞ dolları təşkil edib, strateji valyuta ehtiyatları 6.5 faiz artaraq 72.9 milyard ABŞ dollarını üstələyib. Mərkəzi Bankın rəhbəri qeyd edib ki, ümumilikdə valyuta bazarında sabitlik qorunub və xarici balans üzrə proqnozlar nikbindir.

Taleh Kazımov bildirib ki, daxili iqtisadi mühitdə də müsbət dinamika müşahidə olunub. Mərkəzi Bank tərəfindən real sektor üzrə həyata keçirilən monitorinqlər də iqtisadi aktivliyin müsbət zonada olduğunu göstərir. O, Mərkəzi Bankın iqtisadi artımın perspektivləri ilə bağlı gözləntilərinin də nikbin olduğunu deyib. Belə ki, bankın baza ssenari üzrə oktyabr proqnozuna əsasən, 2024-cü il üçün iqtisadi artımın 3.9 faiz, o cümlədən qeyri-neft-qaz sektoru üzrə 6.5 faiz olacağı proqnozlaşdırılır.

Bank sektorunun dayanıqlılığı və sabitliyi barədə göstəriciləri diqqətə çatdıran Mərkəzi Bankın sədri vurğulayıb ki, 2024-cü ildə də əhalinin və sahibkarların maliyyəyə çıxışının genişləndirilməsi diqqətdə saxlanılıb. Sığorta sektoru üzrə qeyd olunub ki, ötən ilin eyni dövrünə nəzərən 9 ayda sığorta haqları 9.4 faiz, sığorta ödənişləri isə 38.2 faiz artıb.

Gələn ilin büdcə layihəsi ilə bağlı danışanda Mərkəzi Bankın sədri bildirib ki, 2025-ci il və ortamüddətli dövrə təqdim edilən makro-fiskal çərçivə qarşıda duran əsas vəzifələrə cavab verir. Bura sosial rifahın gücləndirilməsi, iqtisadi inkişafın dəstəklənməsi, ölkənin müdafiə qabiliyyətinin artırılması və azad olunmuş ərazilərin bərpası daxildir. O, ortamüddətli dövr ərzində dövlət büdcəsinin fiskal qayda çərçivəsində tərtibini və büdcə qaydasında müəyyən olunmuş meyarların gözlənilməsini müsbət qiymətləndirib.

Mərkəzi Bankın sədri 2025-ci ildə də Mərkəzi Bankın pul siyasətinin əsas məqsədinin öz səlahiyyətləri çərçivəsində 12 aylıq inflyasiyanın hədəf dəhlizi daxilində (4±2%) formalaşmasını təmin etmək olduğunu deyib. O bildirib ki, 2025-ci ildə də makroiqtisadi sabitliyin əsas lövbəri məzənnə sabitliyi olacaq. Tədiyə balansının profisitli olması valyuta bazarında tarazlığı dəstəkləyən başlıca amil təşkil edəcək.

Taleh Kazımov diqqətə çatdırıb ki, növbəti ildə ölkədə maliyyə dərinliyinin artırılması, maliyyə sabitliyinin qorunması, rəqəmsal ödənişlərin genişləndirilməsi, maliyyə xidmətləri istehlakçılarının hüquqlarının müdafiəsi və digər məsələlər növbəti ildə də Mərkəzi Bankın prioritetləri olacaq.

Sonra Dövlət Gömrük Komitəsi sədrinin müavini Natiq Şirinov 2025-ci ilin dövlət büdcə daxilolmalarında gömrük orqanlarının üzərinə düşən vəzifələrin təmin olunması işlərindən söz açıb, idxal həcmlərinin proqnozlaşdırılmasında nəzərə alınan parametrlərdən bəhs edib, idxalın strukturu, idxalın strukturundakı daxilolmalardan azadolmalar barədə danışıb. O, gələn ilin büdcəsində gömrük daxilolmalarını dəyərləndirib, vurğulayıb ki, təmsil etdiyi qurumda tətbiq olunan süni intellekt kimi yeni texnologiyalar gömrük inzibatçılığını yeni səviyyəyə qaldıraraq növbəti il üçün müəyyən olunmuş gömrük yığımlarının artıqlaması ilə icrasına öz töhfəsini verəcək.

Hesablama Palatasının sədri Vüqar Gülməmmədov Azərbaycan Respublikasının 2025-ci il üçün dövlət büdcəsi layihəsinə dair Palatanın rəyini səsləndirib. O, büdcə parametrlərini formalaşdıran makroiqtisadi proqnozlar, habelə büdcə parametrlərinin layihələndirildiyi dövrdə ölkədə makroiqtisadi meyillər barədə söhbət açıb. Büdcə zərfinə daxil edilən sənəd və göstəricilərin "Büdcə sistemi haqqında" qanuna, büdcə zərfinin "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"na uyğun olduğunu, büdcə sənədləşməsinin beynəlxalq təcrübəyə əsaslandığını deyib.

Palata sədri fiskal risklər, icmal büdcənin təhlili, ortamüddətli büdcə planlaşdırılması ilə bağlı qeydlərini açıqlayıb. Dövlət büdcəsi gəlirlərinin və xərclərinin 2024-cü ilin 8 ayında icra vəziyyəti, 2025-ci il üçün gəlir və xərclərin, habelə büdcə kəsiri və kəsirin maliyyələşdirilməsinin təhlilini təqdim edib, Palatanın bəzi tövsiyələrini diqqətə çatdırıb.

## Qanun layihəsi birinci oxunuşda Milli Məclisin plenar iclasına tövsiyə edilib

Məsələ ətrafında müzakirələrdə komitə üzvləri Ziyad Səmədzadə, Tahir Mirkişili, Heydər Əsədov, Əli Məsimli, Vüqar Bayramov, Aydın Hüseynov, Rövşən Muradov, deputatlar - Azərbaycan Demokratik İslahatlar Partiyasının sədri Asim Mollazadə, Azərbaycan Milli İstiqlal Partiyasının sədri Arzuxan Əli-zadə, Milli Cəbhə Partiyasının sədri Razi Nurullayev çıxış ediblər, növbəti ilin dövlət büdcəsi layihəsi ilə bağlı fikirlərini, rəy və təkliflərini bildiriblər, bəzi suallarını səsləndiriblər.

İclasda deputatların qaldırdıqları məsələlərə aydınlıq gətirilib, səsləndirdikləri sualları cavablandırılıb.

Müzakirələrin sonunda "Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsi haqqında" qanun layihəsi birinci oxunuşda Milli Məclisin plenar iclasına tövsiyə edilib.

İclasda komitə üzvləri Müşfiq Cəfərov, Məşhur Məmmədov, Zaur Şükürov, deputatlar - Ana Vətən Partiyasının təmsilçisi Günay Ağamalı, Böyük Azərbaycan Partiyasının sədri Elşad Musayev, aidiyyəti qurumların struktur bölmələrinin rəhbərləri və digər rəsmi şəxslər iştirak ediblər.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

## XİN Milli Azlıqların Müdafiəsi haqqında Çərçivə Konvensiyasının Azərbaycan tərəfindən icrasına dair Məşvərət Komitəsinin Beşinci Rəyini şərh edib

Azərbaycan Respublikası Milli Azlıqların Müdafiəsi haqqında Çərçivə Konvensiyasına fəal, məsuliyyətli tərəf kimi və bütün dünyada etnik, mədəni, dil, dini tolerantlığın və etimadın təşviqi fəaliyyətləri ilə çox yaxşı tanınan ölkə olaraq monitorinqin beşinci dövrü ərzində Çərçivə Konvensiyasının Məşvərət Komitəsi ilə yaxından əməkdaşlıq edib. Bu dövr üzrə hesabat təqdim olunduqdan sonra komitənin nümayəndə heyəti Azərbaycana səfər edib, çoxsaylı aidiyyəti dövlət qurumlarının təmsilçiləri ilə yanaşı, regionlarda milli azlıqların nümayəndələri ilə görüşüb, İnsan Hüquqları üzrə Müvəkkilin (Ombudsman) Aparatında və milli azlıqların QHT-ləri ilə görüşlər keçirib.

Noyabrın 18-də dərc olunmuş Məşvərət Komitəsinin Beşinci Rəyində konvensiyanın həyata keçirilməsində hökumətin göstərdiyi səylərin qeyd edilməsinə baxmayaraq, rəydəki bir sıra mülahizələrin əsassızlığı və ölkədəki reallıqları dəqiqliklə əks etdirməməsi komitənin tətbiq etdiyi müəyyən yanaşmaya dair ciddi suallar doğurur. Rəydə bir çox müsbət milli nailiyyətlərə, uğurlu milli siyasətlərə, islahat və təşəbbüslərə diqqət yetirilməyib və onlara etinasız yanaşılıb.

Bu barədə AZƏRTAC-a Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən məlumat verilib.

Bildirilib ki, bundan əlavə, 2023-cü ilin sentyabrında antiterror tədbirlərindən sonra baş verən inkişaflara dair rəydə yer alan əsasən siyasiləşdirilmiş iddialar beşinci monitorinq dövrünün müddətinin çərçivəsindən kənara çıxır. Azərbaycanın Beşinci Dövlət Hesabatında 2017-2022-ci illər üzrə müddətə aid müvafiq məlumatların yer alması, habelə davam edən hərbi işğal və respublikamızın erməniəsilli şəxslərin yaşadığı ərazilər üzərində qanuni suveren nəzarətinin olmamasına görə konvensiyanın hesabatın əhatə etdiyi dövr ərzində həyata keçirilə bilmədiyinə dair qeydlərin həmin hesabatda əksini tapması Məşvərət Komitəsinin sözügedən iddialarının konvensiyanın konkret müddət çərçivəsində icrasını qiymətləndirmək üçün verilən mandatdan kənara çıxdığını göstərir.

Azərbaycan ərazilərinin bir hissəsində, bu ərazilərdə suveren nəzarətin həyata keçirilməsinə və oradakı erməniəsilli şəxslərə münasibətdə Çərçivə Konvensiyasının müddəalarının tam tətbiqinə mane olan hərbi işğalın aradan qaldırılmasının ardınca postmünaqişə dövrü üçün nəzərdə tutulan həssas səylərin planlaşdırma mərhələsində olduğu bir məqamda Məşvərət Komitəsi mühakimə yürütməyə tələsməməli və kifayət qədər kövrək olan prosesə əngəl törətməmək məqsədilə lazımi qədər ehtiyatlı davranmalı idi.

Komitənin öz qiymətləndirməsinin əhatə dairəsini ona tapşırılan müddət çərçivəsindən birtərəfli qaydada kənara çıxararaq siyasi motivli və qərəzli yanaşmadan xəbər verən fərqli yol tutması təəssüf doğurur.

Məşvərət Komitəsinin digər etnik qruplara etinasızlıq göstərildiyi halda, erməni etnik qrupunu diqqət mərkəzində saxlayan seçici yanaşması və müvafiq misallar göstərmədən naməlum mənbələrdən alınan məlumatlara həddən artıq əsaslanması sözügedən komitənin qeyri-obyektiv yanaşmasını daha aydın nümayiş etdirir.

Beynəlxalq Ədalət Məhkəməsinin müvafiq qərarlarının yanlış təfsiri və Avropa Şurasının insan hüquqları üzrə komissarının rəyindən əhəmiyyətli dərəcədə fərqlənən qiymətləndirmələr də daxil olmaqla, komitənin təcrübə sahəsinə və mandatına aid olmayan məsələlərə (misal üçün, Laçın yolu ətrafında vəziyyət və ya etnik ermənilərin Qarabağ bölgəsindən Ermənistana köçməsi) dair bir çox yalan iddialar qəbuledilməzdir.

Çərçivə Konvensiyasının təkcə milli azlıqlara mənsub şəxslərin hüquqlarının müdafiəsinin təmin edilməsini nəzərdə tutmadığı, eyni zamanda qanunun aliliyinə və əlaqədar dövlətlərin suverenliyinə, ərazi bütövlüyünə, konstitusiya quruluşuna hörmət edilməsinin zəruriliyinə əsaslandığı həmçinin bir daha qeyd olunmalıdır. Buna baxmayaraq, rəydə birtərəfli qaydada erməni sakinlərinin hüquqlarının müdafiəsinin zəruriliyi qeyd edilir, həmin kateqoriyaya aid olan şəxslərin Azərbaycanın qanunvericiliyinə əməl etmək öhdəliyinə isə məhəl qoyulmur.

Böyük narahatlıq doğuran digər məsələ standartların üzv dövlətlərə münasibətdə qeyri-düzgün tətbiqidir. Azlıqların hüquqları ilə əlaqədar bənzər vəziyyətlərdə olmalarına baxmayaraq, bəzi ölkələrə fərqli münasibətin göstərilməsi təəssüf doğurur. Etnik təmizləmə siyasəti nəticəsində Ermənistanda öz doğma yurdlarından zorla qovulmuş azərbaycanlıların hüquqlarına komitə tərəfindən etinasızlıq nümayiş etdirilməkdədir.

Bundan əlavə, ölkədə insan hüquqlarının ümumi vəziyyətinin qiymətləndirilməsinin aparılması Məşvərət Komitəsinin mandatından və Konvensiyanın əhatə dairəsindən kənara çıxılması deməkdir və bu qiymətləndirmənin rəyin məqsəd və hədəfləri ilə əlaqəsi yoxdur. Bu baxımdan, Məşvərət Komitəsinin Media haqqında və QHT-lər haqqında qanunlara yenidən baxılmasına dair çağırışı qeyri-adekvatdır və uyğun deyil.

Vətəndaşları üçün insan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi, layiqli yaşayış səviyyəsinin təmin edilməsi dövlətin ali məqsədidir. Azərbaycanda bu istiqamətdə ardıcıl tədbirlər həyata keçirilib və hazırda da həyata keçirilir.

COP29 Baku Azerbaijan

# REGİONLAR

## Naxçıvan MR-də bu il 17 min 523 nəfər sosial müavinətlə təmin edilib

**10 ayda Naxçıvan MR Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondu tərəfindən 16 min 693 nəfər Prezidentin aylıq təqaüdü, 17 min 523 nəfər sosial müavinətlə təmin edilib.**

Nazirliyin Mətbuat xidmətindən AZƏRTAC-ın Naxçıvan bürosuna bildirilib ki, həmin dövrdə əhaliyə Prezident təqaüdləri üzrə 23 milyon 466 min 811 manat, sosial müavinətlər üzrə 34 milyon 405 min 386 manat ödənilib.

## "Qışlaqda bir gün" yaddaqalan oldu

**Goranboy Rayon İcra Hakimiyyəti və Gəncə-Daşkəsən Regional Mədəniyyət İdarəsinin təşkilatçılığı ilə rayonun Yeniyol kəndi ərazisində yerləşən qışlaq sahəsində "Qışlaqda bir gün" adlı tədbir keçirilmişdir.**

Rayon rəhbərliyinin, hüquq-mühafizə orqanlarının və xidmət sahələri işçilərinin, kənd ictimaiyyəti nümayəndələrinin, yerli fermerlərin iştirakı ilə keçirilən tədbirdə kənd təsərrüfatı sərgisi və milli kulinariya nümunələri təqdim olunmuşdur. İştirakçılar südün bişirilməsi və süd məhsulları - motal, pendir, qatıq, süzmə, şor, kəsmik, qaymaq, xama, çiyə, atlama, nəhrənin çalxalanaraq yağın alınması, təndir çörəyi, kətə və yuxanın bişirilməsi, eləcə də çoban yeməklərinin-qovurma, xaşıl, südlü aş, əvəlik şorbası, yayma, kirkirə ilə un hazırlanması, müxtəlif növ dağ çiçəkləri, mürəbbələr və meyvə şirələri, arı yeşikləri və bal, yundan ip alınması, cəhrə əyirmə və xalça toxunması, uşaq yürgəyi-nənni, dəmirçi, at nalının və at yəhərinin hazırlanmasına maraqla baxmışlar. Keçirilən at yarışı da iştirakçılar tərəfindən maraqla qarşılanmışdır.



"Qışlaqda bir gün" Gəncə Dövlət Filarmoniyasının və rayon mədəniyyət evlərində fəaliyyət göstərən incəsənət ustalarının çıxışları ilə başa çatmışdır.

*S.ƏLİYEV, "Azərbaycan"*

## Bolluq fəslinin qayğıları da az olmur

### Amma ağstafalı fermerlər bu qayğıları gündəlik təsərrüfat işləri hesab edirlər

**Dünyada təbii ehtiyatların tükəndiyi bir vaxtda əhalinin ərzaq təhlükəsizliyi məsələsi daha kəskin şəkildə özünü göstərir. Belə bir şəraitdə daxili bazarın idxaldan asılılığının aradan qaldırılması üçün yerli istehsalın inkişafı önə çıxır. Bu baxımdan ölkəmizdə aqrar sektorun inkişafı istiqamətində atılan addımların, aparılan islahatların əhəmiyyəti əvəzsizdir.**



Söz yox ki, bu işdə rayonlarda fəaliyyət göstərən Aqrar İnkişaf mərkəzlərinin üzərinə böyük vəzifələr düşür. Həmin vəzifələrin yerinə yetirilməsi ilə bağlı görülən işlərlə tanış olmaq üçün Ağstafa Aqrar İnkişaf Mərkəzinə müraciət etdik. Öyrəndik ki, rayonda 2024-cü ili də yüksək göstəricilərlə yola salmaq üçün bütün imkanlar səfərbər olunmuşdur. Bunun sayəsində kənd təsərrüfatının bütün sahələri üzrə yüksək göstəricilər əldə edilmişdir.

Hazırda rayonda əkinəyararlı 21 min 649 hektar torpaq sahəsi var. Mövcud əkin sahələrinin 8 min 512,1 hektarında taxıl əkilir ki, onun da 5734,5 hektarı buğda, 2 min 777 hektarı arpadır. Əvvəlki illərdə olduğu kimi, bu il də taxılçılar nisbətən yüksək məhsuldarlığa nail olmuşlar - zəmilərin hər hektarından 34,2 sentner məhsul biçmişlər.

Kənd təsərrüfatının digər sahələrində də göstəricilər pis olmamışdır. Belə ki, 477,3 hektarda qarğıdalı, 1408 hektarda günəbaxan, 673 hektarda kartof əkilmiş, sahələrdən bol məhsul götürülmüşdür. Təkcə kartof sahələrinin hər hektarından 300 sentnerə yaxın məhsul yığılmışdır.

Ağstafanın iqlim şəraiti arıçılığın inkişafı üçün əlverişlidir. Bundan maksimum istifadə etməyə çalışan arıçılar hər il bal istehsalını artırırlar. Hazırda rayonda 347 nəfər 7500 arı ailəsi saxlayır. Cari ilin ötən dövrü ərzində onlar 20 tona yaxın bal əldə etmişlər. Sadıqlı, Muğanlı, Köçəsgər, Dağ Kəsəmən kəndlərinin sakinləri daha çox fərqlənmişlər. Ümumiyyətlə, rayonda elə bir kənd yoxdur ki, orada arı saxlamasınlar. İstehsal edilən balın satışında da problem olmur. Arıçılar məhsullarının xeyli hissəsini Bakıda təşkil olunan yarmarkada satırlar.

Rayonda iqtisadi cəhətdən səmərəli olan üzümçülük də inkişafdan qalmır. Bu sahəyə hökumət tərəfindən verilən dəstək sayəsində Ağstafada daha məhsuldar üzüm sortlarından ibarət yeni bağlar salınır. Hazırda rayonda 500,9 hektar üzüm bağı var ki, onun da 497,9 hektarı bar verən, 3 hektarı yeni salınan bağlardır. Hazırda bağlarda son yığım gedir. Keçən ildən fərqli olaraq bu il məhsuldarlıq daha çoxdur. Hər hektardan 157,1 sentner olmaqla indiyədək 7 min 822 tondan çox məhsul yığılmışdır.

Heyvandarlığa gəldikdə, son məlumata görə, Ağstafada 25,5 min baş qaramal, 14 min baş davar var. Cins mal-qaranın tərkibini yaxşılaşdırmaq üçün rayonda geniş imkanlar açılmışdır. Təkcə cari ilin ötən dövrü ərzində 100-ə yaxın təsərrüfat sahibi süni yolla alınmış balaya görə subsidiya almışdır.

Kənd təsərrüfatının gəlirli sahələrindən olan baramaçılığa da maraq çoxdur. Bunu rəqəmlər sübut edir: bu il rayon üzrə 25 kənddə 60 kümçü 110 qutu barama qurdu götürmüş və 3 min 267 kiloqram yaş barama təhvil vermişlər ki, bu da ilk növbədə yaxşı qazanc deməkdir.

Hazırda ağstafalılar kənd təsərrüfatı məhsullarının son yığımı ilə məşğuldurlar. Çalışırlar ki, zəhmətlə yetişdirdikləri məhsulları yağmurlar başlayanadək yığıb qurtarsınlar.

*Sabir ƏLİYEV, "Azərbaycan"*

## Qazaxda bir gündə 5 min ağac əkilmişdir

**Qazax Rayon İcra Hakimiyyəti və 2 saylı Regional Meşə Təsərrüfatı Mərkəzinin birgə təşkilatçılığı ilə rayonun Yuxarı Salahlı kəndində "Türk dövlətləri milli ağaclandırma günü"nə həsr olunmuş ağacəkmə aksiyası keçirilmişdir.**

Rayon rəhbərliyinin, 2 saylı Regional Meşə Təsərrüfatı Mərkəzi işçilərinin, Qazax RİH yanında Gənclərin Yerli Məşvərət Şurası üzvlərinin, eləcə də kənd icra nümayəndələrinin iştirak etdikləri aksiyada 2500 sərv və 2500 Eldar şamı olmaqla 5000 ağac əkilmişdir.

Ətraf mühitin və ekoloji tarazlığın qorunmasına, yaşıllıqların artırılmasına dəstək verilməsi, eləcə də vətəndaşlar arasında ekoloji mədəniyyətin, təbiətə qayğı hissinin təbliğ edilməsi məqsədilə təşkil olunmuş aksiyada 100 nəfərdən artıq adam işirak etmişdir.



*"Azərbaycan"*

## RİH müraciət etdi, kənd xeyriyyəçiləri biganə qalmadı

**Bu yaxınlarda Masallı rayonunun Böyük Xocavar kəndində Şəlalə Həsənovaya məxsus ümumi sahəsi 120 kvadratmetr olan fərdi yaşayış evində yanğın baş vermişdir.**

Yanğın nəticəsində evin 80 kvadratmetr hissəsi tamamilə yararsız hala düşmüşdür. Onu da qeyd edək ki, Ş.Həsənova aztəminatlıdır. O, hazırda yaşadığı kəndin orta məktəbində xadimə işləyir.

Ş.Həsənovanın belə vəziyyətdə təzə ev tikməyə imkanı olmadığını nəzərə alan Masallı Rayon İcra Hakimiyyətinin təşəbbüsü ilə yanmış evin təmiri üçün Böyük Xocavar kənd xeyriyyəçiləri tərəfindən yardım aksiyası başlanılmışdır. Qısa vaxtda toplanan vəsait hesabına Şəlalə Həsənova üçün yeni evin tikintisinə başlanmışdır. Xeyriyyə aksiyası isə davam edir. Böyük Xocavarın bütün xeyirxah sakinləri həmkəndlilərinə kömək üçün səfərbər olmuşlar.

Qeyd edək ki, Ş.Həsənovanın həyat yoldaşı 2022-ci ildə vəfat etmişdir. Ananın himayəsində bir övladı var.

*"Azərbaycan"*

## Fermerlərin də COP29-dan gözləntiləri çoxdur

**Kənd təsərrüfatının iqlimlə bağlı sahə olduğu hamıya bəllidir. Bu barədə hətta çox sayda atalar sözləri, zərbi-məsəllər var. Məsələn, "Yağmadı yağış, bitmədi qamış" kimi...**



Yağış demişkən, su problemi son illər xüsusən aran rayonlarında özünü daha qabarıq göstərir. Kür çayında suyun ildən-ilə azalması aran zonasındakı fermerlər üçün böyük çətinliklər yaradır. Təxminən 10-15 il əvvəl xüsusilə yaz aylarında aşıb-daşan, məcrasına sığmayan bu çay indi az qala ilin bütün fəsillərində miskin halda olur. Kür çayının axarlı-baxarlı vaxtlarında yazmışdım:

*Kür ana yurdumun şah damarıdır,*
*Yüz eldən, obadan dolanıb keçir.*
*Pambıqlı, taxıllı geniş tarlalar*
*Onun ovucundan su alıb içir.*

Bəli, 2010-cu ilə qədər desələr inanmazdıq ki, nə vaxtsa Kür çayında su azala bilər. Amma həqiqət belədir ki, indi biz belə bir acı aqibəti yaşayırıq. Həyat mənbəyimiz olan su hər yerdə olduğu kimi, adı "xasiyyət"indən yaranan bu çayda da ildən-ilə azalır. Zərbəsi isə ilk növbədə kəndliyə, əkinçi-fermerə dəyir. Min bir arzu, istəklə əkin apardığı, aylarla zəhmətini çəkdiyi tarladan istədiyi məhsulu götürə bilməyən əkinçi təsərrüfat ilini ziyanla başa vurur.

Salyan rayonunun Şorsulu kəndindən olan Ələsgər Eyvazov deyir ki, son illər baş verən iqlim dəyişikliyi ona böyük maddi ziyan vurur: "İxtisasca aqronomam və əsasən pambıq və taxıl əkib-becərməklə məşğulam. Yadıma gəlir ki, əvvəllər - təxminən 25 il bundan öncə çiyid səpinini mart ayının 25-də başlayıb, ən geci aprelin ikinci ongünlüyünün sonunadək başa çatdırardıq. İqlimin dəyişməsi, yazın ləngiməsi səbəbindən bu iş indi təxminən bir ay gec aparılır. Bununla yanaşı, iqlim şəraiti adamı aldada da bilir. Məsələn, cari ilin aprel ayı havalar isti keçdi. Pambıqçılar bundan istifadə edərək səpini qısa vaxtda başa vurdular. Lakin may ayında havaların soyuması çəkilən zəhməti, qoyulan xərci heçə çıxardı. Torpaqda lazım olan temperatur yaranmadığından səpilən çiyid çıxış vermədi. Bir çox fermer təkrar səpin aparmalı oldu. Bu isə əlavə xərc və zəhmət deməkdir. Kür çayında suyun az olması ucbatından mən və mənim kimi başqa fermerlər də çətinliklə üzləşdik. İkinci suvarmanı vaxtında apara bilmədiyimiz üçün kolların gücü çatmadı ki, gülü-darağı, formalaşmış qozaları üstündə saxlasın, çoxusunu yerə tökdü. Sentyabr ayı gəlib çatdı. Əvvəllər avqust ayının 25-dən pambıq yığımı başlayar və noyabrın 7-dək başa çatardı. Pambığı şumlayıb yerinə taxıl əkərdik. Cari il isə yığıma sentyabrın sonunda başlanıldı. Bu da pambığın gec yetişməsi ilə bağlıdır. Hazırda çoxları heç birinci əl pambıq yığımını aparmayıb. Görünür, ilin sonuna qədər pambıq yığımı davam edəcək. Bakıda hazırda iqlim məsələləri ilə əlaqədar beynəlxalq tədbir - COP29 keçirilir. Arzumuz odur ki, ölkələr, onların liderləri iqlim dəyişmələrinin qarşısının alınması üçün təcili və təsirli tədbirlər görsünlər".

Neftçala rayonunun Qarabucaq kəndindən olan qabaqcıl fermer İmaməddin Dadaşovun da fikri həmkarının sözləri ilə üst-üstə düşür: "Ağlım kəsəndən kənd təsərrüfatı ilə məşğulam. Çörəyim torpaqdan çıxır. Son illər baş verən iqlim dəyişmələri hamı kimi məni də narahat edir. Ölkəmizdə kənd təsərrüfatının inkişafı ilə bağlı çox işlər görülür. Müasir texnika, elit toxumlar, mineral gübrələr və s. sarıdan heç bir çətinliyimiz yoxdur. Lakin təbiətdə baş verən hadisələr bizi çaşdırır, işimizə mane olur. Məlum məsələdir ki, bitkinin inkişafı, onun yaxşı bar verməsi üçün su başlıca şərtdir. Kür çayında isə su getdikcə azalır. Su nasosları bəzən çaydan su götürə bilmir. Mən heç vaxt görməmişdim ki, kanaldan mazutla işləyən nasosla su götürüb sahəni suvarasan. Ancaq son illər bu vəziyyət adi hal olub. İndi suvarma suyu üçün növbələr yaranır. Vəziyyətlə əlaqədar fermerlər arasında bəzən narazılıqlar, mübahisələr düşür. Bakıda keçirilən COP29 tədbirini izləyirəm. İstəyim budur ki, dünya ölkələri bu həyati əhəmiyyətli məsələni yoluna qoysunlar. Hər kəs ana təbiət qarşısında borcunu, vəzifəsini başa düşsün".

Sonda onu qeyd edək ki, "Ana Kür" dediyimiz çayda suyun kəskin azalması "Quruma, Kür çayı" şeirinin yaranmasına vəsilə olmuşdur. Yazını o şeirdən bir parça ilə bitiririk:

*Bu necə görkəmdi, bu necə haldı?*
*Salmısan hər yana ahı, harayı.*
*Nisgilin qəlbimdə dərin iz saldı,*
*Quruma, amandı, sən ey Kür çayı.*

*Seyran CAVADOV, "Azərbaycan"*

## Bu COP günləri Gəncə daha abad və daha təmizdir

**Gəncə Mənzil Kommunal Təsərrüfatı İstehsalat Birliyinin kollektivi şəhərin müxtəlif ərazilərində güclü küləklər nəticəsində baş vermiş dağıntıları aradan qaldırmaq, küçə və prospektlərdə kompleks təmizlik işləri həyata keçirmək üçün işlərə başlamışdır.**



Güclü külək nəticəsində şəhərin bir sıra ərazilərində yararsız hala düşmüş dam örtükləri yenidən bərpa edilir, çoxmənzilli yaşayış binalarında və fərdi yaşayış evlərində təmir-bərpa işləri aparılır. Artıq 4 evin dam örtüyü yenidən yığılmışdır. Bir sıra prospekt və küçələrdəki yaşayış binalarının isə dam örtüyü təmir olunmuşdur.

Görülən tədbirlər çərçivəsində Gəncəçayın məcrası boyu və çayın üzərindəki körpülərin ətrafında da təmizlik işləri aparılır. Çay sel sularının gətirdiyi ağac qırıntıları və alaq otlarından təmizlənir.

Şəhərdə abadlıq və təmizlik işləri davam edir.

## Şəmkir həm də beynəlmiləl rayondur

**Şəmkir Rayon İcra Hakimiyyətində rayonda yaşayan azsaylı xalqların nümayəndələri ilə görüş keçirilmişdir.**

Görüşü giriş sözü ilə rayon icra hakimiyyətinin başçısı Rəşad Tağıyev açaraq bildirib ki, Azərbaycan müxtəlif millətlərə və dinlərə məxsus insanların birgə yaşadığı ölkə olmaqla yanaşı, həm də mədəniyyətlər və sivilizasiyalararası dialoqa açıq dövlətdir: "Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu multikulturalizm siyasəti hazırda Prezident cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ölkəmizdə yaşayan bütün azsaylı xalqların nümayəndələri Azərbaycanın hər yerində olduğu kimi, Şəmkir rayonunda da mehriban münasibətlər şəraitində yaşayırlar və onların dilinə, mədəniyyətinə, adət-ənənələrinə hörmətlə yanaşılır".

Sonra RİH başçısı görüş iştirakçılarının istək və təkliflərini dinləmişdir. Qaldırılan məsələlər qeydiyyata alınmış və onların həlli üçün tapşırıqlar verilmişdir.

*S.YUNİSOĞLU, "Azərbaycan"*

COP29 Baku Azerbaijan

# Lənkəranda "Yaşıl dünya naminə ekofestival" keçirilib













**Lənkəran Şəhər İcra Hakimiyyəti (ŞİH), Dövlət Turizm Agentliyinin Lənkəran Regional Turizm İdarəsi və Lənkəran Dövlət Peşə Mərkəzinin birgə təşkilatçılığı ilə Qala xiyabanında "Yaşıl dünya naminə ekofestival" keçirilib.**



Rayonda fəaliyyət göstərən sənaye, kənd təsərrüfatı emalı müəssisələri, milli parklar, mədəniyyət, idman, turizm, orta və peşə təhsili müəssisələri hər biri öz pavilyonları ilə festivala qatılıblar. Festivalda yerli istehsal və emal müəssisələrinin çoxçeşidli məhsulları, ayrı-ayrı təsərrüfatlarda yetişdirilən ekoloji cəhətdən təmiz məhsullar, milli və yerli mətbəx nümunələri, sitrus meyvələri, çay, yerli sənətkarların əl işlərindən ibarət məhsullar nümayiş olunub, "Nənələr" və "Babalar" folklor rəqs qrupları və digər musiqi kollektivlərinin ifasında bədii proqram təqdim edilib. Festival çoxsaylı yerli və xarici turistlər tərəfindən böyük maraqla qarşılanıb. Onlar yerli mədəniyyət, folklor, incəsənət və mətbəximizin nümunələri ilə tanış olublar.

Ekofestivalı ziyarət edən şəhər rəhbərliyi BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının ölkəmizdə keçirilməsinin əhəmiyyəti barədə danışıb. Bildirilib ki, ölkəmizin zəngin və həssas biomüxtəlifliyinin mühafizəsi, yaşıllıqların artırılması, bərpası və ətraf mühitin qorunması naminə görülən işlərdə fəal iştirak etmək və ətraf mühitin mühafizəsinə daha diqqətlə yanaşmaq olduqca vacibdir.

*Seyran CAVADOV,*
*"Azərbaycan"*

# Hava dəyişkən buludlu olacaq

Azərbaycanda noyabrın 19-na gözlənilən hava proqnozu açıqlanıb.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, günün birinci yarısında bəzi yerlərdə fasilələrlə yağış yağacağı gözlənilir. Yarımadanın bəzi yerlərində yağıntının qısamüddətli leysan xarakterli olacağı ehtimalı var. Cənub-şərq küləyi əsəcək. Havanın temperaturu gecə 9-11° isti, gündüz 12-16° isti olacaq. Atmosfer təzyiqi 761 millimetr civə sütunundan 764 millimetr civə sütununa enəcək. Nisbi rütubət 70-80 faiz təşkil edəcək.

Naxçıvan şəhərində, Culfa, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin axşama doğru tədricən kəsiləcək. Arabir duman olacaq, şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 2° şaxtadan 3°-dək isti, gündüz 10-15° isti olacağı proqnozlaşdırılır.

Xankəndi şəhərində, Şuşa, Xocalı, Xocavənd, Füzuli, Ağdam, həmçinin Daşkəsən, Gədəbəy, Göygöl rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin axşam bəzi yerlərdə havanın arabir yağıntılı olacağı, dağlıq ərazilərdə sulu qara keçəcəyi gözlənilir. Arabir duman olacaq, şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 0-5° isti, bəzi yerlərdə 3°-dək şaxta, gündüz 5-10° isti olacağı bildirilir.

Şərqi Zəngəzur: Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın, Zəngilan rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin axşam bəzi dağlıq ərazilərdə qısamüddətli az yağıntılı olacağı, qar yağacağı ehtimalı var. Arabir duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 1-5° isti, dağlıq ərazilərdə 3° şaxta, gündüz 8-13° isti olacağı ehtimal edilir.

Gəncə və Naftalan şəhərlərində, Qazax, Samux, Goranboy, Tərtər, Şəmkir, Tovuz rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin axşam bəzi dağlıq ərazilərdə qısamüddətli yağıntılı olacağı gözlənilir. Arabir duman olacaq, şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 2-6°, gündüz 11-15° isti olacağı ehtimalı var.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gecə və səhər bəzi yerlərdə duman, çiskin olacağı ehtimalı var. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 0-5°, gündüz 10-15° isti, dağlarda gecə 2-5° şaxta, gündüz 2-3° isti olacağı gözlənilir.

Mingəçevir və Şirvan şəhərlərində, Yevlax, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Bərdə, Beyləqan, Sabirabad, Saatlı, Göyçay, Ucar, Hacıqabul, Zərdab, Salyan, Neftçala rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin səhər bəzi şərq rayonlarında qısamüddətli leysan xarakterli yağış yağacağı gözlənilir. Arabir duman olacaq, şərq küləyi əsəcək. Havanın temperaturu gecə 4-8°, gündüz 14-18° isti olacaq.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara, Biləsuvar, Cəlilabad rayonlarının bəzi yerlərində havanın arabir yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə yağıntının qısamüddətli leysan xarakterli olacağı ehtimalı var. Gündüz yağıntılar tədricən kəsiləcək. Arabir duman olacaq, şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 5-9°, gündüz 12-16°, dağlarda gecə 3-5°, gündüz 7-11° isti olacağı proqnozlaşdırılır.


## OXUCULARIN VƏ MƏTBUATYAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*

*2024-cü il üçün abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**


RƏSMİ DÖVLƏT QƏZETİ
AZƏRBAYCAN
İlham Əliyevin sülh və əməkdaşlıq missiyası
Azərbaycanın "yaşıl gündəliyi" dünya liderləri tərəfindən böyük etimad qazandı və təqdir olundu
Azərbaycan COP-un ən mühüm sammitlərindən birinə evsahibliyi edir
Əl-Əzhərin Şeyxi, Müsəlman Ağsaqqalları Şurasının sədri Əhməd Əl-Tayyib Həzrətlərinə
Ədalətli əməkdaşlıq və real tədbirlər
Naxçıvandan Xankəndiyə və... COP29-a
Azərbaycan pavilyonu: COP29-un ən maraqlı ziyarət məkanı

**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*


# Azərbaycanlı dirijor Latviyada uğurla çıxış edib

**Azərbaycanın Latviyadakı səfirliyinin dəstəyi ilə Latviya Milli Opera və Balet Teatrının səhnəsində Azərbaycan və Latviya arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyi münasibətilə məşhur italyan bəstəkarı Cakomo Puççininin "Toska" operasının tamaşası uğurla keçirilib.**



Azərbaycanın Latviyadakı səfirliyindən AZƏRTAC-a bildirilib ki, tamaşanı müşayiət edən orkestrə Azərbaycanın Əməkdar artisti, Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının baş dirijoru Əyyub Quliyev rəhbərlik edib. Ə.Quliyevin idarə etdiyi orkestrin professional ifaları xüsusilə diqqəti cəlb edib.

Anşlaqla baş tutan tamaşada solistlərin ifaları alqışlarla qarşılanıb. Qonaqlar sırasında Azərbaycanın Latviyadakı səfiri Elnur Sultanov, Azərbaycan-Latviya Hökumətlərarası Komissiyasının Latviya tərəfindən həmsədri, kənd təsərrüfatı naziri Armands Krauze, Latviya Seyminin komitə sədrləri, dövlət qurumlarının rəsmiləri, Latviyada akkreditə olunmuş xarici ölkələrin səfirləri, tanınmış ictimai və mədəniyyət xadimləri olublar.


«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

Qəzetin daim yenilənən rəsmi internet ünvanı: www.azerbaijan-news.az


## ALLAH RƏHMƏT ELƏSİN!

Milli Məclisin rəhbərliyi, deputatlar, Parlament Aparatının və İşlər İdarəsinin kollektivləri Milli Məclisin deputatı İlham Məmmədova anası

**NAZXANIM XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Milli Məclisin rəhbərliyi, deputatlar, Parlament Aparatının və İşlər İdarəsinin kollektivləri Milli Məclis Aparatının Vətəndaşların qəbulu və müraciətləri ilə iş şöbəsinin baş məsləhətçisi

**AQŞİN MƏMMƏDZADƏNİN**

vəfatından kədərləndiklərini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Milli Məclisinin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova və komitənin üzvləri Milli Məclisin deputatı İlham Məmmədova anası

**NAZXANIM XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev və komitə üzvləri Elşad Musayev, Səttar Möhbalıyev, Ziyad Səmədzadə, Jalə Əliyeva, Nigar Məmmədova, Sevinc Hüseynova, Vüqar Bayramov, Soltan Məmmədov, Əziz Ələkbərov, Bədəl Bədəlov, Göydəniz Qəhrəmanov və Milli Məclis Aparatının əməkdaşları İlahə Mehrəliyeva, Hüseyn Əliyev, Yusif Hüseynli Milli Məclisin deputatı İlham Məmmədova anası

**NAZXANIM XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı Milli Məclisin deputatı İlham Məmmədova anası

**NAZXANIM MƏMMƏDOVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin rəhbərliyi və kollektivi Bakı Ali Neft Məktəbinin rektoru Elmar Qasımova atası

**ELDAR QASIMOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Milli Məclisin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov, komitə sədrinin müavini Rəşad Mahmudov və komitə üzvləri Məlahət İbrahimqızı, Kamaləddin Qafarov, Günay Əfəndiyeva, Müşfiq Məmmədli, Soltan Məmmədov, Anatoliy Rafailov və Pərvanə Vəliyeva Milli Məclisin deputatı, Səhiyyə komitəsinin üzvü İlham Məmmədova anası

**NAZXANIM MƏMMƏDOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"İcraçı Kredit Agentliyi" Məhdud Məsuliyyətli Cəmiyyət Bank olmayan Kredit Təşkilatının Müşahidə Şurası və kollektivi təşkilatın İdarə Heyətinin sabiq sədri

**FARİZ MAHMUD OĞLU MAHMUDOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

COP29 Baku Azerbaijan


**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

**Gündəlik rəsmi dövlət qəzeti**

Tiraj 4219
Sifariş 2648

Qiyməti 60 qəpik


MASDAR
ÜMİD MƏNBƏYİ
Daha yaşıl gələcəyə doğru
Enerji sahəsində öncül